# Azərbaycan Xalq Cümhuriyyəti:

## 100 sual, 100 cavab

Tərtibçi

**Hacı Abdulla**
*Azərbaycan Respublikasının Prezidenti yanında*
*Bilik Fondunun Ölkədaxili layihələr sektorunun müdiri*

Elmi redaktor

**Anar İsgəndərli**
*Bakı Dövlət Universiteti*
*Mənbəşünaslıq, tarixşünaslıq və metodika kafedrasının müdiri,*
*AMEA Hüquq və İnsan Haqları İnstitutunun baş elmi işçisi,*
*tarix elmləri doktoru, professor*

Baş redaktor

**Oktay Səmədov**
*Azərbaycan Respublikasının Prezidenti yanında*
*Bilik Fondunun icraçı direktoru,*
*pedaqogika üzrə fəlsəfə doktoru, dosent*

Nəşrə məsul

**Əliş Ağamirzəyev**
*Azərbaycan Respublikasının Prezidenti yanında*
*Bilik Fondunun məsləhətçisi,*
*filologiya üzrə fəlsəfə doktoru, dosent*

**Azərbaycan Xalq Cümhuriyyəti: 100 sual, 100 cavab.**
– Bakı: Mütərcim, 2018. – 148 səh.

# Ön söz

Əziz oxucu!

Bu il Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi qeyd olunur. Bu fikri söyləməyə bəlkə də heç ehtiyac yoxdur: 23 ay fəaliyyət göstərən Azərbaycan Xalq Cümhuriyyəti Azərbaycan xalqının şərəf tarixidir. Bu dövlət 23 ay fəaliyyət göstərsə də, qısa zaman kəsiyində 350 dəfə "ilk" sözünə imza atdı, coğrafi məfhum olan "Azərbaycan" ifadəsini siyasi məfhuma çevirdi: dövlət Azərbaycan Xalq Cümhuriyyəti adlanmağa başladı. Bununla da, müsəlman Şərqində ilk Cümhuriyyətin əsası qoyuldu. İlk parlamentin, ilk universitetin, ilk hakimiyyət bölgüsünün əsasını qoydu və s.

1918-ci ilin dekabrında elə bir parlament təşkil etdi ki, bu ölkədə milli mənsubiyyətindən asılı olmayaraq, bütün millətin nümayəndələri orada təmsil olunurdu. Ölkədə yaşayan bir "ovuc" polyaka, almana belə parlament yer ayırdı. Halbuki, 20 min seçiciyə bir parlament üzvü düşürdü. Mübaliğəsiz deyə bilərik ki, Parlamentin 1919-cu ilin iyulunda seçkilərdə qadın və kişi bərabərliyi haqqında qəbul etdiyi qanun Avropa ölkələrində parlamentlərin müzakirəsinə yalnız II Dünya müharibəsindən sonra çıxarıldı.

Paris Sülh Konfransının Azərbaycanı "de-fakto" tanıması, Bakı Dövlət Universitetinin təsis edilməsi, milli hökumətin təşkili, parlament fraksiyaları və onların qanunverici orqan kimi fəaliyyəti, qonşu dövlətlərlə, o cümlədən Osmanlı, İran, Gürcüstanla müqavilələrin imzalanması, daşnak Ermənistanı, sovet Rusiyası ilə qonşuluq münasibətlərinin qurula bilməməsinin səbəblərini, Qafqaz İslam

Ordusunun Azərbaycana xilaskarlıq yürüşünü, Qarabağ və Naxçıvan general-qubernatorluqlarının təşkilini və Cümhuriyyətlə bağlı daha maraqlı məsələləri öyrənmək istəyirsinizsə, tədqiqatçı Hacı Nərimanoğlunun böyük zəhməti hesabına tərtib etdiyi "Azərbaycan Xalq Cümhuriyyəti-100" kitabını alın, oxuyun, dostlarınıza, Azərbaycandan kənarda yaşayan, Azərbaycanın haqq işini müdafiə edənlərə hədiyyə edin. Əmin olun, əgər bu yaddaş kitabçasını dünyanın ayrı-ayrı ölkələrinə ayrı-ayrı dillərdə göndərə bilsək, Qarabağa, işğal altında olan torpaqlara hər gün yaxınlaşmış oluruq. Yüz il bundan öncə elan olunan Cümhuriyyət "Qarabağ Azərbaycanındır" mübahisəsinə tarixi sənədlərlə son qoymuşdur. Siz bu yaddaş kitabçasını oxumaqla həm öyrənər, həm də öyrədə bilərsiniz.

Kitabın ərsəyə gəlməsində əməyi keçən hər kəsə, o cümlədən Bilik Fonduna dərin təşəkkürümü bildirirəm.

**Anar İsgəndərov,**
*tarix üzrə elmlər doktoru, professor*

# Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

2018-ci il may ayının 28-də müsəlman Şərqində ilk parlamentli respublikanın – Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100 illiyi tamam olur.

Qədim və zəngin dövlətçilik ənənələrinə malik Azərbaycan xalqı keçmişinin müəyyən dövrlərində tarixin hökmü ilə böyük imperiyalar tərkibinə qatılmaq məcburiyyətində qalmışdır. Azərbaycan Xalq Cümhuriyyəti məhz dünyanın siyasi nizamının yenidən qurulduğu bir vaxtda, XIX əsrin axırları və XX əsrin əvvəllərində Azərbaycanın yaşadığı parlaq mədəni yüksəliş mərhələsinin məntiqi yekunu kimi meydana çıxmışdır.

XIX əsrin birinci yarısından etibarən maarifçilik ideyalarının yayılması ilə Azərbaycanda baş vermiş köklü ictimai-siyasi və mədəni dəyişikliklər yeni tipli teatrın, məktəbin və mətbuatın yaranmasını təmin etməklə milli özünüdərkin gerçəkləşməsi üçün zəmin hazırladı. Abbasqulu ağa Bakıxanov və Mirzə Fətəli Axundzadə ilə başlayan bu yolu yeni tarixi mərhələdə Həsən bəy Zərdabi, Cəlil Məmmədquluzadə, Mirzə Ələkbər Sabir, Əli bəy Hüseynzadə və digər görkəmli şəxsiyyətlər davam etdirərək milli məfkurənin təşəkkülü və inkişafına mühüm təsir göstərirdilər. Həmin dövrdə güclü sahibkarlar təbəqəsinin formalaşdığı neft şəhəri Bakı, eyni zamanda, milli ruhlu ziyalılar nəslinin yetişdiyi ictimai-siyasi fikir mərkəzinə çevrilmişdi.

Rusiyanın Dövlət dumalarına və Müəssislər məclisinə seçilmiş azərbaycanlılar müstəmləkədən azad, demokratik dövlət sistemi yaratmağa hazır idilər.

Bununla yanaşı, Rusiyada çarizmin süqutundan sonra bolşeviklərin hakimiyyəti ələ keçirməsi ilə keçmiş imperiya ərazisində mürəkkəb geosiyasi vəziyyət yaranmışdı. Dünyanın aparıcı dövlətlərinin Bakı neftinə marağının siyasi çarpışmaları daha da gərginləşdirdiyi belə bir şəraitdə Azərbaycanın tərəqqipərvər siyasi elitası müstəqil milli dövlətçiliyin yaradılması naminə birləşdi.

1918-ci il may ayının 28-də Azərbaycanın müstəqilliyini bəyan edən İstiqlal bəyannaməsi qəbul edildi. Yeni qurulan Azərbaycan Xalq Cümhuriyyəti öz üzərinə götürdüyü çətin tarixi vəzifəni imkanlarının ən son həddində çalışaraq şərəflə yerinə yetirdi. Azərbaycanın ilk Parlamenti və Hökuməti, dövlət aparatı təşkil edildi, ölkənin sərhədləri müəyyənləşdirildi, bayrağı, himni və gerbi yaradıldı, ana dili dövlət dili elan edildi, dövlət quruculuğu sahəsində ciddi tədbirlər həyata keçirildi. Ölkənin ərazi bütövlüyü və milli təhlükəsizliyi təmin edildi, qısa müddətdə yüksək döyüş qabiliyyətli hərbi hissələr yaradıldı, milli tələblərə və demokratik prinsiplərə uyğun dövlət orqanları quruldu, maarifin və mədəniyyətin inkişafına xüsusi diqqət yetirildi, Azərbaycanın ilk universiteti təsis olundu, təhsil milliləşdirildi, xalqın sonrakı illərdə mədəni yüksəlişi üçün zəmin hazırlayan, ictimai fikir tarixi baxımından müstəsna əhəmiyyətli işlər görüldü.

Mövcudluğunun ilk günlərindən xalq hakimiyyəti və insanların bərabərliyi prinsiplərinə əsaslanan Azərbaycan Xalq Cümhuriyyəti bütün ölkə vətəndaşlarına eyni hüquqlar verərək irqi, milli, dini, sinfi bərabərsizliyi ortadan qaldırdı. Cümhuriyyət parlamentinin il yarımlıq fəaliyyəti bo-

yunca qəbul etdiyi qanunlar milli dövlətin müstəqilliyinin möhkəmləndirilməsinə, siyasi və iqtisadi inkişafa, mədəniyyət və maarif sahələrində sürətli irəliləyişə imkan verdi. Azərbaycan Xalq Cümhuriyyəti daim sülhsevər siyasət apararaq bütün dövlətlərlə qarşılıqlı əməkdaşlıq əlaqələri yaratmağa və bir-birinin hüquqlarına hörmət prinsipləri əsasında münasibətlər qurmağa cəhd göstərirdi. Dünya birliyi tərəfindən tanınmış Xalq Cümhuriyyətinin fəaliyyəti sayəsində Azərbaycanın beynəlxalq hüququn subyekti olması 1920-ci ilin aprel ayındakı bolşevik işğalından sonra Azərbaycanın bir dövlət kimi dünyanın siyasi xəritəsindən silinməsinin qarşısını aldı.

Azərbaycan Xalq Cümhuriyyəti təcavüzə məruz qaldığı üçün qarşıya qoyduğu məqsədlərə tam müvəffəq ola bilmədən süquta uğrasa da, onun şüurlarda bərqərar etdiyi müstəqillik ideyası unudulmadı. Azərbaycan xalqı ötən dövr ərzində milli dövlətçilik atributlarının bir çoxunu qoruyub saxlaya bildi. Ümummilli lider Heydər Əliyevin respublikada uğurla gerçəkləşdirdiyi siyasət xalqımızın tarixi-mədəni yaddaşını özünə qaytararaq milli mənlik şüurunu inkişaf etdirdi, azərbaycançılıq məfkurəsi işığında müstəqillik arzularının güclənməsi və yaxın gələcəkdə yenidən həqiqətə çevrilməsinə zəmin yaratdı.

1991-ci ildə müstəqilliyinin bərpasına nail olarkən müasir Azərbaycan Respublikası özünün qədim dövlətçilik ənənələrinə sadiq qaldığını göstərdi, Xalq Cümhuriyyətinin siyasi və mənəvi varisi olmaqla onun üçrəngli bayrağını, gerbini, himnini qəbul etdi. Xalqımız Cümhuriyyətin istiqlalını dünyaya yaydığı 28 May gününü həmin vaxtdan Respublika Günü olaraq təntənə ilə qeyd edir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, milli dövlətçilik

salnaməsini müstəsna dərəcədə zənginləşdirmiş AXC-nin 100 illiyinin layiqincə keçirilməsini təmin etmək məqsədi ilə qərara alıram:

1. Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasının 100 illik yubileyi respublikada dövlət səviyyəsində geniş qeyd edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti AXC-nin 100 illik yubileyinə həsr olunmuş tədbirlər planını hazırlayıb həyata keçirsin.

3. Azərbaycan Respublikasının Milli Məclisinə Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin yaranmasının 100 illik yubileyi münasibətilə xüsusi iclasın keçirilməsi tövsiyə edilsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 16 may 2017-ci il.

# 2018-ci ilin Azərbaycan Respublikasında “Azərbaycan Xalq Cümhuriyyəti İli” elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1918-ci il mayın 28-də Azərbaycan xalqının həyatında misilsiz hadisə baş vermiş, Müsəlman Şərqində ilk parlamentli respublika olan Azərbaycan Xalq Cümhuriyyəti qurulmuşdur. Cəmi iki ilə yaxın yaşamış Azərbaycan Xalq Cümhuriyyəti zəngin dövlət quruculuğu təcrübəsi ilə milli dövlətçilik tarixində silinməz izlər qoymuş, xalqın qəlbində azadlıq və istiqlal duyğularını gücləndirməklə respublikanın gələcək müstəqilliyi üçün etibarlı zəmin hazırlamışdır.

2018-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100-cü ildönümü tamam olur. Bu əlamətdar hadisənin dövlət səviyyəsində layiqincə qeyd edilməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin “Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi haqqında” 2017-ci il 16 may tarixli 2867 nömrəli Sərəncamına əsasən, Azərbaycan Respublikasının Nazirlər Kabinetinə müvafiq tədbirlər planının hazırlanıb həyata keçirilməsi tapşırılmışdır. Bu tədbirlərlə yanaşı, Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100-cü ildönümü ilə əlaqədar ölkədə və ölkə xaricində silsilə tədbirlərin həyata keçirilməsi nəzərdə tutulmuşdur.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraqqərara alıram:

2018-ci il Azərbaycan Respublikasında "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan edilsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 10 yanvar 2018-ci il.

**Ümummilli lider Heydər Əliyev**
**Azərbaycan Xalq Cümhuriyyəti haqqında:**

*“Azərbaycan Xalq Cümhuriyyəti gərgin və mürəkkəb ictimai-siyasi şəraitdə cəmi 23 ay fəaliyyət göstərsə də, sonrakı nəsillərin yaddaşında xalqımızın tarixinin ən parlaq səhifələrindən biri kimi həmişə qalacaqdır. O, az yaşasa da, xalqımızda azadlıq, müstəqillik fikirlərini daha da gücləndirmiş oldu. Bu cümhuriyyətin yaradılmasında müstəsna xidmətləri olan Məhəmməd Əmin Rəsulzadə, Əlimərdan bəy Topçubaşov, Fətəli xan Xoyski, Həsən bəy Ağayev, Nəsib bəy Usubbəyov, Mehdi bəy Hacınski, Məmməd Yusif Cəfərov, Xudadat bəy Rəfibəyov, Əkbər ağa Şeyxülislamov, Teymur bəy Makinski, Səməd bəy Mehmandarov, Əlağa Şıxlinski, Sultanməcid Qənizadə, Xəlil bəy Xasməmmədov, Əhməd bəy Pepinov, Şəfi bəy Rüstəmbəyov kimi görkəmli ictimai xadimlərin xatirəsini qədirbilən Azərbaycan xalqı bu gün də böyük ehtiram hissi ilə yad edir.”*

*“Bu il biz müstəqilliyimizin yüz illiyini qeyd edəcəyik. Yüz il bundan əvvəl müsəlman aləmində ilk dəfə olaraq demokratik respublika yaradılmışdır. Biz fəxr edirik ki, bu respublikanı Azərbaycan xalqı yaradıb və bir daha bütün dünyaya nümayiş etdirib ki, Azərbaycan xalqı böyük xalqdır, istedadlı xalqdır, azad xalqdır. Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması və iki il ərzində fəaliyyəti tarixi hadisə idi. Azərbaycan o ölkələrdəndir ki, hələ yüz il bundan əvvəl ən ülvi demokratik dəyərləri nəinki bəyan edib, öz praktiki fəaliyyətində onları təmin edib. Bugünkü*

*Azərbaycan, müstəqil Azərbaycan Azərbaycan Xalq Cümhuriyyətinin varisidir. Biz Azərbaycan Xalq Cümhuriyyətinin bütün demokratik ənənələrinə sadiqik və bu ənənələri yaşadırıq. Ancaq onu da qeyd etməliyəm ki, indiki Azərbaycan Azərbaycan Xalq Cümhuriyyəti ilə müqayisə edilə bilməz. Çünki o vaxt çətinliklər də olub, müstəqilliyimiz tam imkan vermirdi ki, Azərbaycan müstəqil siyasət aparsın. İqtisadi çətinliklərimiz olub, torpaq itkilərimiz də olub və bizim tarixi şəhərimiz olan İrəvan Ermənistana verilmişdir. Ona görə, biz Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyətini çox düzgün təhlil etməliyik. Bu müsbət və çətin məqamları gizlətməməliyik. Amma bütün çətinliklərə və əlbəttə ki, bizim üçün sağalmayan yara olan İrəvanın Ermənistana verilməsinə baxmayaraq, Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyətini Azərbaycan dövləti və xalqı yüksək qiymətləndirir."*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin*
*Nazirlər Kabinetinin 2017-ci ilin*
*sosial-iqtisadi inkişafının yekunlarına*
*və qarşıda duran vəzifələrə həsr olunan 10 yanvar*
*2018-ci il tarixli iclasındakı nitqindən.*

**Azərbaycan Respublikası Ali Sovetinin 18 oktyabr 1991-ci il tarixli iclasında qəbul edilmiş "Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktı"ndan:**

“1918-ci il mayın 28-də Azərbaycan Milli Şurası İstiqlal Bəyannaməsi qəbul edərək Azərbaycan xalqının dövlət quruluşunun çoxəsrlik ənənələrini dirçəltdi.

Maddə 1. 1920-ci il aprelin 27-28-də RSFSR-in XI Qırmızı Ordusunun Azərbaycana təcavüzü, respublika ərazisini zəbt etməsi, beynəlxalq hüququn subyekti olan Azərbaycan Xalq Cümhuriyyətini devirməsi Rusiyanın müstəqil Azərbaycanı işğal etməsi hesab edilsin”.

# Dövlət gerbi



## Azərbaycan Respublikasının Dövlət gerbi haqqında Azərbaycan Respublikasının Konstitusiya Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

1. Azərbaycan Respublikası Dövlət gerbinin rəngli və ağ-qara təsviri təsdiq edilsin.
2. Bu Qanun imzalandığı andan qüvvəyə minir.

## Azərbaycan Respublikasının Dövlət gerbi haqqında Əsasnamənin təsdiq edilməsi barəsində Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

1. Azərbaycan Respublikasının Dövlət gerbi haqqında Əsasnamə (əlavə olunur) təsdiq edilsin.
2. Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin 1981-ci il 16 mart tarixli Fərmanı (Azərbaycan SSR Ali Sovetinin Məlumatı, 1981-ci il, N-5-6, maddə 70) ilə təsdiq edilmiş Azərbaycan SSR-in Dövlət gerbi haqqında Əsasnamə qüvvəsini itirmiş hesab edilsin.
3. Bu Qanun imzalandığı andan qüvvəyə minir.

Azərbaycan Respublikasının 1993-cü il 23 fevral tarixli Qanunu ilə təsdiq edilmişdir.

## Dövlət bayrağı



## Azərbaycan Respublikasının Dövlət bayrağı haqqında Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Ali Soveti qərara alır:

1. Azərbaycan Respublikasının Dövlət bayrağının təsviri təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Dövlət bayrağı haqqında Əsasnamə təsdiq edilsin

3. "Azərbaycan SSR-in Dövlət bayrağı haqqında Əsasnamənin təsdiq edilməsi barəsində" Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin 1956-cı il 5 may tarixli Fərmanı (Azərbaycan SSR qanunları toplusu, 1938-1966-cı illər, c. I, səh. 221; Azərbaycan SSR Ali Sovetinin Məlumatı, 1981-ci il, № 5-6, maddə 71, № 12, maddə 161) qüvvəsini itirmiş hesab edilsin.

## Azərbaycan Respublikasının Dövlət bayrağı haqqında ƏSASNAMƏ

1. Azərbaycan Respublikasının Dövlət bayrağı Azərbaycan dövlətinin suverenliyi rəmzidir.

2. Azərbaycan Respublikasının Dövlət bayrağı eni bərabər olan rəngli üç üfqi zolaqdan ibarət düzbucaqlı parça şəklindədir: üst zolaq mavi rəngdə, orta zolaq qırmızı rəng-

də, aşağı zolaq yaşıl rəngdədir. Bayrağın hər iki üzündə qırmızı zolağın ortasında ağ rəngli aypara və səkkizguşəli ulduz təsviri vardır. Bayrağın eninin uzununa nisbəti 1:2-dir.

Ayparanın və səkkizguşəli ulduzun təsvirləri tərəflərinin nisbəti 3:4 olan düzbucaqlının içərisində yerləşir; düzbucaqlının diaqonalı bayrağın eninin 1/2-nə bərabərdir.

Ayparanın təsviri konsentrik (eyni mərkəzli) olmayan iki dairənin hissələri şəklindədir; böyük dairənin diametri xarici düzbucaqlının eninə, kiçik dairənin diametri isə bayrağın eninin 1/4-ə bərabərdir. Kiçik dairənin mərkəzi bayrağın həndəsi mərkəzindən sol tərəfdə, bayrağın eninin 1/60-nə bərabər olan məsafədə yerləşir.

Səkkizguşəli ulduzun təsviri ayparadan sağda yerləşir, ulduzun xarici dairəsinin diametri bayrağın eninin 1/6-ni, daxili dairəsinin diametri isə 1/12-ni təşkil edir.

## Dövlət himni

### Azərbaycan Respublikasının Dövlət himni haqqında Əsasnamənin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

1. Azərbaycan Respublikasının Dövlət himni haqqında Əsasnamə (əlavə olunur) təsdiq edilsin.

2. Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin 1984-cü il 12 sentyabr tarixli Fərmanı (Azərbaycan SSR Ali Sovetinin Məlumatı, 1984-cü il, N-17, maddə 152) ilə təsdiq edilmiş Azərbaycan Sovet Sosialist Respublikasının Dövlət himni haqqında Əsasnamə qüvvədən düşmüş sayılsın.

3. Bu Qanun imzalandığı andan qüvvəyə minir.

Azərbaycan Respublikası Milli Məclisinin 1993-cü il 2 mart tarixli qərarı ilə təsdiq edilmişdir.

### Azərbaycan Respublikasının Dövlət himni haqqında ƏSASNAMƏ

1. Azərbaycan Respublikasının Dövlət himni Azərbaycan dövlətinin, onun müstəqilliyinin və birliyinin müqəddəs rəmzidir.

Azərbaycan Respublikasının Dövlət himninə dərin ehtiram bəsləmək onun hər bir vətəndaşının vətənpərvərlik borcudur.

2. Azərbaycan Respublikasının Dövlət himni aşağıdakı hallarda ifa olunur:

- Azərbaycan Respublikası Milli Məclisinin sessiyalarının başlanması və qurtarması zamanı;

- Azərbaycan Respublikasının Prezidenti Azərbaycan Respublikası Milli Məclisinin iclaslarına gəldiyi zaman;
- dövlət bayramlarına həsr olunmuş təntənəli yığıncaqların və iclasların açılışı və bağlanışı zamanı;
- hər gün Azərbaycan Respublikası milli televiziya və radio verilişlərinin əvvəlində və axırında;
- Azərbaycan xalqının və dövlətinin həyatında çox mühüm tarixi hadisələr münasibətilə, Azərbaycanın görkəmli siyasi, dövlət, hərbi xadimlərinin, milli qəhrəmanlarının, elm, ədəbiyyat və incəsənət xadimlərinin şərəfinə abidələrin və lövhələrin açılışı zamanı;
- dövlət və ictimai orqanlar, müəssisələr, idarələr və təşkilatlar tərəfindən keçirilən mərasimlər və digər təntənəli tədbirlər zamanı Azərbaycan Respublikasının Dövlət bayrağı qaldırılarkən;
- Azərbaycan Respublikasına rəsmi görüşə gələn xarici ölkələrin dövlət və hökumət başçıları qarşılanarkən və yola salınarkən - müvafiq ölkənin Dövlət himni ifa olunduqdan sonra. Azərbaycan Respublikasının qanunvericiliyində Azərbaycan Respublikası Dövlət himni hökmən ifa olunduğu başqa hallar da nəzərdə tutula bilər.

3. Azərbaycan Respublikasının Dövlət himni orkestr, xor, orkestr-xor tərəfindən, yaxud başqa vokal üsulla və alətlər vasitəsilə ifa olunur. Bunun üçün səsyazma vasitələrindən də istifadə edilə bilər.

Bütün hallarda Azərbaycan Respublikasının Dövlət himni tam ifa olunur.

4. Azərbaycan Respublikasının Dövlət himni "Azərbaycan Respublikasının Dövlət himni haqqında" Azərbaycan Respublikasının 1992-ci il 27 may tarixli Qanunu ilə təsdiq edilmiş mətnə və musiqi redaksiyasına tam müvafiq surətdə ifa olunmalıdır.

5. Azərbaycan Respublikasının Dövlət himni camaat qarşısında ifa olunarkən oradakılar himni ayaq üstə dinləməli və ya oxumalıdırlar.

6. Hərbi hissələrdə, hərbi gəmilərdə, daxili işlər, sərhəd xidməti və milli təhlükəsizlik orqanlarında Azərbaycan Respublikası Dövlət himninin ifa olunması, habelə himn ifa edilərkən hərbi qulluqçuların, daxili işlər və milli təhlükəsizlik orqanlarının sıravi və rəis heyətinə aid şəxslərin əsgəri rəsm-təzim etməsi hərbi nizamnamələrlə və müvafiq icra hakimiyyəti orqanları tərəfindən müəyyən edilən qaydalarla tənzimlənir.

7. Azərbaycan Respublikası Dövlət himninin musiqisi və mətni əlifba kitabının birinci səhifəsində dərc olunur.

Ümumtəhsil məktəblərində, texniki peşə, orta ixtisas məktəblərində, ali məktəblərdə və başqa tədris müəssisələrində yeni dərs ilinin birinci dərsi Azərbaycan Respublikasının Dövlət himninin öyrənilməsinə və ifasına həsr edilir.

8. Respublika və beynəlxalq idman yarışları keçirilərkən Azərbaycan Respublikası Dövlət himninin ifa olunması qaydası respublika və beynəlxalq idman təşkilatlarının mövcud praktikası nəzərə alınmaqla müəyyən edilir.

9. Respublika idarələri və təşkilatları xarici dövlətlərin ərazisində təntənəli tədbirlər keçirərkən Azərbaycan Respublikasının Dövlət himni müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydalara müvafiq surətdə, onların olduqları ölkənin praktikası və yerli adətləri nəzərə alınmaqla ifa edilir.

10. Azərbaycan Respublikası Dövlət himninin daxili işlər, sərhəd xidməti vəmilli təhlükəsizlik orqanlarında, tədris müəssisələrində, idman yarışları zamanı, habelə Azərbaycan Respublikasının idarələri və təşkilatları tərəfindən xarici dövlətlərin ərazisində tədbirlər keçirilərkən

ifa olunması qaydaları bu Əsasnamənin tələbləri əsas götürülməklə müəyyən edilir.

11. Bu Əsasnamənin dəqiq yerinə yetirilməsinə nəzarət etmək dövlət orqanlarının, müəssisələrin, idarələrin, təşkilatların, siyasi partiyaların, ictimai birliklərin, həmkarlar ittifaqlarının və digər içtimai qurumların rəhbərlərinə həvalə olunur.

12. Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

Musiqisi Üzeyir Hacıbəyovun, mətni Əhməd Cavadın olan "Azərbaycan marşı" Azərbaycan Respublikasının Dövlət himni kimi təsdiq edilsin.

# AZƏRBAYCAN MARŞI

*Musiqisi* ***Üzeyir Hacıbəyovun,***
*sözləri* ***Əhməd Cavadındır.***

Azərbaycan! Azərbaycan!
Ey qəhrəman övladın şanlı Vətəni!
Səndən ötrü can verməyə cümlə hazırız!
Səndən ötrü qan tökməyə cümlə qadiriz!
Üçrəngli bayrağınla məsud yaşa!
Minlərlə can qurban oldu!
Sinən hərbə meydan oldu!
Hüququndan keçən əsgər,
Hərə bir qəhrəman oldu!
Sən olasan gülüstan,
Sənə hər an can qurban!
Sənə min bir məhəbbət,
Sinəmdə tutmuş məkan!
Namusunu hifz etməyə,
Bayrağını yüksəltməyə,
Cümlə gənclər müştaqdır!
Şanlı Vətən! Şanlı Vətən!
Azərbaycan! Azərbaycan!

## 1. Adı

Azərbaycan Xalq Cümhuriyyəti (خلق آذربایجان جمهوریتی), Azərbaycan Cümhuriyyəti, Azərbaycan Demokratik Respublikası, Şimali Azərbaycanda yaranmış müstəqil dövlət, Qafqaz Azərbaycanı (1918, 28 may - 1920, 28 aprel).

## 2. Azərbaycan Milli Şurasının icra orqanının üzvləri

1. Məmməd Həsən Hacınski
2.Nəsib bəy Yusifbəyli
3.Xəlil bəy Xasməmmədov
4.Məmməd Yusif Cəfərov
5.Xudadat bəy Məlik-Aslanov
6.Camo bəy Hacınski
7.Əkbər ağa Şeyxülislamov
8.Xosrov Paşa bəy Sultanov

Mayın 27-də Tiflisdə Zaqafqaziya Seyminin Müsəlman fraksiyasının üzvləri iclas keçirərək Azərbaycan Milli Şurasını yaratdılar, bununla da Azərbaycan Parlamenti - Azərbaycanın ilk Parlamenti yarandı, ilk parlamentli respublikanın bünövrəsi qoyuldu. Həmin ilk iclasda M.Ə.Rəsulzadə Azərbaycan Milli Şurasının sədri seçildi. O, bu iclasda iştirak etmirdi, Batum konfransında danışıqlar aparırdı. Həsən bəy Ağayev və Mir Hidayət Seyidov sədrin müavinləri təsdiq olundular.

Hakimiyyət üç qoldan ibarət idi: Parlament, Hökumət, məhkəmə hakimiyyəti. Dövlət Parlamentin qəbul etdiyi qanun və qərarlar əsasında idarə olunurdu. İcra hakimiyyəti Hökumətə məxsus idi. Hökumət Parlament qarşısında cavabdeh idi.

## 3. Müvəqqəti hökumətin tərkibi

Azərbaycan Milli Şurası 1918-ci il mayın 28-də keçirilən iclasında bu tərkibdə Müvəqqəti Hökumət yaratdı:

Fətəli xan Xoyski - Nazirlər Şurasının sədri və daxili işlər naziri;

Xosrov Paşa bəy Sultanov - Hərbi nazir;

Məmməd Həsən Hacınski - Xarici işlər naziri;

Nəsib bəy Yusifbəyli - Maliyyə və xalq maarifi naziri;

Xəlil bəy Xasməmmədov - Ədliyyə naziri;

Məmməd Yusif Cəfərov - Ticarət və sənayə naziri;

Əkbər ağa Şeyxülislamov - Əkinçilik və əmək naziri;

Xudadat bəy Məlik-Aslanov - Yollar və poçt-teleqraf naziri;

Camo bəy Hacınski - Dövlət nəzarəti naziri.

## 4. Azərbaycanın İstiqlal bəyannaməsini qəbul edənlər

Mayın 28-də Həsən bəy Ağayevin sədrliyi ilə Azərbaycan Milli Şurasının tarixi iclası keçirildi. Həsən bəy Ağayev (sədr), Mustafa Mahmudov (katib), Fətəli xan Xoyski, Xəlil bəy Xasməmmədov, Nəsib bəy Yusifbəyli, Mir Hidayət Seyidov, Nəriman bəy Nərimanbəyov, Heybətqulu bəy Məmmədbəyov, Mehdi bəy Hacınski, Ələsgər bəy Mahmudbəyov, Aslan bəy Qardaşov, Sultan Məcid Qənizadə, Əkbər ağa Şeyxülislamov, Mehdi bəy Hacıbababəyov, Məmməd Yusif Cəfərov, Xudadat bəy Məlik Aslanov, Rəhim bəy Vəkilov, Həmid bəy Şahtaxtinski, Firidun bəy Köçərli, Camo bəy Hacinski, Şəfı bəy Rüstəmbəyov, Xosrov Paşa bəy Sultanov, Cəfər bəy Axundov,

Məhəmməd Məhərrəmov, Cavad bəy Məlik Yeqanov və Hacı Səlim Axundzadənin iştirak etdiyi həmin iclasda Azərbaycanın İstiqlal bəyannaməsi qəbul edildi (Sultan Məcid Qənizadə və Cəfər bəy Axundov səsvermədə bitərəf qaldılar). Həmin dövrdə Əqdnamə və ya Misaqi milli adlanan bu sənədi Həsən bəy Ağayev, Fətəli xan Xoyski, Nəsib bəy Yusifbəyli, Camo bəy Hacinski, Şəfi bəy Rüstəmbəyov, Nəriman bəy Nərimanbəyov, Cavad bəy Məlik Yeqanov, Mustafa Mahmudov imzaladılar.

İstiqlal Bəyannaməsinin seymdə, sonra Azərbaycanın Milli Şurasında qəbulu zamanı, ən çox üzvlü Müsavat Partiyası və ona daxil olmuş qeyri-partiyasızlar idi (30 nəfər); müsəlman sosialistlər bloku (7 nəfər), İttihad Partiyası (3 nəfər), Hümmət sosial-demokrat partiyası (4 nəfər).

## 5. İstiqlal Bəyannaməsinin mətni

1. Bu gündən etibarən Azərbaycan xalqı hakimiyyət hüququna malik olduğu kimi, Cənub-Şərqi Zaqafqaziyanı əhatə edən Azərbaycan da tam hüquqlu müstəqil bir dövlətdir.

2. Müstəqil Azərbaycan dövlətinin idarə forması Xalq Cümhuriyyətidir.

3. Azərbaycan Xalq Cümhuriyyəti bütün millətlərlə, xüsusilə qonşu olduğu millətlər və dövlətlərlə mehriban münasibətlər yaratmaq əzmindədir.

4. Azərbaycan Xalq Cümhuriyyəti milliyyətindən, məzhəbindən, sinfindən, silkindən və cinsindən asılı olmayaraq öz sərhədləri daxilində yaşayan bütün vətəndaşlarına siyasi hüquqlar və vətəndaşlıq hüququ təmin edir.

5. Azərbaycan Xalq Cümhuriyyəti öz ərazisi daxilində yaşayan bütün millətlərin sərbəst inkişafı üçün geniş imkanlar yaradır.

## 6. Azərbaycan Xalq Cümhuriyyətinin Hökumət kabinələri

I kabinə: 28.05.1918 – 17.06.1918.

1. Nazirlər Şurasının sədri və Daxili İşlər naziri – F.Xoyski (bitərəf)
2. Hərbi nazir – X.Sultanov (müsavat)
3. Xarici İşlər naziri – M.H.Hacınski (müsavat)
4. Malliyyə və Xalq Maarifi naziri - N.Yusifbəyli (müsavat)
5. Ədliyyə naziri – X.Xasməmmədov (müsavat)
6. Ticarət və Sənaye naziri – M.Y.Cəfərov (bitərəf, sonra – müsavat)
7. Əkinçilik və Əmək naziri – Ə.Şeyxülislamzadə (Hümmət)
8. Yollar, Poçt və Teleqraf naziri – X.Məlikaslanov (bitərəf)
9. Dövlət müfəttişi – C.Hacınski (sosialist)

II kabinə: 17.06.1918 – 07.12.1918.

1. Nazirlər Şurasının sədri və Ədliyyə naziri F.Xoyski (bitərəf)
2. Xarici İşlər naziri – M.Hacınski (müsavat)
3. Xalq Maarifi və Dini Etiqad naziri – N. Yusifbəyli (müsavat)
4. Daxili İşlər naziri – B.Cavanşir (bitərəf)
5. Əkinçilik naziri – X.Sultanov (müsavat)
6. Səhiyyə və Sosial – Təminat naziri - X.Rəfibəyli (bitərəf)
7. Yollar naziri – X.Məlikaslanov (bitərəf)
8. Ticarət və Sənaye naziri – A.Aşurov (bitərəf)

9. Malliyyə naziri – Ə.Əmircanov (bitərəf )
10. Portfelsiz nazir – Ə.M.Topçubaşov (bitərəf)
11. Portfelsiz nazir – M.Rəfiyev (müsavat)
12. Portfelsiz nazir – X.Xasməmmədov (müsavat)

*06.10.1918 tarixli kabinədaxili dəyişikliklərdən sonra*

1. Nazirlər Şurasının sədri – F.Xoyski (bitərəf)
2. Ticarət, Sənaye və Daxili İşlər naziri – B.Cavanşir (bitərəf)
3. Xarici İşlər naziri – Ə.M.Topçubaşov (bitərəf)
4. Malliyyə naziri – M.H.Hacınski (müsavat)
5. Xalq Maarifi naziri – H.Yusifbəyli (müsavat)
6. Yollar naziri – X.Xasməmmədov (bitərəf)
7. Əkinçilik naziri – X.Sultanov (müsavat)
8. Xalq Səhiyyəsi naziri – X.Rəfibəyli (bitərəf)
9. Poçt - Teleqraf naziri – A.Aşurov (bitərəf)
10. Sosial- Təminat və Dini Etiqad naziri – M.Rəfiyev (müsavat)
11. Hərbi İşlər üzrə müvəkkil – İ.Ziyatxan (bitərəf)
12. Dövlət müfəttişi – Ə.Əmircanov (bitərəf)

III kabinə: 26.12.1918 - 14.03.1919.

1. Nazirlər Şurasının sədri və Xarici işlər naziri – F.Xoyski (bitərəf)
2. Daxili İşlər naziri – X.Xasməmmədov (müsavat)
3. Malliyyə naziri – İ.Protasov (Slavyan-Rus Cəmiyyəti)
4. Yollar naziri – X.Məlikaslanov (bitərəf)
5. Ədliyyə nazırı – T.Makinski (?)
6. Maarif və Dini Etiqad nazırı – N.Yusifbəyli (müsavat)

7. Poçt-Teleqraf və Əmək naziri – A.Səfikürdski (sosialist)

8. Hərbi nazir – S.Mehmandarov (bitərəf)

9. Sosial - Təminat naziri – R.Xoyski (bitərəf)

10. Xalq Səhiyyəsi naziri – Y.Gindes ( Slavyan-Rus Cəmiyyəti)

11. Ticarət və Sənaye naziri – M.Əsədullayev (bitərəf)

12. Dövlət müfəttişi – M.H.Hacinski (16.01. 1919 )

13. Ərzaq naziri – K.Lizqar (Slavyan-Rus Cəmiyyəti)

14. Əkiçilik naziri – X.Sultanov (müsavat)

IV kabinə: 14.03.1919 – 22.12.1919.

1. Nazirlər Şurasının sədri və Daxili İşlər naziri – N.Yusifbəyli (bitərəf)

2. Malliyyə naziri – Ə.Həsənov (bitərəf)

3. Ticarət və Sənaye naziri – A.Əminov (bitərəf)

4. Xarici İşlər naziri – M.Y.Cəfərov (müsavat)

5. Yollar naziri – X.Məlikaslanov (bitərəf)

6. Poçt-Teleqraf naziri – C.Hacınski (sosialist)

7. Hərbi nazir – S.Mehmandarov (bitərəf)

8. Sosial-Təminat naziri – V.Klenevski (Slavyan-Rus Cəmiyyəti)

9. Səhiyyə naziri – A.Dastakov (?)

10. Maarif və Dini Etiqad naziri – R.Kaplanov (əhrar)

11. Əkinçilik naziri – A.Qardaşov (əhrar)

12. Portfelsiz nazir – X.Amaspür (daşnaksütun)

13. Dövlət müfəttişi – N.Nərimanbəyli (müsavat)

14. Ədliyyə və Əmək naziri – A. Səfikürdski (sosialist)

15. Sonralar Daxili İşlər naziri – X.Xasməmmədov (müsavat)

V kabinə: 24.12.1919 – 01.04.1920.

1. Nazirlər Şurasının sədri – N.Yusifbəyli (müsavat)
2. Xarici İşlər naziri – F.Xoyski (bitərəf)
3. Hərbi nazir – S.Mehmandarov (bitərəf)
4. Daxili İşlər naziri – M.H.Hacınski. 18.09.02.1920-dən sonra M.Vəkilov (birincisi əvvəl müsavat, sonra kommunist, M.Vəkilov - müsavat).
5. Ədliyyə naziri – X.Xasməmmədov (müsavat)
6. Maliyyə naziri – R.Kaplanov (əhrar)
7. Maarif və Dini Etiqad naziri – H. Şahtaxtinski (05.03.1920-dən sonra N.Şahsurarov, hər ikisi - ittihad).
8. Əmək və Əməkçilik naziri – Ə.C.Pepinov (sosialist)
9. Yollar naziri, eyni zamanda Ticarət, Sənaye və Ərzaq üzrə müvəqqəti nazir – X.Məlikaslanov (18.02.1920-dən sonra ticarət, sənaye və ərzaq naziri – M.H.Hacınski).
10. Poçt-Teleqraf naziri – C.Hacınski (sosialist)
11. İctimai Təminat və Səhiyyə naziri – M.Rəfiyev (müsavat)
12. Dövlət müfəttişi – H.Məmmədbəyov (ittihad)

## 7. Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin ilk radioqram və notaları

Hökumət başçısı Fətəli xan Xoyski 1918-ci il mayın 30-da bir sıra dövlətlərin xarici işlər nazirlərinə radioqram göndərərək, Azərbaycanın müstəqil dövlət elan olunduğunu bəyan etdi. Konstantinopol (İstanbul), Berlin, Vyana, Paris, London, Roma, Vaşinqton, Sofiya, Buxarest, Theran, Madrid, Haaqa, Moskva, Stokholm, Kiyev, Kristianiya (Oslo), Kopenhagen və Tokioya göndərilən həmin radioqramda, eyni zamanda, bildirilirdi ki, Cümhuriyyət

Hökuməti, müvəqqəti olaraq, Yelizavetpolda (Gəncə) fəaliyyət göstərəcəkdir. Bundan əlavə, xarici işlər naziri M.H.Hacinski Türkiyənin xarici işlər naziri Əhməd Nəsimi bəydən məxfı teleqramla xahiş etdi ki. Avropa dövlətlərinin paytaxtlarındakı türk səfirlikləri Azərbaycanın həmin ölkələrdəki nümayəndəlikləri funksiyasını da öz üzərlərinə götürsünlər.

## 8. Azərbaycan Xalq Cümhuriyyəti və Cənubi Qafqaz əhalisinin sayı, milli tərkibi

Əlimərdan bəy Topçubaşovun Antanta dövlətlərinin İstanbuldakı nümayəndələrinə təqdim etdiyi xüsusi memorandumda Cənubi Qafqazın 237055 kv. km-lik ərazisində 7667370 nəfərin yaşadığı qeyd olunurdu ki, onların da etnik tərkibi belə idi: 3306000 (43,1%) müsəlman, 1786000 (23,3%) erməni, 1641000 (21,4%) gürcü. Həmin sənədə əsasən AXCərazisində 2353000 nəfər yaşayırdı ki, bu da Cənubi Qafqaz əhalisinin 30,7%-nə bərabər idi.

AXCHökumətinin Paris sülh konfransına təqdim etdiyi sənədlərə görə isə, AXC-ninhəqiqi hakimiyyəti altında olan ərazi Cənubi Qafqaz ərazisinin 38%-ni, Azərbaycan hakimiyyətinin yayıldığı ərazilərlə birlikdə isə 60,7%-ni əhatə etdiyi bildirilirdi. Göstərilən sənədlərdə məhz həmin ərazi müvafiq olaraq Cənubi Qafqazın əhalisi də hesablanmışdı. Paris sülh konfransına təqdim olunmuş sənədlərə əsasən, ümumiyyətlə, Cənubi Qafqazın əhalisi 8081668 nəfərdən ibarət idi. Onların 4617671 nəfəri (57,1%) Azərbaycanda yaşayırdı. Azərbaycan əhalisinin 75,4%-ni (3481889 nəfər) azərbaycanlılar, 17,2%-ni (795312 nəfər) ermənilər, 0,6%-ni (26585 nəfər) gürcülər, 6,7%-ni (310885 nəfər) başqa xalqların nümayəndələri

təşkil edirdi. AXC Hökuməti ölkə əhalisinin sayı və etnik tərkibinin müəyyənləşdirilməsinə xüsusi diqqət yetirirdi. Əhali haqqında daha bir məlumat AXC-nin ünvan-təqvimində xüsusi cədvəl halında dərc edilmişdi.

## 9. Azərbaycan Xalq Cümhuriyyətinin tanınması

Paris Sülh Konfransının 1920-ci il 11 yanvar tarixli qərarına əsasən AXC müstəqil dövlət kimi tanınmışdı. Lord Corc Kerzonun təklifilə müttəfiqlərin Ali Şurası bununla bağlı aşağıdakı məzmunda qərar qəbul edilmişdi: "Müttəfiq vo birləşmiş dövlətlər Azərbaycan və Gürcüstan hökumətlərini de-fakto səviyyəsində birgə tanıyırlar".

Türkiyə, İran, Ukrayna, Böyük Britaniya, ABŞ, Fransa, İtaliya, Polşa, İsveç, İsveçrə, Latviya, Litva, Estoniya, Finlandiya, Rumıniya, Almaniya, Gürcüstan, Ermənistan, Dağlılar Respublikası, İran, Krım və b. ölkələrlə səfirlik və nümayəndəlliklər səviyyəsində diplomatik münasibətlər yaratmış, ikitərəfli və çoxtərəfli müqavilələr, sazişlər bağlamışdı.

## 10. Azərbaycan Xalq Cümhuriyyəti ali icra hakimiyyəti orqanı. Hökumət başçısı.

1918-ci il mayın 28-də Azərbaycan Milli Şurası tərəfindən Azərbaycanın müstəqilliyi barədə İstiqlal bəyannaməsi elan edildikdən sonra, həmin bəyannamənin 6-cı maddəsinə əsasən, ölkədə Müəssislər Məclisi çağırılana qədər Milli Şura qarşısında məsul olan Müvəqqəti Hökumət təşkil edildi. Hökumətin təşkili Milli Şuranın üzvü Fətəli xan Xoyskiyə tapşırıldı. Xoyski başda olmaqla AXC-nin birinci Müvəqqəti Hökumətini yaratdı. AXC fəaliyyət

göstərdiyi 23 ay ərzində 5 Hökumət kabinəsi dəyişmişdir. Birinci 3 kabinəyə Fətəli xan Xoyski, sonrakı 2 kabinəyə isə Nəsib bəy Yusifbəyli başçılıq etmişdir. Hökumət başçısı, eyni zamanda, Nazirlər Şurasının sədri funksiyasını da yerinə yetirirdi. Ölkənin daxili və xarici siyasət məsələləri Nazirlər Şurası sədrinin rəhbərliyi ilə onun iclaslarında kollegial şəkildə müzakirə olunur və müvafiq qərarlar qəbul edilirdi. 1918-ci il iyunun 17-də Milli Şura Gəncədə öz fəaliyyətini dayandırarkən ölkə üçün bir sıra həyati əhəmiyyət kəsb edən məsələlər istisna olmaqla, bütün hakimiyyət funksiyalarını Müvəqqəti Hökumətə həvalə etmiş və Nazirlər Şurasının hüquq və vəzifələrini müəyyənləşdirmişdi. 1918-ci il dekabrın 7-də Azərbaycan Parlamenti Bakıda fəaliyyətə başladıqdan sonra ölkənin qanunvericilik hakimiyyəti Parlamentə, icra hakimiyyəti isə Nazirlər Şurasının səlahiyyətinə keçmişdir. Nazirlər Şurasının iclaslarında ayrı-ayrı nazirliklər tərəfindən hazırlanmış qanun layihələrinə baxılır və bəyənildikdən sonra qəbul olunaraq Parlamentin müzakirəsinə çıxarılırdı. Bütün bu işlərin icrasına isə bilavasitə Nazirlər Şurasının sədri rəhbərlik edirdi. AXC Hökuməti 1918-ci il mayın 28-dən iyunun 16-dək Tiflisdə, iyunun 16-dan sentyabrın 17-dək Gəncədə, sentyabrın 17-dən 1920-ci il aprelin 28-dək Bakıda fəaliyyət göstərmişdir.

## 11. Azərbaycan Xalq Cümhuriyyətinin ərazisi və mübahisəli ərazilər

AXC-nin yaranması ərəfəsində Cənubi Qafqazda azərbaycanlıların elliklə yaşadıqları ərazilər təqribən 150 min kv. km-ə bərabər idi. Sərhəd məsələləri qismən nizama salındıqdan sonra AXC Cənubi Qafqazdakı tarixi Azərbaycan torpaqlarının 113,9 min kv. km-ni əhatə edirdi.

Ünvan-təqvimin (1920) məlumatına görə, AXC ərazisini (mübahisəsiz və mübahisə-lilərlə birlikdə) 9990887 kv.verst (113895,97 kv.km) elan etmişdi. Bu, Qafqaz təqviminə (1917) görə, Cənubi Qafqaz ərazisinin 47,84%-nə bərabər idi. Mübahisəsiz ərazi üzrə bu rəqəm 40,87% idi.

1918-ci ilin noyabrında Əlimərdan bəy Topçubaşovun Antanta dövlətlərinin İstanbuldakı nümayəndələrinə göndərdiyi xüsusi memorandum əsasən, AXC aşağıdakı əraziləri əhatə edirdi: Bakı quberniyası (Bakı dairəsi ilə birlikdə Bakı qəzası, Cavad qəzası, Göyçay qəzası, Şamaxı qəzası, Quba qəzası, Lənkəran qəzası); Yelizavetpol (Gəncə) quberniyası (Yelizavetpol, yəni Gəncə qəzası, Cavanşir qəzası, Nuxa qəzası, Ərəş qəzası, Şuşa qəzası, Qaryagin, yəni Cəbrayıl qəzası, Zəngəzur qəzası, Qazax qəzası (bu ərazinin üçdə birini təşkil edən dağlıq hissəsi Azərbaycan və Ermənistan arasında mübahisəli ərazi kimi qalırdı)); İrəvan quberniyası (Naxçıvan qəzası, Şərur-Dərələyəz qəzası, Sürməli qəzası, habelə Yeni Bəyazid qəzası, Eçmiədzin və Aleksandropol qəzalarının bir hissəsi); Tiflis quberniyası (Borçalı qəzası, Tiflis və Sığnax qəzalarının bir hissəsi); Zaqatala mahalı; Dağıstan vilayəti (Kürə və Samur nahiyələrini əhatə edən ərazinin bir hissəsi, habelə Dərbənd şəhəri və onun ətrafı da daxil olmaqla, Qaytaq-Tabasaran qəzasının bir hissəsi). Bundan başqa, Azərbaycan Cümhuriyyəti Tiflis quberniyasındakı Axalsıx qəzasının Batum, xüsusən Qars əyalətlərini də öz ərazisinə daxil etməyə xüsusi əhəmiyyət verirdi.

## 12. Dağlı Respublikası ilə münasibət

1918-ci ilin payızında Dağlı hökumətinin bəzi üzvləri Quba qəzası ilə bağlı Azərbaycana, Cənubi Osetiya və Abxaziya ilə əlaqədar isə Gürcüstana qarşı ərazi iddiası

qaldırdılar. Bunu həmin bölgədə ləzgilərin də yaşaması ilə əlaqələndirirdilər. Dağlı hərbçiləri bu əsassız iddianı həyata keçirmək məqsədilə, hətta, Quba qəzası ərazisinə müdaxilə etmiş, Yalama dəmir yolu stansiyasını ələ keçirmişdilər. Azərbaycan sərhəd keşikçiləri 1918-ci il dekabrın 24-də onları bu ərazidən çıxarmış, şimal sərhədini bərpa etmişdilər. Dağlı hökumətinin Bakıdakı nümayəndəsi Əlixan Qantəmir bu münaqişə ilə bağlı Azərbaycan hökumətinə etirazını bildirmiş, "mübahisəli" sərhəd məsələlərinin həlli üçün xüsusi orqan yaradılması, ona qədər isə Quba qəzasının idarə olunmasında hər iki tərəfi təmsil edən müştərək qrupun fəaliyyət göstərməsi təklifini irəli sürmüşdü. Bu çağırışlara ən böyük, qəti etirazı Quba qəzası əhalisi və Quba Müsəlman Şurası bildirmişdi. Quba nümayəndəsi Murtuza Axundov Azərbaycan Parlamentində bu məsələ ilə bağlı 1919-cu il fevralın 5-dəki çıxışında bildirmişdi: "Qubada kasıb, dövlətli - hər kəsin evində ipək parçadan tikilmiş üçrəngli Azərbaycan bayrağı var". Quba Müsəlman Şurası Dağlı hökumətinə göndərdiyi məktubda onun bəzi üzvlərinin ərazi iddiasının ümummüsəlman mənafeyini müəmmalı məqsədlərə qurban vermək kimi qiymətləndirdi. "Quba məsələsi" AXC Hökumətinin qətiyyətli mövqeyi, Quba qəzası əhalisinin öz iradəsini birmənalı şəkildə bildirməsi və Dağlı hökumətində sağlam düşüncənin üstün gəlməsi nəticəsində qısa müddətdə həll edildi.

### 13. Azərbaycan Xalq Cümhuriyyətinin Gürcüstanla mübahisəli əraziləri, itkiləri

Azərbaycanla Gürcüstan arasında da sərhəd mübahisələri vardı. Gürcüstan hökuməti keçmiş Tiflis quberniyasına daxil edilmiş Azərbaycan torpaqlarını - Borçalı, Qara-

yazı və Sığnax mahallarını Azərbaycana qaytarmaqdan boyun qaçırdı. Statistik məlumatlara görə, Gürcüstanın iddia irəli sürdüyü ərazilərin bütün əhalisinin (147362 nəfər) 135898 nəfərini (92,3%) türk-müsəlmanlar, 6526 nəfərini isə (4,4%) gürcülər təşkil edirdi. Gürcü silahlı qüvvələri alman hərbi dəstələri ilə birləşərək, 1918-ci il iyunun əvvəllərində Borçalıya daxil oldular. İyunun 14-də Azərbaycanın Xarici İşlər Nazirliyi azərbaycanlıların məskunlaşdığı Borçalıya və digər ərazilərə birləşmiş gürcü-alman hərbi qüvvələrinin yeridilməsinə qarşı nota verdi, sərhəd məsələsinin siyasi yolla həll olunmasını təklif etdi. Gürcüstan hökuməti buna razılıq vermədi. Zaqatala dairəsi əhalisinin arzusu nəzərə alınaraq, orada Cümhuriyyət idarəçiliyi yaradıldı. Digər torpaqlar itirüldi.

## 14. İrəvan torpaqlarının Ermənistana verilməsi

1918-ci il mayın 26-da Gürcüstan Zaqafqaziya Seyminin tərkibindən çıxmaq haqqında qərar qəbul etdikdən sonra, həmin ayın 28-də Azərbaycandan olan deputatlar Azərbaycanın müstəqilliyi haqqında bəyannamə qəbul etdilər. Maraqlıdır ki, ermənilər AXC-nin hansı ərazilərdə elan ediləcəyini gözləyirdilər. Onlar Azərbaycan Milli Şurasına müraciət edərək Aleksandropolun türk ordusu tərəfindən tutulduğunu qeyd edir və İrəvanın siyasi mərkəz kimi ermənilərə güzəştə gedilməsi məsələsini müzakirə etməyi təklif edirlər. Müzakirələrdən sonra İrəvanın Ermənistana güzəştə gedilməsinin qaçılmaz zərurət, Azərbaycan xalqı üçün isə qaçılmaz acı bir bəla olduğu Milli Şura üzvləri tərəfindən etiraf edilir. Bu baxımdan Fətəli-xan Xoyskinin Ermənistan hökuməti başçısının məktubuna verdiyi cavabla bağlı onun AXC-nin xarici işlər naziri

M.H.Hacinskiyə 1918-ci ilin mayın 29-da göndərdiyi məktubda yazırdı: "Biz ermənilərlə bütün mübahisələri qurtarmışıq və onlar bizim ultimatumumuzu qəbul edəcəklər və müharibə qurtaracaqdır. Biz İrəvanı ermənilərə güzəştə getdik". 1918-ci il mayın 29-da Azərbaycan Milli Şurasının dördüncü iclasında iki dəfə İrəvan şəhərinin ermənilərə güzəşt edilməsi ilə bağlı məsələ müzakirə olunur. Birinci dəfə məsələ müzakirə edilərkən iclasda Milli Şuranın 28 nəfər üzvü iştirak edir və səsvermə zamanı 16 nəfər lehinə, 1 nəfər əleyhinə, 3 nəfər bitərəf qalmaqla 8 nəfərin hansı mövqe tutduğu göstərilmir. Həmin gün keçirilən ikinci iclasda İrəvandan olan Milli Şuranın üzvləri M.H.Seyidov, M.B.Rzayev və N.Nərimanbəyov yazılı şəkildə Milli Şuranın İrəvanın ermənilərə güzəşt gedilməsinə qarşı etiraz ərizəsilə müraciət etsələr də, iştirak edən 26 nəfər Milli Şura üzvü məsələyə münasibət bildirmədən qəbul edilmiş qərarın qüvvədə saxlanılmasına razılıq verirlər. İrəvandan olan deputatların yazılı şəkildə təqdim etdikləri etiraz məktubu işə tikilsə də, indi bu sənəd arxivdə yoxdur. Qeyd etmək lazımdır ki, İrəvan şəhəri və quberniya əraziləri güzəştə gedildikdən sonra 1918-ci il mayın 28-də özünün müstəqilliyini elan edən AXC-nin ərazisi 99.908.86 kvadrat kilometr təşkil edirdi. 13.983.10 kvadratkilometr ərazi isə mübahisəli ərazi kimi qəbul olunaraq gələcək danışıqlar prosesində həll olunması nəzərdə tutulmuşdu. Ermənistana güzəşt edilən İrəvan quberniyasının ərazisi 7.913.17 kvadratkilometr təşkil edirdi. Edilən güzəştdən sonra ermənilər Azərbaycanın Naxçıvan, Zəngəzur və Dağlıq Qarabağ ərazilərinin Ermənistana birləşdirilməsi iddiası ilə çıxış etdilər. Zəngəzurun böyük br hissəsinə faktik olaraq daşnaklar nəzarət edirdi, bu ərazilərdə 10 mindən çox müsəlman qətlə yetirilib yurd-yuvalarından

qovulmuşdu.

Azərbaycan və Erməni Milli Şuraları arasında sərhəd məsələləri üzrə danışıqların nəticəsi Azərbaycan Milli Şurasının 1918-ci il 29 may tarixli iclasında müzakirə edildi. Səs çoxluğu ilə İrəvan Ermənistan Respublikasına güzəşt edildi və onun paytaxtı kimi tanındı. Həmin qərar qəbul olunarkən hər iki respublikanın gələcəkdə konfederasiya şəklində birləşəcəyi, Ermənistanın Qarabağın dağlıq hissəsinə olan əsassız iddiadan əl çəkəcəyi və başqa məsələlər nəzərə alınmışdı. Lakin tarix bu addımın yanlış olduğunu göstərdi. Ermənilər həmin güzəştlərdən istifadə edərək, yeni-yeni ərazi iddiaları irəli sürdülər. İrəvan quberniyasında, Qarayazıda olan Azərbaycan hərbi hissələrinin 24 saat müddətində oradan çıxarılması haqqında ultimatum verdilər, azərbaycanlılara qarşı yeni soyqırımları həyata keçirməyə başladılar və bununla, həmin əraziləri zor gücünə ələ keçirməyə cəhd göstərdilər.

## 15. Bolşevik və daşnaklar Zəngəzuru Azərbaycandan necə qopardı

1918-1920-ci illərdə İrəvan quberniyasından başqa əraziləri ələ keçirə bilməyən ermənilər 1920-ci aprelin 28-də Azərbaycan Sovet Rusiyası tərəfindən işğal edildikdən sonra bolşeviklərin himayəsi ilə yeni ərazilər əldə etməyə nail oldular. Sovet Rusiyası Gürcüstan və Ermənistan missiyaları ilə ərazi məsələlərini Azərbaycan SSR hökumətindən gizli aparırdı. Ən dəhşətlisi isə o idi ki, Azərbaycan nümayəndə heyəti belə danışıqlara cəlb edilərkən onları ya ermənilər, ya da gürcülər təmsil edirdilər. Azərbaycanlılar isə nə ermənilərin, nə də ki, gürcülərin nümayəndə heyətlərinin tərkibinə daxil edilirdilər. 1920-ci il avqustun 10-da İrəvan şəhərində Sovet Rusiyası ilə Er-

mənistan arasında müqavilə imzalanarkən bir sıra diplomatik sənədlərin də sübut etdiyi kimi, burada Azərbaycanın milli-dövlət mənafelərinə ciddi qəsdlər edilərək Zəngəzur və Naxçıvanın Ermənistana verilməsi planlaşdırılmışdı. Bu zaman Sovet Rusiya hökuməti S.Orconikidzenin belə bir iddiasından çıxış edirdi ki, "…məlum siyasi şəraitdə Ermənistan bizə lazım ola bilər. İrəvandakı danışıqlar tərəfləri gələcək sülh müqaviləsini tanımağa məcbur edən protokolun imzalanması ilə qurtardı ki, həmin sazişlə də Ermənistan Qarabağdan imtina etməli, ancaq Zəngəzur və Naxçıvanı almalı idi. Əslində, Azərbaycanın tarixi torpaqlarının Ermənistana verilməsi planı Leninin razılığı ilə Stalin tərəfindən hazırlanmışdı. Çünki sonrakı illərdə bu torpaqların hissə-hissə zəbt olunması və bu ərazilərdə yaşayan əhalinin deportasiyası da Stalin tərəfindən həyata keçirilmişdi.1920-ci il noyabrın 4-də Stalin, Orconikidze, Qabrielyan, Leqran, Ə.Qarayev və başqalarının iştirakı ilə keçirilən iclasda Rusiya ilə Ermənistan arasındakı müqavilənin şərtlərinə toxunularkən Stalinin fikri əsasında belə bir qərar qəbul edilmişdi: "Naxçıvan və Zəngəzurun Ermənistana verilməsi haqqında təklif olunan maddə nə siyasi, nə də strateji cəhətdən sərfəli deyildir və yalnız son halda baş tuta bilər".

İclasda həmçinin Siyasi Büronun Naxçıvan və Zəngəzura aid fikrinin əsaslandırılmasını hazırlamaq N.Nərimanova həvalə olunmuş, habelə Stalinin bu məsələ ilə RK(b)P MK ilə danışıqlar aparmasınadək Ermənistana təqdim edilən müqavilə barədə qəti qərar çıxarmamaq razılaşdırılmışdı. Bu qərarın özü də bir daha göstərir ki, Azərbaycan torpaqları hərraca qoyulmuşdu. V.İ.Lenindən sonra SSRİ dövlətinə rəhbərlik edən İ.V.Stalin bu hərracın təşkilatçısı kimi "Mən Azərbaycanın müstəqilliyinin tərəf-

darı deyiləm" – deyə Azərbaycana öz düşmən mövqeyini bildirmişdi. Həmin qərarın "B" bəndində yazılırdı: "Sovet Azərbaycanı ilə Sovet Ermənistanı arasında heç bir sərhəd mövcud deyildir". Qərarın "Q" bəndində Zəngəzur və Naxçıvanın Ermənistana verilməsi, "D" bəndində isə Qarabağın dağlıq hissəsinə öz müqəddəratını təyin etmək hüququ verildiyi göstərilirdi. N.Nərimanov ZSFSR İttifaq Sovetinin sədrlərindən biri olarkən Leninə yazdığı məktubda "Azərbaycanın tamamilə mübahisəsiz ərazilərini Ermənistana güzəştə gedir və düzəlməsi mümkün olmayan həlledici səhvdir" – deyə etiraf etmişdi. Ermənilər Zəngəzurun ələ keçirilməsini asanlaşdırmaq və sürətləndirmək məqsədilə qəzanın onlar tərəfindən tutulan sahələrində möhkəmlənərək bölgənin digər hissələrində – Aşağı Zəngəzurda Kürdüstan yaradılması "ideya"sını irəli sürmüşdülər. Əslində əsas məqsəd Rusiyanın Azərbaycanda yenidən möhkəmlənməsini təmin etməkdən, bu niyyətlə də Azərbaycanın parçalanması və daima təzyiq altında saxlanılmasından, Zəngəzurun tədricən, hissə-hissə Ermənistana verilməsinə nail olmaqdan ibarət idi. 1921-ci il yanvarın 12-də Azərbaycan KP MK Siyasi və Təşkilat Bürolarının iclasında Zəngəzurun müsəlman hissəsinin inzibati cəhətdən təşkili haqqında qərar çıxardı. Nəhayət, uzun müzakirələrdən sonra Zəngəzur qəzasının köhnə inzibati sərhədlərdə saxlanması qərara alındı. Zəngəzurla bağlı qeyri-müəyyənlik 1927-ci ilə qədər davam etdi.

### 16. Bolşevik-rus işğalı Azərbaycanın nə qədər ərazisini qoparıb qonşulara verdi

Mübahisəli sərhəd məsələləri qismən nizama salındıqdan sonra AXC Cənubi Qafqazdakı tarixi Azərbaycan torpaqlarının 113,9 min kv. km-ni əhatə edirdi.

Sovet Rusiyasının yeritdiyi müstəmləkəçi, antimüsəman, antitürk, xristian həmrəyliyi siyasəti nəticəsində Azərbaycan əraziləri sonrakı illərdə daha da kiçildi. Yeni yaradılan Azərbaycan Sovet Sosialist Respublikasının sərhədləri 86,6 min kv. km müəyyən edildi. Beləliklə, AXC ərazisinin 27,2 min kv. km-i Azərbaycan xalqının əlindən alındı.

### 17. Azərbaycan Milli Şurasının Tiflisdəki ilk fəaliyyəti dövrü

1918-ci il mayın 27-dən iyunun 17-dək davam etdi, 20 gündə 7 iclası keçirildi; Azərbaycanın istiqlalı elan olundu, İstiqlal bəyannaməsi qəbul edildi, Fətəli xan Xoyski başda olmaqla ilk Azərbaycan Hökuməti formalaşdırıldı, 1813 ildən sonra ilk dəfə olaraq Azərbaycanın müstəqil idarə olunmasına başlandı, Azərbaycanın bir hissəsində - Şimali Azərbaycanda Respublika quruluşu yaradıldı.

### 18. AXC Milli Şura və Hökumətinin Gəncəyə köçməsi, Nuru paşanın gəlişi

1918-ci il iyunun 16-da Milli Şura və Hökumət özünün fəaliyyət mərkəzini Tiflisdən Gəncəyə köçürdü. Gəncədə AXC-nin tarixində ilk Hökumət böhranı baş verdi. 4 iyunda Batumda imzalanmış AXC və Osmanlı İmperiyası arasında Sülh və Dostluq müqaviləsinin şərtlərinə uyğun olaraq, soyqırıma məruz qalan Azərbaycan xalqının köməyinə gələn və artıq Gəncədə olan Qafqaz İslam Ordusunun baş komandanı Nuru paşa ilə Milli Şura üzvləri arasında fikir ayrılığı yarandı. Hökumətin inqilabi tədbirlər həyata keçirəcəyindən ehtiyat edən Azərbaycan burjuaziyası və mülkədarları nümayəndələrinin işə qarışması və bunun nə-

ticəsində Nuru paşa ilə Azərbaycan Milli Şurası və Hökuməti arasında ixtilaf yaranması vəziyyəti daha da ağırlaşdırdı. Çətinliklə qazanılmış istiqlalın itirilməsi təhlükəsi yarandı. İyunun 17-də M.Ə.Rəsulzadənin başçılığı ilə Milli Şuranın keçirdiyi qızğın müzakirələrdən sonra böhran, çox çətinliklə, aradan qaldırıldı. Ölkədə yaranmış real vəziyyəti və konkret tarixi şəraiti nəzərə alan Azərbaycan Milli Şurası iyunun 17-də Gəncədə iki mühüm qərar qəbul etməyə məcbur oldu: öz fəaliyyətini müvəqqəti olaraq dayandırdı; bütün hakimiyyəti (həm qanunvericilik, həm də icra hakimiyyətini) Müəssislər Məclisi çağırılanadək Fətəli xan Xoyskinin sədrliyi ilə yaradılmış yeni-ikinci Müvəqqəti hökumətə həvalə etdi. Hökumətin tərkibi belə idi: Nazirlər Şurasının sədri - Fətəli xan Xoyski; nazirlər - Məmməd Həsən Hacınski, Nəsib bəy Yusifbəyli, Əlimərdan bəy Topçubaşov, Behbud xan Cavanşir, Xəlil bəy Xasməmmədov, Xosrov Paşa bəy Sultanov, Xudadat bəy Rəfibəyov, Xudadat bəy Məlik-Aslanov, Ağa Aşurov, Əbdüləli bəy Əmircanov, Musa bəy Rəfiyev.

## 19. Milli Şuranın fəaliyyət dövrləri

AXC parlamentçilik tarixi iki dövrə ayrılır: birinci dövr - 1918-ci il mayın 27-dən iyunun 17-dək davam etmişdir. Bu altı ay ərzində Azərbaycan Milli Şurası adı ilə fəaliyyət göstərən və 44 nəfər müsəlman-türk deputatdan ibarət olan ilk Azərbaycan Parlamenti çox mühüm tarixi qərarlar qəbul etmişdir. İlk Parlament 1918-ci il mayın 28-də Azərbaycanın müstəqilliyini elan etmiş, ölkənin idarə olunmasını öz üzərinə götürmüş və tarixi İstiqlal bəyannaməsini qəbul etmişdir. Azərbaycan Milli Şurasının o zaman çox mürəkkəb və həlledici bir tarixi məqamda Tiflisdə - Qafqaz canişininin iqamətgahında elan etdiyi

İstiqlal bəyannaməsi Azərbaycanın demokratiya və parlamentarizm ənənələri tarixinin ən parlaq hüquqi sənədi olaraq bu gün də öz tarixi və praktiki əhəmiyyətini saxlamaqdadır. Milli Şura dövründə Azərbaycan Parlamentinin təsis toplantısı ilə birlikdə cəmi 10 iclası keçirilmişdir. İlk iclas 1918-ci il mayın 27-də Tiflisdə, son iclas 1918-ci il noyabrın 19-da Bakıda keçirilmişdir. Mayın 27-də Azərbaycan Milli Şurası təsis olunmuş, iyunun 17-də isə fəaliyyətini müvəqqəti dayandırıb, 6 aydan gec olmayaraq Müəssislər Məclisi çağırmaq şərti ilə, bütün qanunverici və icraedici hakimiyyəti Müvəqqəti Hökumətə vermişdir. Xalq Cümhuriyyəti Hökuməti 1918-ci il sentyabrın 17-də Bakıya köçdükdən sonra Azərbaycan Milli Şurası noyabrın 16-da öz fəaliyyətini yenidən bərpa etmişdir.

AXC Parlamentinin fəaliyyəti dövründə 145 iclası olmuş, müzakirəyə 270-dən çox qanun layihəsi çıxarılmış, onlardan 230-u qəbul olunmuşdu.

## 20. Müəssislər Məclisi

1918-ci il noyabrın 19-da Azərbaycan Milli Şurası dekabrın 3-də Müəssislər Məclisinin - geniş tərkibli Azərbaycan Parlamentinin çağırılması haqqında qanun qəbul etdi və öz fəaliyyətini dayandırdı. Beləliklə, Azərbaycan Parlamenti öz fəaliyyətinin bu dövründə, daha doğrusu, Milli Şura dövründə Tiflisdə, Gəncədə və Bakıda fəaliyyət göstərmişdir. AXC-nin parlamentçilik tarixində ikinci dövr və ya Bakı dövrü 1918-ci il dekabrın 7-dən 1920-ci il aprelin 27-dək - cəmi 17 ay davam etmişdir. İlk iclas 1918-ci il dekabrın 7-də, son iclas - 1920-ci il aprelin 27-də keçirilmişdir. Bu dövrdə Parlamentin cəmi 145 iclası olmuşdur. Bütün bu iclaslarda Azərbaycan Xalq Cümhuriyyətinin Parlamenti İstiqlal bəyannaməsinin müəyyən et-

diyi prinsiplərə sadiq qalaraq və konkret tarixi şəraiti nəzərə alaraq ölkənin ərazi bütövlüyünü təmin etmək və müstəqilliyini qoruyub saxlamaq, insan haqları və azadlıqlarının dolğun təmin olunduğu ən müasir hüquqi-demokratik dövlət yaratmaq məqsədi daşıyan çox mühüm qanunlar və qərarlar qəbul etmişdi.

## 21. Milli Şuranın 1918-ci il 17 iyun tarixli iclasında nələr oldu

Milli Şura özünün buraxılması, bütün qanunvericilik və icra hakimiyyətinin Azərbaycan müvəqqəti hökumətinə verilməsi barədə iki qətnamə qəbul etdi. Milli Şuranın buraxılması haqqındakı birinci sənəddə göstərilirdi ki, həm daxili, həm də xarici siyasət sahəsində Azərbaycanda yaranmış ağır vəziyyəti nəzərə alaraq, Azərbaycan Milli Şurası bütün hakimiyyəti Fətəli xan Xoyskinin sədrliyi ilə yaradılmış Hökumətə həvalə edir və ona tapşırır ki, öz hakimiyyətini qısa müddətdə çağırılacaq Müəssislər Məclisindən başqa heç kimə güzəştə getməsin. Xoyskinin başçılıq etdiyi Hökumətin hüquq və vəzifələrindən bəhs edən ikinci sənəddə qeyd olunurdu ki, Azərbaycan Hökuməti Azərbaycanın istiqlaliyyətini və siyasi azadlıqları ləğv edə bilməz, aqrar və digər bu kimi mühüm inqilabi əhəmiyyətli qanunları dəyişməyə Hökumətə səlahiyyət verilmir; qalan məsələlərdə Hökumətə bütün hüquqlardan istifadə etmək səlahiyyəti verilirdi. Xoyski Hökuməti altı aydan gec olmayaraq Müəssislər Məclisini çağırmalı idi. Beləliklə, müstəqil AXC-ninilik addımlarını atmağa başladığı son dərəcə ağır daxili və beynəlxalq şəraitdə qanunverici və icra hakimiyyətinin əsas ağırlığı Xoyskinin üzərinə düşdü. Xoyskinin ikinci Hökuməti Gəncədə çox çətin və mürəkkəb bir dövrdə fəaliyyətə başladı.

## 22. AXC-nin dövlət bayrağının rənglərinin mənası

Əli bəy Hüseynzadənin "Türk qanlı, müsəlman etiqadlı, firəng fikirli Avropa qiyafəli fədai" ideyasını istiqlal mübarizləri "türkləşmək, islamlaşmaq, müasirləşmək" şəklində siyasi şüara çevrirdilər. Azərbaycan Xalq Cümhuriyyətinin dövlət atributlarında reallaşdırdılar.

Üç rəng - "türk milli mədəniyyətini, müasir Avropa demokratiyasını və islam sivilizasiyasını təmsil edirdi".

## 23. AXC-nin pul nişanları, poçt markaları, istiqrazları, orden və medalları

1920-ci il yanvarın 30-da Cümhuriyyət Hökuməti dövlət rəmzlərinin yaradılması üçün qərar qəbul etmişdir. Qərar iki bənddən ibarət idi: birinci bənddə hərbi nazirə ordenlərin eskizlərinin, ikinci bənddə isə maarif nazirinə milli himnin, dövlət gerbinin və möhürünün layihələrinin hazırlanması ilə bağlı olaraq müsabiqələr elan etmək tapşırılmışdı.

### *1918-1920-ci illərdə buraxılan pullar və qiymətli kağızlar*

1917-ci ildə Rusiyada oktyabr çevrilişindən sonra Azərbaycanın həyatında da yeni bir dönəm - xalqın özünüdərk və milli dirçəliş dönəminin təməli qoyuldu. Çağdaş Azərbaycanın müstəqil pul təsərrüfatı və pul dövriyyəsinin tarixi yüzillik fasilədən sonra elə bu çağlardan, 1918-ci ildə Bakı Bələdiyyəsinin buraxdığı kağız pullarla başlanır.

1918-ci ilin yanvar-aprel aylarında dövriyyəyə buraxılmış 5, 15 və 50 qəpiklik xırda kağız pul, 1, 3, 5, 10 və 25 manatlıq iri bələdiyyə pul vahidləri rənginə, kağızın ölçülərinin müxtəlifliyinə görə də bir-birindən fərqlənir.

1918-ci il aprel ayının 25-dən Bakıda hakimiyyət bolşevik fraksiyasının əlinə keçdi və tezliklə yeni idarə orqanı - Bakı Şəhər Təsərrüfatı Soveti yaradıldı. Bu qurumun qərarı ilə təcili olaraq yeni kağız pullar hazırlanıb dövriyyəyə buraxıldı. 10, 25 və 50 manat məbləğində olan bu pulların emissiyası Xalq komissarı N. Nərimanovun imzası ilə icra olunurdu. Bu pul vahidləri öz qüvvəsini 1918-ci il iyul ayının 31-də istefa verən Bakı kommunasından sonra itirsə də, 1918-1919-cu illərdə əhali arasında dövriyyə vasitəsi kimi işlədilirdi.

1919-cu il mart ayının 7-də Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin qərarı ilə Azərbaycan Dövlət Bankının (mərkəzi bankın) təşkil edilməsi təklifi bəyənildi və onun nizamnaməsinin hazırlanması Maliyyə nazirinə tapşırıldı. Elə həmin il sentyabr ayının 16-da Azərbaycan parlamenti Maliyyə Nazirliyinin kredit şöbəsi tərəfindən hazırlanmış Azərbaycan Dövlət Bankının Nizamnaməsini qəbul etdi. 1919-cu il 30 sentyabr tarixdə isə Azərbaycan Dövlət Bankının təntənəli açılışı olmuşdu.

Azərbaycan Xalıq Cümhuriyyəti dövründə Azərbaycan hökuməti adından 1919-cu ilin əvvəllərində tədavülə buraxılan birinci kağız pul emissiyasına mənsub 100 manatlıq pul vahidinin bir neçə nüsxəsi, həmin ilin ortalarında buraxılmış 25 manat (I-VII seriyalı), 50 manat (I-XI seriyalı), 100 manat (I-VIII seriyalı), 250 manat (I-VII seriyalı) və 1920-ci ilin əvvəllərində dövriyyəyə daxil olmuş ən iri nominal - 500 manatlıq (I-IV seriyalı) pul vahidləri Azərbaycan Tarixi Muzeyində saxlanılır. Sonuncu "əskinasın" üzərində Azərbaycan Respublikasının və nominalın adı Azərbaycan, rus və fransız dillərində verilmişdir.

Pul nişanlarının emissiyası səlahiyyəti Dövlət Bankına mənsub idi. Bütövlükdə Xalıq Cümhuriyyəti döv-

ründə Azərbaycanda 2 milyard 345 milyon rubl məbləğində pul nişanları emissiya edilmişdir.

1919-1920-ci illərdə buraxılmış pul vahidlərinin adları Azərbaycan dilində manatla, rus dilində isə rubl ilə verilmişdir. Burada əsas məqsəd uzun illər Rusiya kağız pullarına öyrəşən əhalinin hələ də dövriyyədə qalan Rusiya rubluna nisbətdə tədricən yeni milli Respublika puluna inancını qazanmaq idi. Azərbaycan Cümhuriyyətinin bu sahədəki iqtisadi siyasəti milli valyuta-manatın beynəlxalq miqyasda tanınması ilə üzvi surətdə bağlı olmuşdur.

Məhz buna görə də Fransa hökumətinin dəstəyini hiss edərək (qismən də fransız dilinin o çağlarda beynəlxalq dil rolunu nəzərə alaraq), Cümhuriyyət 500 manatlıq pulların üzərində Respublikanın və nominalın adlarını fransız dilində verməyi lazım bilmişdi.

Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin icazəsi ilə Bakı Bələdiyyə İdarəsi tərəfindən 1919-cu il avqust ayının 20-də hər biri 500 manat olmaqla yüz min ədəd və hərəsi əlli bilet olmaqla iki min seriyaya bölünmüş əlli milyon manatlıq uduşlu istiqraz buraxılmışdır. Biletlərin üzərində istiqrazın buraxılması haqda Qanundan iqtibas – uduşun miqdarı, qaydaları və müddəti (1920-1972) göstərilmişdir.

1920-ci il 28 aprel tarixdə Azərbaycan Xalq Cümhuriyyətinin süqut etməsi nəticəsində ölkənin mövcud pul-kredit sistemi də məhv edildi.

***Azərbaycan Xalq Cümhuriyyəti dövründə buraxılan kağız pul vahidləri***






АЗЕРБАЙДЖАНСКАЯ РЕСПУБЛИКА
50
ПЯТЬДЕСЯТЬ РУБЛЕЙ


ПЯТЬДЕСЯТЬ РУБЛЕЙ
50


100
СТО
РУБЛЕЙ


СТО РУБЛЕЙ
100


250
РУБЛЕЙ


ДВѢСТИ
ПЯТЬДЕСЯТЬ
РУБЛЕЙ
250
РУБЛЕЙ


500
РУБЛЕЙ


500
РУБЛЕЙ

## *AXC-nin poçt markaları və istiqrazlar*



## *Azərbaycan Xalq Cümhuriyyəti dövrünün orden və medallarının eskizləri*

1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti (AXC) qurulduqdan sonra milli respublikanın gerbi, bayrağı, orden və medallarının təsis etmək zərurəti meydana çıxmışdı. 1919-1920-ci illərdə mətbuatda Dövlət himni, Dövlət gerbi, Dövlət möhürü və ordenlərin layihələrinin yaradılması ilə bağlı müsabiqələr keçirilməsi haqqında elanlar dərc edilmişdir.

30 yanvar 1920-ci ildə hərbi ordenlərin layihələrinin hazırlanması haqqında qərar qəbul edilmişdir. Müsabiqəyə "Müstəqillik" ordeninin 100-ə yaxın eskizi təqdim edilmişdir ki, onlar hazırda Eskizlərdə əsasən üçrəngli bayraq, səkkizguşəli ulduz, aypara, qılınc, Azərbaycan əsgəri və məscid təsvirləri yer almışdır. Eskizlərin ən yaxşı layihələrinin bir qismi isə Azərbaycan Xalq Cümhuriyyətinin (AXC) baş naziri olmuş Fətəli xan Xoyskinin Moskvadakı Dövlət Tarix Muzeyindəki şəxsi arxivində saxlanılır.

Eskizlərin müəllifləri nəinki Bakıda, hətta Tiflsdə də yaşayıb-yaradan rəssamlar olublar. Mütəxəssis rəssam və sənətşünasların nəzər-diqqətini Əzim Əzimzadənin, Ələsgər Əliyevin, eyni zamanda «Molla Nəsrəddin»zi rəssamlardan Tiflisdə yaşayan Beniamin Telenqater (Beno), Oskar Şmerlinq kimi sənətkarların dəst-xətti cəlb edir. Bu təsvirlər bədii cəhətdən zənginliyi ilə büyük maraq doğurur.

Təəssüflər olsun ki 1920-ci il aprelin 28-də Azərbaycan Xalq Cümhuriyyətinin (AXC) süqutu başlanan işləri axıra çatdırmağa imkan vermədi.

1990-cı ildə Azərbaycan KP MK yanında Partiya Tarixi İnstitutunun Partiya arxivi (indiki Azərbaycan Respublikası Siyasi Partiyalar və İctimai Hərəkatlar Düvlət Arxivi) fondlarında 100-ə yaxın ilk Azərbaycan ordeninin müsabiqəyə təqdim olunan eskizləri aşkar edilmişdir. Bu eskizlər 1992-ci ildə Bakıda "İşıq" nəşriyyatında zap olunmuş "Azərbaycan Demokratik Respublikasının (ADR) rəmzləri (1918-1920)" albomunda öz əksini tapmışdır.

***“Müstəqillik ordenləri”nin eskizlərinin nümunələri***





## *“Tərəqqi” devizi altında 4-cü dərəcəli müstəqillik ordeni*



*“Birlikdən müstəqilliyə və dünyaya” devizi altında Azərbaycan Respublikasının Müstəqillik ordenləri*



*“Yuliya” devizi altında Müstəqillik ordenləri*



***“Dinc xidmətlərə gürə” ordenlər***



***“Hərbi xidmətlərə gürə” ordenlər***



## *“Hərbi xidmətlərə görə” və “Dinc xidmətə görə” ordenlər*







*“A” devizi altında hərbi və mülki ordenlər*



## 24. “Azərbaycan” qəzeti - 100

Azərbaycanda milli istiqlal elan edildikdən sonra yeni tarixi vəzifələri həyata keçirmək üçün Azərbaycan Xalq Cümhuriyyəti 1918-ci ilin sentyabrından “Azərbaycan” qəzetini nəşr etməyə başladı. Qəzetin müxtəlif vaxtlardı redaktorları Ceyhun bəy Hacıbəyli, Şəfi bəy Rüstəmbəyli Üzeyir bəy Hacıbəyli və Xəlil İbrahim olmuşlar. Azərbaycan Xalq Cümhuriyyətinin rəsmi orqanı olan

"Azərbaycan" qəzetinin başlıca məramı yenicə qurulmuş milli Hökuməti müdafiə etmək idi. Cümhuriyyətin bütün siyasi-ictimai, iqtisadi və mədəni təsisatlarının tarixi mənzərəsi bu qəzetdə öz əksini tapmışdır. "Azərbaycan"ın ilk 4 sayı Gəncədə çıxmış, sonralar isə Bakıda Azərbaycan və rus dillərində nəşr olunmuşdur. Dörd səhifəlik qəzetin iki səhifəsi Azərbaycan, iki səhifəsi isə rus dilində buraxılmışdır. Qəzetin ilk nömrəsində Bakının azad edilməsi (1918, 15 sentyabr) ilə bağlı xəbərlər, Məhəmməd Hadinin türk əsgərinin şücaətini vəsf edən "Türk nəğməsi" şeri də dərc edilmişdir. "Azərbaycan" qəzetinin sentyabrın 19-da rus dilində çapdan çıxmış sayında Şəfi bəy Rüstəmbəyli "Düşünmək vaxtıdır" məqaləsində "Daşnaksutyun" partiyasının Azər-baycan xalqına qarşı düşmənçilik siyasətini ifşa edir və ermənilərə xəbərdarlıqla yazırdı: "...hələ nə qədər ki, gec deyil, erməni xalqı öz qonşuları ilə səmimi və mehriban yaşamaq yoluna qədəm qoysun. Başqa yol onlar üçün daim fəlakətli olacaqdır". Paris sülh konfransında (1919-1920) iştirak etmək üçün Azərbaycan Cümhuriyyəti nümayəndə heyətinin tərkibinə müşavir qismində "Azərbaycan" qəzetinin redaktoru Ceyhun bəy Hacıbəyli də daxil edilmişdi. Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin qərar, sərəncam, fərman və digər normativ sənədlərinin xüsusi nəşrlərdə verilməsi "Azərbaycan" qəzetinin səhifələrində daha çox nəzəri məqalələrin, Azərbaycana, həmçinin dünya və region ölkələrinə aid xəbərlərin, oxucuları maraqlandıran başqa yazıların dərc edilməsinə imkan yaradırdı. Azərbaycan Milli Şurasının, xüsusilə onun Azərbaycan Parlamentinin çağırılması sahəsindəki fəaliyyəti "Azərbaycan" qəzetinin səhifələrində geniş əks olunmuşdur. Azərbaycan Parlamenti 1918-ci il dekabrın 7-də işə başladıqdan sonra isə qəzet onun fəaliyyətini daha

geniş işıqlandırmış, Parlamentin mühüm iclaslarından stenoqrafik hesabatları "Azərbaycan Məclisi-Məbusanında" rubrikası altında dərc etmişdir. Bundan başqa, qəzetdə "Rəsmi xəbərlər", "Teleqraf xəbərləri", "Rusiyada", "Ermənistanda", "Gürcüstanda", "Türkiyədə", "İrəvan müsəlmanlarının halı", "Teatr və musiqi" və s. kimi daimi rubrikalar da var idi. Məhəmməd Əmin Rəsulzadə, Üzeyir bəy Hacıbəyli, Xəlil İbrahim, Fərhad Ağazadə, Hacı İbrahim Qasımov, Məhəmməd ağa Şahtaxtlı, Adil xan Ziyadxanov, Əlabbas Müznib, Şəfiqə Əfəndizadə, İstanbulda təhsil alan Əmin Abid və b. "Azərbaycan" qəzetinin səhifələrində dərc olunan məqalələri, əsərləri Azərbaycan tarixinin, mədəniyyətinin, maarifinin inkişafına, milli şüurun oyanmasına, milli özünüdərkin təşəkkülünə yardım etmiş, azərbaycançılıq, istiqlalçılıq, türkçülük, islamçılıq, müasirlik məfkurəsinin təbliğində mühüm rol oynamışdır. Qəzet səhifələrində Məhəmməd Hadi, Əhməd Cavad, Seyid Hüseyn, Cəfər Cabbarlı, Yusif Vəzir Çəmənzəminli və b. vətənpərvər, yurdsevər şair və ədiblərin milli müstəqillik hissləri aşılayan, "vətən qayğısı və millət duyğusunu hərşeydən üstün tutmağa" çağıran əsərlərinə geniş yer verilirdi.

Azərbaycan Xalq Cümhuriyyəti dövründə milli ideologiyanın təşəkkülündə və inkişafında Üzeyir bəy Hacıbəylinin böyük xidməti olmuşdur. İctimai-siyasi həyatda gedən proseslərin fəal iştirakçısı olan peşəkar jurnalist kimi, o, dövri mətbuatda milli mədəniyyətimizin bu və ya digər sahələrinə dair məqalələrlə çıxış etmiş, milli azadlıq və istiqlalçılıq konsepsiyasını yaradıcılığının başlıca məramı saymışdır. Ü.Hacıbəyli öz yazılarında erməni-daşnak quldurlarının azərbaycanlılara qarşı törətdikləri soyqırımlarının, Qarabağ ermənilərinin Azərbaycan Hökumətinə tabe olmaq

istəməmələrinin siyasi mahiyyətini açır, bütün bunların əsl səbəbkarı olan rus-bolşevik-daşnak qüvvələrini ifşa edirdi.

"Azərbaycan" qəzetinin Azərbaycan Xalq Cümhuriyyətinin dövlət, ictimai-siyasi, iqtisadi və mədəni həyatını geniş əks etdirirdi. Azərbaycanın 1918-1920 illər tarixinin öyrənilməsində bu qəzetin müstəsna əhəmiyyəti vardır.

"Bir yaş" məqaləsində Üzeyir bəy Hacıbəyli yazırdı: "Bu gün, istiqlalını elan etmiş olduğumuz və istiqlalı qazanmaq yolunda çaylarca qanlar axıdıb, minlərcə xanımanlarımızı xərabə qoyduğumuz bir dövlətin, yəni Azərbaycan Türk Dövlətinin bir yaşı tamam olub da ikinci yaşa qədəm qoyduğu gündür... Bir yaşlı dövlətimiz - gələcəkdə - yaxın gələcəkdə türklügün ümidgahı, islamlığın pənahi və aləm mədəniyyətinin möhtərəm bir üzvü olacağını hələ bir yaşında olduğu halda hər kəsə bildirmədədir" "...ÖLMƏK VAR, DÖNMƏK YOXDUR. Bu əziz bayram günü sidq dil ilə yaşasın müstəqil Azərbaycan deyənlər əmin olmalı: onu müstəqil yaşatmağa qadir olarlar" ("Azərbaycan", 1919, 28 may). "Qara təhlükə" məqaləsində Üzeyir bəy həyəcanla bildirirdi: "İstiqlalımızın bir ilinin bayramını yenicə keçirmişdik ki, üfüqümüzdən qəflətən nümayan olan bir qara əl haman istiqlalımızı qırmaq və bizi murdar pəncəsi altında əzmək xəyalilə şimalımızdan uzanmağa başladı".

M.Ə.Rəsulzadə 1919-cu ildə "Azərbaycan" qəzetində yazırdı: "Mətbuatın, ədəbiyyatın millətin qəlbinə milliyyət və istiqlal toxumu saçan bir əməl olduğu məlumdur... Ey millətin lisanül-qeybi olan şairlər, ədiblər! Millətin əməllərini, ülvi niyyət və məqsədlərini oxşayımz, kəndisinə millət sevgisi, vətən məhəbbəti, hürriyyat eşqi təlqin ediniz".

## 25. Azərbaycan Teleqraf Agentliyi (AzərTAc)

Azərbaycan Xalq Cümhuriyyətinin dövlət informasiya orqanı. AXC-nin 1919-cu il 3 mart tarixli qərarı ilə yaradılmışdır. Hə-min qərara əsasən, əvvəllər Maarif Nazirliyi yanında fəaliyyət göstərirdi. Sonra Poçt və Teleqraf Nazirliyinin sərəncamına verilmiş, yalnız 1919-cu ilin avqustundan müstəqil fəaliyyətə başlamışdı. Hökumət 1920-ci il fevralın 2-də poçt və teleqraf nazirinin təqdimatı ilə Azərbaycan Teleqraf Agentliyinin yaradılması haqqında yeni qərar qəbul etmişdi. Qərara əsasən agentliyin Əsasnaməsi və ştatı Parlament tərəfindən təsdiq edilənə qədər nazirlik onun xərclərini radio verilişlərindən əldə olunan gəlirlərin hesabına ödəməli idi. Beləliklə, AzərTAc 1920-ci il martın 1-dən Azərbaycan Xalq Cümhuriyyətinin Nazirlər Şurası yanında müstəqil quruma çevrilmişdi. Xarici dövlətlərlə əlaqə yaratmaq üçün naqilsiz teleqraf aparatları da alınmışdı. Agentliyin xəbərləri qəzetlərdə dərc olunurdu. Həm Azərbaycanın daxilində, həm də ölkə xaricində baş verən hadisələr operativ işıqlandırılırdı. Agentliyin axırıncı xəbərləri 1920-ci il 28 aprel tarixli qəzetlərdə verilmişdi. Aprel işğalından (1920) sonra AzərTAc Azərbaycan Mətbuat Mərkəzinin tərkibində Rusiya Teleqraf Agentliyi Qafqaz Ölkə Müvəkkilliyinin şöbəsi kimi fəaliyyət göstərmiş, Azərbaycan SSR Xalq Komissarları Sovetinin qərarı ilə 1921-ci ildən Azərbaycan Teleqraf Agentliyinə (Azər.TA) çevrilmişdi. 1972-ci ildən "Azərinform" adlanırdı. Sovet İttifaqı Teleqraf Agentliyinin (SİTA) tərkibinə daxil idi. Azərbaycan yenidən dövlət müstəqilliyi qazandıqdan sonra Azərbaycan Respublikası Prezidentinin 1992-ci il 18 dekabr tarixli sərəncamı ilə bu qurumun tarixi adı (AzərTAc) özünə qaytarılmışdır.

## 26.AXC-nin dil siyasəti

Müstəqil dövlətin mühüm atributlarından biri olan dövlət dili məsələsi yenicə yaranmış Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin diqqət mərkəzində idi. Cümhuriyyət Hökuməti 1918-ci il 27 iyun tarixli qərarı ilə o zaman türk dili adlanan Azərbaycan dilini dövlət dili elan etdi. Həmin qərar Gülüstan (1813) və Türkmənçay (1828) müqavilələri ilə Azərbaycanın ikiyə bölünməsindən sonra ana dilinin dövlət dili kimi işlədilməsinə aid ilk sənəddir. Qeyd edilməlidir ki, dövlət dili haqqında qərar Hökumətin Gəncəyə köçdükdən sonra qəbul etdiyi ilk qərarlardan biridir. Bu fakt Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin dövlət dili məsələsinə necə mühüm diqqət yetirdiyini aydın göstərir. Azərbaycan dilinin dövlət dili elan edilməsi haqqında qərara əsasən, ölkədə məhkəmə, inzibati idarəçilik və digər vəzifələrin başında duranlar dövlət dilini lazımi səviyyədə öyrənənədək, Hökumət müəssisələrində rus dilinin də işlənməsinə yol verilirdi (bax Azərbaycan dilinin dövlət dili elan olunması haqqında qərar). Lakin bu real şəraitdən doğan müvəqqəti tədbir olmuş və yalnız idarəçilikdə milli kadrların yetişməsinə qədər olan müddət üçün nəzərdə tutulmuşdu. Qərardan sonra daxili işlər naziri Behbud xan Cavanşir "Azərbaycan" qəzetinin müxbiri ilə müsahibəsində bildirmişdi ki, "Azərbaycan müəssisələrində rus dilinin işlədilməs... hazırkı dövrün zərurətindən irəli gəlir. Əlbəttə, bu çox davam etməyəcəkdir. Yüksək vəzifədə işləyən və türk dilini bilməyən məmurlar uzun müddət işləyə bilməyəcəklər. İki ildən sonra Azərbaycanın bütün müəssisələri milliləşdiriləcəkdir. Türk dilini bilməyən məmurlar isə vəzifələrini itirməməkdən ötrü bizim dili öyrənməli olacaqlar". Hökumət qeyri millət-

lərdən olan Azərbaycan vətəndaşlarının dövlət dilini öyrənməsi üçün tədbirlər görürdü. 1919 ilin sentyabrında türk dilinin öyrədilməsi üçün kurslar təşkil edilmişdi və bu məqsədlə 351 min manat vəsait ayrılmışdı. Parlament üzvləri Azərbaycan türk dilinə vaxtaşırı münasibət bildirirdilər. Parlamentin 1919 il avqustun 21-də keçirilən iclasında gündəlikdəki məsələ - Bakı Universitetinin açılması ilə bağlı deputatların çıxışlarında dil məsələsinə xüsusi diqqət yetirilmişdi. Çıxış edənlərin, demək olar ki, hamısı universitetdə, ölkənin bu ilk ali məktəbində tədrisin hansı dildə aparılması məsələsinə böyük əhəmiyət vermişdilər. Bakı Universitetinin açılması məsələsinə həsr olunan təkcə elə bu iclasda Azərbaycan dilinin dövlət dili kimi inkişafı, onun tədris və təhsil işində yeri haqqında ciddi mülahizələr səslənmişdi. Parlamentdə sol müstəqil Abdulla bəy Əfəndizadə deyirdi: "İndiki darülfununu yetişdirən müəllimlər gərək türk dilinə aşina olsunlar. Ona görə də lazımdır ki, darülfünuna elə müəllimlər dəvət edək ki, türk dilini yaxşı bilsin... Hər şöbədə, necə ki, qeyd olunubdur, türk dili məcburi olsun. Bir məcburi deməklə olmaz. Gərək bunun proqramı olsun...". Tədrisdə ana dili məsələsinə böyük əhəmiyyət verən məclis üzvü universitet məzunlarını nəzərdə tutaraq, bu məsələnin vacibliyini bir daha vurğulayır: "Bir şəxs ki, darülfünunu ikmal etdi... edadidə tədris edəndə də darülfunundan özünə götürdüyü elmləri lazımdır ki, gözəl ədəbi türk dilində tədrisə müqtədir olsun". Göründüyü kimi, A.Əfəndizadə tədris işində dövlət dilinin zəruriliyinin tam tələbkarı kimi çıxış etmişdi. Parlamentdə "Müsavat" və bitərəflər fraksiyasının üzvü Yusif bəy Əhmədzadə də eyni fikirdə idi: "Biz istərdik ki, hər bir təsisat ki, yapırız, onu öz dilimizdə yapa idik. Lazımdır ki, hər bir millət çalışıb yoldaşa elmdə bərabər olsun. Güman ediyo-

rum ki, hər bir tesisat öz dilimizdə ola". "Əhrar" fraksiyasına daxil olan məclis üzvü Muxtar Əfəndizadə məsələni qəti qoyur: "Qonşularımız erməni və gürcülər bizə gülüyorlar: "Bizim (yəni erməni və gürcülərin) məmləkətdə ana dili işlədigi halda, hənuz rus dili işlənir". Parlament üzvlərinin bu çıxışları, istisnasız olaraq, Hökumətin "Dövlət dili haqqında qərarı"na uyğun idi. Ana dilinin dövlət dili elan edilməsi ilə əlaqədar olaraq, təhsil müəssisələrinin milliləşdirilməsi qarşıda duran əsas məsələlərdən idi. Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti 1918 il avqustun 28-də ibtidai və orta təhsil müəssisələrində təhsilin ana dilində aparılması haqqında qərar qəbul etdi. Qərara görə, bütün ibtidai tədris müəssisələrinde tədris ana dilində aparılır, eyni zamanda, dövlət dili icbari qaydada tədris olunurdu (bax həmçinin Xalq maarifi bölməsi). 1918 il dekabrın 27-də Azərbaycan Xalq Cümhuriyyəti hərbi naziri Səməd bəy Mehmandarovun 34 saylı əmri ilə Azərbaycan-türk dili orduda da dövlət dili qəbul edilmişdi. Bununla bağlı, hərbi nazir orduda xidmət edən, lakin dövlət dilini bilməyən zabitlər qarşısında belə bir tələb qoydu ki, bir ay müddətində, heç olmasa, komanda sözlərinin azərbaycanca qarşılıqlarını öyrənsinlər və əsgərlərə Azərbaycan dilində komanda versinlər. Bir ay müddətində bu tələbi yerinə yetirə bilməyən zabitlər dərhal ordudan xaric edilməli idilər. Azərbaycan dilinin öyrədilməsi və savadsızlığın ləğvi üçün orduda müvafiq kurslar yaradıldı və həmin kursların aparılmasına təcrübəli mütəxəssislər cəlb olundu. Hökumət 1919 il fevralın 11-də Azərbaycan milli ordusunda türk dilində süvari qoşunları nizamnaməsinin təsdiqi haqqında qərar qəbul etmişdi. Cümhuriyyət Hökumətinin başçısı Fətəli xan Xoyskinin çıxışlarında dövlət dili sahəsində görülən işlər barəsində vaxtaşırı verilən məlumatlar ana

dilinin Hökumətin daim diqqət mərkəzində durduğunu göstərirdi: "Şimdi məktəblər milliləşdilər. İbtidai məktəblər və bəzi siniflər milliləşmişlər, bir çox yeni məktəblər açılmışdır" və yaxud "İmdi şükürlər olsun bir çox ədliyyə idarələrinə türk dili bilən adamlar təyin edilmişlər". Azərbaycan dilinin sözün əsl mənasında dövlət dili kimi işlənməsi təcrübəsi geniş şəkildə ilk Azərbaycan Par-lamentinin dilində əksini tapmışdır. Dövlət idarələrində müəyyən müddət ərzində rus dilinin işlənməsinə də icazə verilməsi Parlamentə aid deyildi. Ona görə də Parlamentdə dillərin işlənməsi məsələsi, təbii olaraq, qanunverici hakimiyyətin, Parlament üzvlərinin öhdəsinə buraxılmışdı. Parlamentin istifadə etdiyi dil dövlət dili statusuna malik Azərbaycan türkcəsi idi. Qeyri-yerli Parlament nümayəndələri çıxışların rus dilində olmasını təklif etdikdə, Parlamentin iclaslarından birində bu məsələ ayrıca müzakirə olunmuş və bu xüsusda qərar qəbul edilmişdi. Qərara əsasən, Parlamentin rəsmi dili Azərbaycan türkcəsi elan olunmuş, digər millətlərin nümayəndələrinin rus dilində çıxış etmələri məqbul hesab edilmişdi. Bununla belə, rəsmi sənədlərin hamısı dövlət dilində tərtib edilirdi. Dövlət dilində olmayan sənədlərin üstündə Parlamentin sədr müavini Həsən bəy Ağayev, adətən, belə bir məzmunda dərkənar qoyurdu: "Ərizə türkcə lisanda olmadığı iiçün əncamsız qalır". İlk Azərbaycan Parlamentinin dilinin özünəməxsusluğunda bir məsələni xüsusilə qeyd etmək gərəkdir: dövlətin bu ali orqanında yazılı dillə şifahi nitq arasında ciddi fərq olmuşdur. Bəzi istisnalar nəzərə alınmazsa, sənədlərin, təkliflərin dili ümumi, bəlkə də, məcburi bir prinsipə əsaslanmış, şifahi nitqdə isə, bir qayda olaraq, sərbəstliyə imkan verilmişdir. Azərbaycan Xalq Cümhuriyyətinin Parlament dilində çıxış etiketi də dil baxımından maraqlıdır.

İclas protokolla-rında Parlament üzvlərinin aşağıdakı müraciət formalarına rast gəlinir: "Həzərat", "Möhtərəm parlament əzası", "Əfəndilər", "Möhtərəm məbuslar", "Möhtərəm məclis üzvləri", "Möhtərəm Azərbaycan parlament əzası", "Möhtərəm əzalar", "Möhtərəm parlament əzaları", "Möhtərəm məclis əzaları", "Möhtərəm parlament üzvləri". Azərbaycan Cümhuriyyəti Parlamentində iclasların gedişi və protokollardakı remarkaların dili xeyli sadə və bir çox cəhətdən indiki parlamentdəkindən az fərqlənirdi. Bununla belə, özünəməxsusluqlar çox idi. İclasların gedişində, bəzi gərginliklər nəzərə alınmazsa, dil etiketi yetərincə gözlənilirdi. Nəinki təhqiredici, hətta kobud, qəzəbli müraciətlər, hədələr ölkənin ilk Parlamentinin iclaslarına yad olmuşdur.

## 27. Mədəniyyət

AXC elan edildiyi gündən dövlət atributları, hərbi ordenlər, möhür, pul nişanları layihələrinin hazırlanması üçün müsabiqələr elan olunması barədə qərarlar çıxardı.

1918-ci ildə Bakının erməni-daşnak quldurları tərəfindən yandırılmış möhtəşəm binaları - Hacı Zeynalabdin Tağıyevin qızlar məktəbi, İsmailiyyə Sarayı Bakının baş memarı vəzifəsində çalışan görkəmli memar Zivər bəy Əhmədbəyovun layihələri əsasında bərpa olunmuşdu.

Azərbaycan Dövlət Teatrının açılışı və fəaliyyəti Xalq Cümhuriyyəti dövründə mədəni həyatın ən parlaq səhifələrindən biri idi. AXCdövründə Dövlət Teatrının binasında opera, musiqili teatr tamaşaları, xalq musiqisindən ibarət konsertlərlə yanaşı, mühüm dövlət tədbirləri də keçirilirdi. Dövlət Teatrının pərdələri ilk dəfə 1918-ci il noyabrın 4-də Nəriman Nərimanovun "Nadir şah" fa-

ciəsinin tamaşası ilə açıldı. Xeyriyyə tamaşalarının təşkili teatrın fəaliyyətində ənənəyə çevrilirdi. Azərbaycan teatrının repertuarında müstəqillik uğrunda mübarizə tarixinə həsr olunmuş dram əsərləri mühüm yer tuturdu. Mirzəbala Məmmədzadənin "Bakı uğrunda müharibə", İsa bəy Aşurbəyovun "Azərbaycan", Cəfər Cabbarlının "Bakı müharibəsi", "Ədirnə fəthi" kimi vətənpərvərlik ruhlu əsərləri oynanılırdı. Teatrda tamaşaya qoyulan əsərlərin keyfiyyətinə, cəmiyyətin bədü zövqünün düzgün formalaş masına ciddi diqqət yetirilirdi. Səhnə əsərlərinin seçilməsi və onların ədəbi və bədü keyfiyyətlərinə lazımi diqqət yetirilməsi üçün xüsusi ədəbi komissiya yaradılmışdı.

Cümhuriyyət dövründə Azərbaycanın digər mədəniyyət mərkəzlərində də teatr sənəti inkişaf etməkdə idi. Naxçıvan teatrı bunların içərisində xüsusilə fərqlənirdi. Naxçıvan teatrının təşəkkülündə dövrün ictimai-siyasi və fəlsəfi fikrinin inkişafı şəraitində yetişən maarifpərvər ziyalılardan Cəlil Məmmədquluzadə, Böyük xan Naxçıvani, Əliqulu Qəmküsar, Rza Təhmasib, Rza İsfəndiyarlı, Mir Həsən Mirişli və digərlərinin mühüm xidməti olmuşdur [38]. "Ölülər", "Evliykən subay", "Arşın mal alan", "Dağılan tifaq", "Hacı Qara", "Bəxtsiz cavan" və digər əsərlər tamaşaya qoyuldu. Aktyorlar Mirzə Ələkbər Sabirin və onun ədəbi məktəbinin davamçıları olan şairlərin satiraları əsasında səhnəciklər hazırlanmasına da xüsusi diqqət yetirirdilər.

Üzeyirbəy Hacıbəyli ilk "Leyli və Məcnun" operasından sonra "Şeyx Sənan", "Əsli və Kərəm", "Rüstəm və Söhrab", "Şah Abbas və Xurşidbanu" kimi digər muğam operalarını da yaratdı. O, Azərbaycanda musiqili komediya janrının da banisidir. Onun "Ər və arvad", "O olmasın, bu olsun" ("Məşədi İbad"), "Arşın mal alan" musiqili komediyalarında Azərbaycan xalqının adət-ənənələri, hə-

yat və məişəti öz əksini tapmışdır. Müslüm Maqomayev Azərbaycan opera sənətinin daha bir klassik əsərini - "Şah İsmayıl" operasını yaratmışdır. 1916-cı ildə yazılmış bu opera məhz 1919-cu ildə, AXCdövründə səhnəyə qoyulmuş və böyük uğur qazanmışdı.

Azərbaycan musiqi mədəniyyətinin inkişafında xalq xanəndələri və el aşıqları müstəsna rol oynamışlar. Azərbaycanda, həmçinin bütün Qafqazda və Yaxın Şərqdə də məşhur olan Cabbar Qaryağdıoğlu, Keçəçioğlu Məhəmməd, Seyid Şuşinski, Məcid Behbudov və başqaları ölkənin mədəni həyatında, bayramlarda, xeyriyyə konsertlərində və başqa el şənliklərində yaxından iştirak edirdilər. Bu illərdə, eyni zamanda, ustad aşıqlardan Abbasqulu, Nəcəfqulu və Aşıq Ələsgərin iştirakı ilə "Şərq konsertləri" verilirdi. Azərbaycanda xanəndəlik sənətinin yüksəlişi ilə əlaqədar olaraq çalğı musiqisi də inkişaf etmiş, Məşədi Cəmil Əmirov, Qurban Pirimov və başqa ustad tarzənlər yetişmişdir.

Bu dövrdə Azərbaycanın musiqi həyatında "Beynəlmiləl", "Marselyoza" kimi inqilabi mahnıların, Koroğlu, Qaçaq Nəbi, Səttarxan haqqında tarixi mahnıların xalq arasında yayılması təsadüfi deyildi.Dövrün ümumi əhvali-ruhiyyəsi, xalqın inqilabi fəallığı, demokratik meyllər belə mahnıların özünəməxsus melodiyalarında öz ifadəsini tapırdı. Üzeyir Hacıbəyov "Azərbaycan marşı"nı məhz həmin mahnıların təsiri altında yazmışdı. Bu əsərdə bəstəkar Cümhuriyyət dövründə xalqının qəlbində baş qaldıran vətənpərvərlik hisslərini, mütərəqqi ideyaları, milli qüruru ifadə etmişdi.

Əli bəy Hüseynzadə, Əhməd bəy Ağaoğlu, Üzeyir və Ceyhun Hacıbəyov qardaşları, Hüseyn Cavid, Cəlil Məmmədquluzadə, Məhəmməd Hadi, Əhməd Cavad,

Abdulla Şaiq, Salman Mümtaz, Əliabbas Müznib və başqaları idilər.[38] Xüsusən, "Cümhuriyyət şairi" Əhməd Cavadın, Əli Yusif, Ümmügülsüm, Əmin Abid Mütəllibzadə, Cəfər Cabbarlı, Bədri Seyidzadə, Davud Ağamirzadə, Əli Şövqi Şeyxzamanov kimi gənclərin şeirləri el arasında sürətlə yayılır, marşa, himnə, nəğməyə çevrilirdi. Cümhuriyyətin verdiyi qələm azadhğından bəhrələnirdilər. Nəcəf bəy Vəzirov, Süleyman Sani Axundov, Yusif Vəzir Çəmənzəminli, Seyid Hüseyn, Abdulla bəy Divanbəyoğlu və başqaları pedaqoji işdə, publisistika sahəsinde, dövlət işlərində çalışır, siyasi həyata qoşulurdular.Firidun bəy Köçərlini, Yusif Vəzir Çəmənzəminlini, Seyid Hüseyni və Salman Mümtazı daha çox ədəbiyyat tarixi məsələləri düşündürürdü [38]. Belə ki, Yusif Vəzir "Litva tatarlarının tarixi", "Azərbaycan ədəbiyyatı tarixinə bir nəzər" kitablarını yazır, Salman Mümtaz Azerbaycanın klassik şairlərinin əsərlərini toplayırdı [38]. Əbdürrəhim bəy Haqverdiyev, Əliqulu Qəmküsar, Ömər Faiq Nemanzadə, Eynəli bəy Sultanov, Hüseyn Minasazov və başqaları Tiflisdə çalışırdılar.

## 28. Təhsil

1918-ci il mayın 28-də Azərbaycanın müstəqilliyi elan edildiyi gün Fətəli xan Xoyskinin sədrliyi ilə yaradılmış birinci Hökumət kabinəsində Xalq Maarifi Nazirliyi də təsis olundu. Nəsib bəy Yusifbəylinin başçılıq 1919 ilin əvvəllərində ölkədə dövlət hesabına 637 ibtidai məktəb və 23 orta ixtisas təhsili məktəbi fəaliyyət göstərirdi. Orta məktəblər arasında 6 kişi və 4 qadın gimnaziyası, 5 realnı məktəb, 3 müəllimlər seminariyası, 3 müqəddəs Nina qız tədris müəssisəsi, politexnik məktəb və kommersiya mək-

təbi var idi. Müəllimlər seminariyaları istisna olmaqla, 1919-20-ci tədris ilində Azərbaycanın orta məktəblərində 9611 şagird təhsil alırdı ki, onların da 3115 nəfəri azərbaycanlı idi. 1919-cu il sentyabrın 18-də Parlamentin qərarı ilə xalq məktəbləri üçün Türkiyədən dərs kitabları almaq məqsədilə Xalq Maarifi Nazirliyinə bir milyon manat vəsait ayrılmışdı.

## 29. Mətbuat

AXC dövründə "İstiqlal" (1918-20), "Azərbaycan" (1918-20), "Övraqi-nəfisə" (1919), "Müsəlmanlıq" (1917-19), "Qurtuluş" (1920), "Mədəniyyət" (1920), "Gənclər yurdu" (1918), "Şeypur" (1918-19), "Zənbur" (1919) kimi milli istiqlal ideyalı mətbuat orqanları nəşr olunmuşdur.

Hökumətin 30 aprel tarixli qərarına əsasən, "Mətbuat haqqında nizamnamə" layihəsini hazırlamaq Ədliyyə nazirliyinə tapşırılmışdı. Lakin iyunun 20-də hökumət daxili işlər nazirliyinin təqdim etdiyi qanun layihəsini bəyənildi və Parlamentin müzakirəsinə çıxarıldı. Nizamnamə söz və mətbuat azadlığı prinsiplərinə əsaslanırdı. Sənəddə deyilirdi ki, insan fəaliyyətinin hər bir sahəsi kimi, mətbuat da azadlıqla anarxiya arasında sərhədi müəyyən edən qanunlara tabe olmalıdır.

Parlamentin 1919-cu il 30 oktyabr tarixli qərarında göstərilirdi ki, "Mətbuat, litoqrafiya və buna bənzər müəssisələrin açılması üçün, habelə çap məhsulunun nəşri və satılması üçün Hökumət idarələrinin heç bir icazəsi tələb olunmur". AXCHökumətinin 1918-cu il 9 noyabr tarixli sərəncamı ilə mətbuat və kütləvi informasiya vasitələrinin məzmunu, nəşri və yayılması üzərində dövlət nəzarəti ləğv olunmuşdu

## 30. Qafqaz İslam Ordusu

Azərbaycan xalqına qarşı daşnak-bolşevik qırğınının yaxınlaşması ilə bağlı olaraq azadlıq hərəkatının liderləri yeganə çıxış yolunu Osmanlıdan hərbi yardım almaqda görürdülər. 1918-ci il iyunun 4-də Batumda iki dövlət arasında müqavilə imzalandı. İstanbula gedən Nağı Şeyxzamanlının rəhbərlik etdiyi heyət Osmanlı sultanı, baş nazir Tələt paşa, hərbi nazir Ənvər paşa ilə görüşərək, Azərbaycan xalqına hərbi yardım göstərilməsinə razılıq aldı. Azərbaycana göndərilən hərbçilər qrupuna Ənvər paşanın ögey qardaşı Nuru paşa rəhbərlik edirdi. 1918 il mayın 25-də Nuru paşa və onunla birlikdə Azərbaycana gələn türk hərbçiləri Gəncədə qarşılandı. Mürsəl paşanın komandanlığı altında Beşinci Qafqaz fırqəsi (diviziyası) Azərbaycana göndərildi. Həmin diviziya və general - leytenant Əlağa Şıxlinskinin komandanlığı ilə əsası hələ 1917-ci ilin dekabrında qoyulan, lakin mürəkkəb tarixi şəraitdə lazımınca fomalaşa bilməyən Azərbaycan hərbi qüvvələri Qafqaz İslam Ordusu adı ilə vahid strukturda birləşdirildi. Orduya rəhbərlik Nuru paşaya həvalə olundu.

## 31. Nuru paşanın (1889, İstanbul - 1949, İstanbul) Azərbaycana gəlişi

Qafqaz İslam Ordusunun komandanı, Osmanlı ordusunun general-leytenantı. 1934-cü ildən etibarən Killigil soyadını götürmüşdür. Birinci dünya müharibəsi (1914-1918) illərində Şimali Afrikada olan Osmanlı ordusunda Liviya ərazisində cəbhə komandanı idi. Elə buradakı xidməti dövründə Nuru paşa özünün hərbi istedada malik olduğunu göstərmişdi. AXC rəhbərlərinin Osmanlı dövlə-

tinə müraciətindən sonra Osmanlının hərbi naziri Ənvər paşa Azərbaycana göstəriləcək hərbi yardıma rəhbərliyi ögey qardaşı Nuru paşaya tapşırdı, Qafqazda Osmanlı sultanının siyasətini təmsil etmək hüququ verdi. 1918-ci il martında 20 nəfərlik bir heyətlə Azərbaycana doğru hərəkətə başladı. Aprelin əvvəllərində Nuru paşa öz heyəti ilə birlikdə Mosul-Təbriz-Naxçıvan-Qarabağ-Yevlax-Gəncə yolu ilə Azərbaycana doğru istiqamət götürdü. 1918-ci il mayın 24-də Yevlaxda, mayın 25-də isə Gəncədə Nuru paşanm qarşılanması mərasimi keçirildi. O, Azərbaycandakı hərbi-siyasi vəziyyətlə tanış olduqdan sonra bolşevik-daşnak qüvvələrinin müqavimətini qırmaq üçün, qısa müddət ərzində, milli hərbi struktur formalaşdırılmasının qeyrimümkün olması qənaətinə gəldi. Bu barədə o, 3-cü ordu komandanı Vehib paşaya təcili məlumat göndərdi və dövlət orqanlan qarşısında Azərbaycana türk hərbi qüvvələrinin göndərilməsi barədə məsələ qaldırmasını xahiş etdi. 1918-ci il iyunun 4-də Batumda iki dövlət arasında imzalanan müqavilədən sonra Nuru paşanın vəsatəti əsasında 5-ci Qafqaz fırqəsi Azərbaycana göndərildi. Gəncədən Bakıya qədər uğurlu döyüş yolu keçdilər.

## 32. Gəncədən Bakıya doğru

Bakı Sovetinin tapşırığına əsasən ermənilərdən ibarət olan yaxşı silahlanmış bolşevik-daşnak qoşunları Gəncə üzərinə hücum əmri almışdı. Məqsəd Azərbaycan Milli Şurasını, Hökumətini məhv edib dənizdən dənizə "Böyük Ermənistan" yaratmaq planını gerçəyə çevirmək idi.

Qafqaz İslam Ordusu 1918-ci il iyunun 18-də Qaraməryəmdə, 27 iyunda Göyçay yaxınlığında, iyulun 10-da Kürdəmirdə, iyunun 20-də Şamaxıda, iyulun 5-də Ağsu döyüşlərində daşnak ordusunu məğlub etdi.

## 33. Azərbaycan aydınlarının Türk əsgərlərinə müraciəti

Azərbaycan ziyalıları, elm, ədəbiyyat, sənət adamları, din xadimləri Türk əsgərlərinin ruh yüksəkliyini qaldırmaq və onları daha da cəsarətləndirmək üçün 1918-il avqustun 10-da şəhərin müsəlman türk əhalisi adından hazırladılar: "Neft və milyon səltənəti adlanan Bakının qapıları önündə neçə gündür qələbə quşunun qanadlarını tutmaq istəyən türk ordusuna. Bu gözəl şəhəri zəbt edə bilməsəniz, türkün və onun ordusunun şərəfini indi dayandığınız xəndəklərin içində basdırmış olacaqsınız. Əgər siz bu sərvət və qızıl şəhərini zəbt edə bilməsəniz, Qafqaz türkləri və Türküstan müsəlmanlarının ürəyinə sancılmış xəncərin üzərinə "Heyif ki, Türk bizəköməyə gəlmədi" cümləsi yazılacaq. Qafqaz fəryad edəcək, Türküstan ağlayacaq. Əgər siz bu böyük İslam şəhərini zəbt edə bilməsəniz, Allah deyənləri ortadan qaldırmaq istəyən düşmənlər qabaqdan və arxadan sizi əhatə edəcək və qıcanmış dişlər yeni zülmlər üçün alovlanmış olacaqdır. Əgər siz dəmir quyulardan dünyaya sərvət axıdan bu hərb şəhərini zəbt edə bilməsəniz, tarix qarşısında utanaraq yerə baxacaqsınız. Və bütün dostdüşmən ölkələrdə ən kiçik evdə, ən işsiz adamların belə dillərinin əzbəri olan Bakı şəhəri uğrunda savaşın pərişanlığı Türklərin pərişanlığı ilə sona çatacaqdır. Düşmənlər böyük və çox böyük bir zəfərin açarını ələ keçirdiklərini bəlkə də bir az haqlı olaraq elan edəcəklər. Dostlar isə belə bir itki üçün peşmanlıqlarını gizlətməyəcəklər və bizi kədərləri ilə məhv edəcəklər.

Ey Türk əsgəri! Əgər sən bu şəhəri almazsan, Bakıda sənin üçün hazırlanan süfrələr qonaqsız qalacaq, sənin üçün tikilən geyimi düşmənin geyinəcək. Sənin üçün verilən qurbanlar qəbul edilməyəcək, sənin üçün kəsilən qur-

banlar düşmənə qalacaqdır. Əgər sən bu şəhəri ala bilməsən, İslam gəlinlərinin duvaqlarını kafirlər yırtacaq, yenə mübarək İslam qanı qırmızı şərablar kimi vəhşi işgəncələrin yolunda axacaqdır. Sənin zəfərin üçün dua edən əlləri zalımlar kəsəcəkdir. Əgər sən bu şəhəri ala bilməsən, qadınlar saçlarını yolacaq, ağlını itirəcəkdir. İndiyə qədər axan qanlar boş yerə axmış olacaq, sən də bu toz-torpaqlı yerlərdə pərişan və səfil olacaqsan. Türkün gözlərini çıxarıb iplərə düzən düşmənləri şənləndirəcəksən. Fəqət sən, ey Türk əsgəri! İngilislərin gücünü öz gücünlə Çanaqqalada darmadağın etdin. Ən böyük döyüş gəmilərinin böyük mərmilərinə sinə gərdin. Quttuləmmarədə 14000 əsir götürdün. Qarsendəki düşmənin çoxunu, erməniləri bəlkə Azərbaycandan, Qarsdan bəri qabağına qataraq bu şəhərə qədər sıxışdırdın. Türk adını yüksəldən Çanaqqala, Quttuləmmarə, Qalisiya, Rumıniyadan sonra Qafqaz gələcək və Bakı şəhəri də igidlik tacının bir almaz qaşı olacaqdır. Al Bakını! Vətənə bir almaz ərməğan et!"

### 34. Bakının qurtuluşu

Sentyabrın 10-da Nuru paşanın komandanlığı ilə Qafqaz İslam Ordusu Bakı cəbhəsində idi. Qüvvələr yenidən səfərbərliyə alınmışdı, döyüş planlarının taktiki baxımdan təkmilləşdirilməsində Nuru paşanın böyük rolu oldu. Bakının azad olunması üçün keçirilən həlledici hücumun planını da o hazırlamışdı. 1918-ci il sentyabrın 15-də ağır döyüşlərdən sonra Qafqaz İslam Ordusu və xalq könüllü dəstələrinin birləşmiş qüvvələri Bakını azad etdi. Şəhər S.Şaumyanın bolşevik-daşnak rejimindən sonra şəhərdə hakimiyyəti ələ keçirən və ingilis generalı Denstervilin hərbi qüvvələrinin müdafiə etdiyi daşnak və eser-

menşevik silahlı qüvvələrindən - "Sentro-kaspi diktaturası" ndan təmizləndi.

AXC Parlament və Hökuməti sentyabrın 17-də Bakıya köçdü.

**35. Fətəli xan Xoyski türk əsgərinin rəşadəti haqqında**

Şəhərin azad edilməsindən sonra Cümhuriyyət Hökumətinin başçısı Fətəli xan Xoyski öz minnətdarlığını və təbrikini Nuru paşaya bu sözlərlə bildirmişdi: "...Komandanız altında bulunan cəsur türk əsgərlərimiz tərəfindən Azərbaycanın baş kəndi olan Bakının düşməndən təmizlənməsi münasibətilə millətim, zati-həmiyyəti-pərvəranələrizə və dünyanın ən cəsur və soylu əsgəri olan türkün oğullarına minnətdar olduğumu ərz etməklə iftixar edərim".

**36. Mudros müqaviləsi**

Birinci dünya müharibəsində (1914-1918) məğlub olan Türkiyə Mudros barışığına (1918) əsasən öz hərbi qüvvələrini Cənubi Qafqazdan, o cümlədən Bakıdan çıxarmalı oldu. Cənubi Qafqaz Böyük Britaniyanın təsir dairəsinə keçdi. Müttəfiqlərin razılığına əsasən, bu zaman İranın Ənzəli limanında olan ingilis hərbi qüvvələrinin komandanı general Tomsona Bakını tutmaq əmri verildi. İngilis generalının tələbi ilə Osmanlı və Azərbaycan hərbi qüvvələri Bakını tərk etdilər. 1918-ci il noyabrın 17-də general Tomsonun hərbi qüvvələri Bakıya daxil oldu. Bakıda Tomsonun başçılıq etdiyi ingilis general-qubernatorluğu yarandı. Bakı şəhəri və onun neft mədənləri ingilislərin nəzarətinə keçdi. Azərbaycanın istiqlalının əleyhinə olan qüvvələr, xüsusən daşnaklar yenidən fəallaşdılar.

## 37. Nuru paşanın həbsxanadan qaçırılması

Mudros barışığının şərtlərinə əsasən türk hərbi qüvvələri bölgəni tərk etməyə məcbur olduqda Nuru paşa Azərbaycanda qalıb fəaliyyətini davam etdirmək istəyirdi. Ancaq ingilis hərbi komandanlığı buna imkan vermədi. Azərbaycanı tərk etməli olan Nuru paşa 1918-ci il noyabrın sonlarında yenidən Gəncəyə gəldi. Noyabrın 29-da Gəncə bələdiyyəsində Nuru paşanın və onun xidmət yoldaşlarının yola sahnması ilə bağlı ziyafət verildi. Nuru paşa bu ziyafətdə çıxış edib, türkçülük və turançılıqla bağlı geniş nitq söylədi. Nuru paşa Batum-Artvin-Ərdəhan-Qars-Ərzurum-Trabzon yolu ilə İstanbula qayıtdı. İngilislər tərəfindən təqibə məruz qalan Nuru paşa Hərbi Nazirliyin polisləri tərəfindən həbs edilib ingilislərə təhvil verildi, Batum həbsxanasına gətirildi. İngilislər onlara qarşı vuruşduğuna görə Nuru paşanın edamına qərar verdilər. Azərbaycan milli azadlıq hərəkatının fəallan Nuru paşanın rəsmi yolla azad edilməsinin mümkün olmadığını biləndə Batum həbsxanasına silahlı basqın təşkil edilməsini qərarlaşdırdılar. Bunun üçün Batuma xüsusi dəstə göndərildi. 1919-cu ilin yayında həmin dəstə Batum həbsxanasına basqın edildi. Əməliyyat zamanı itki verilsə də, Nuru paşanı azad etmək mümkün oldu. 1920-ci ilin aprelində Sovet qüvvələrinin Azərbaycana təcavüzü ərəfəsində Nuru paşa Dağıstan ərazisində fəaliyyət göstərir, yerli milli müqavimət qüvvələrinin yaradılmasına çalışırdı. Nuru paşa 1920-ci ilin iyununda Qarabağda bolşevik rejiminə qarşı alovlanan xalq üsyanının rəhbərlərindən biri oldu. Üsyan yatırıldıqdan sonra isə Türkiyəyə döndü. Hərbi xidmətdən ayrılandan sonra İstanbulda dəmir-tökmə fabriki açdı. Bir sıra digər məhsullarla bərabər bu fabrikdə hərbi təyinath məhsulların da istehsah mənimsənildi. Azərbaycanın xilaskarı Nuru

paşa 1949-cu il martın 2-də fabrikdə naməlum səbəblər üzündən baş vermiş partlayış nəticəsində həlak oldu.

### 38. Mürsəl paşa Bakı

Nuru paşanın komandanlığı altında Azərbaycana hərbi yardım üçün göndərilmiş Qafqaz İslam Ordusunun tərkibindəki Beşinci Qafqaz firqəsinin komandiri. Bakının azad olunmasında yaxından istirak etmişdir. 1930-ci illərdə Türkiyədə soyadların tətbiqinə başlananda, Bakı adını fəxarətlə özünə soyadı seçmişdir.

### 39. Qarabağda bolşeviklərə qarşı üsyan

Azərbaycanda sovet-bolşevik rejiminə qarşı baş vermiş xalq üsyanlarından biri (1920-ci il 29 may-13 iyun) Qarabağda oldu. Rəhbər qüvvələri AXC ordusunun zabitləri və hərbi qulluqçuları idi. Üsyanda partizan və qaçaq dəstələri, Qarabağ əhalisi fəal iştirak edirdi. 1920-ci il iyunun 3-dən 4-nə keçən gecə Qafqaz İslam Ordusunun keçmiş komandanı Nuru paşa və polkovnik Zeynalov da milli qüvvələrlə birləşdi, bolşevik hakimiyyəti nümayəndələrinin hamısı həbs edildi. Qarabağda sovet hakimiyyətinin devrildiyi elan olundu. Polkovnik Zeynalov Qarabağdakı milli hərbi qüvvələrin ümumi komandanı təyin edildi. İyunun 5-də Xankəndi və Ağdam da sovet hərbi qüvvələrindən təmizləndi. Qırmızı qüvvələr geri çəkilərək, Bərdədə, Tərtər çayının sol sahilində mövqe tutdular. Bölgə əhalisi sovet işğalına qarşı başlanmış üsyanı böyük rəğbətlə qarşıladı. 1920-ci il iyunun 9-da 11-ci Qırmızı ordunun komandanı üsyanın yatırılması ilə bağlı xüsusi əmr imzaladı. Ordunun əsas qüvvələri hərbi təyyarələrin müşayiəti ilə

bütün cəbhə boyu hücuma keçdi. Üsyançılar sayca onlardan qat-qat üstün olan, çoxsaylı toplardan, zirehli avtomobillərdən, hərbi təyyarələrdən istifadə edən Qırmızı ordunun qarşısını saxlaya bilmədilər. Qırmızı bolşevik cəlladları Qaryagin (indiki Füzuli), Cəbrayıl, Hadrut, Qubadlı, Zəngilan və s. bütün ərazidə kütləvi qırğınlar həyata keçirdilər.

### 40. Tomson bəyannamələri

Bakıdakı müttəfiq qoşunlarının komandanı, general U.Tomsonun 1918-ci il noyabrın 19-da və dekabrın 28-də Bakıda yaydığı bəyannamələr Bakı şəhərində hərbi vəziyyət elan edilməsi və koalision tərkibli yeni Azərbaycan hökumətinin müttəfiq qoşunları komandanlığı tərəfindən tanınması ilə bağlı idi. F.x.Xoyskinin sədrliyi ilə yeni hökumətin tərkibi 1918-ci il dekabrın 26-da elan ediləndən iki gün sonra Tomson yeni bəyanat verdi. Bəyanatda deyilirdi ki, müttəfiq qoşunlan komandanhğı F.x.Xoyskinin sədrliyi ilə təşkil edilən koalision Azərbaycan hökumətinə ölkə ərazisində yeganə qanuni hakimiyyət kimi tam dəstək verəcəkdir.

### 41. AXC Parlamentinin ilk iclası, rus-erməni fitnəkarlığı

1918-ci il dekabrın 7-də saat 13.00-da H.Z.Tağıyevin qız-rməktəbinin binasında (hazırda Füzuli adına Əlyazmalar insitutunun yerləşdiyi bina) Azərbaycan Parlamentinin təntənəli açılışı oldu. Bu, bütün müsəlman Şərqində o dövrün ən demokratik prinsipləri əsasında formalaşdırılmış Parlament idi. Azərbaycan Milli Şurasının

1918-ci il 19 noyabr tarixli qanununa əsasən, Parlamentdə ölkə ərazisində yaşayan bütün xalqlar, hətta sayca çox az olduqlarına görə Parlament seçkilərində iştirak etmək hüququ olmayan xalqlar da təmsil olundular. Cümhuriyyət Parlamentində yerlər aşağıdakı kimi bölüşdürülmüşdü: türk-müsəlman əhali - 80, ermənilər - 21, ruslar - 10, almanlar - 1, yəhudilər - 1, gürcülər - 1, polyaklar - 1, Bakı Həmkarlar İttifaqları - 3, Bakı Neft Senayeçiləri Şurası və Ticarət-Sənaye İttifaqı - 2.

## 42. Erməni və rusların fitnəkarlığı

Ermənilər və ruslar 31 deputat Parlamentin açılışında iştirak etmədilər. Bakıda fəaliyyət göstorən Rus Milli Şurası Azəbaycanın öz müstəqilliyini elan etməsilə "Vahid və bölünməz Rusiya"nın parçalanmasına yol açdığı üçün "Azərbaycanın Rusiyadan ayrılması faktını tanımadı" və Azərbaycan Parlamentini boykot etmək barədə qərar qəbul etdi.

Lakin Azərbaycanda yaşayan rus-slavyan əhalisinin təzyiqi ilə, sonralar Rus Milli Şurası özünün həmin qərarını ləğv etməyə məcbur oldu.

## 43. Hökumətin yeni tərkibi və dinc dövrə keçid

1918-ci il dekabrın 26-da F.X.Xoyski Parlamentdə öz proqramı ilə çıxış etdi və yeni Hökumətin tərkibini təsdiq olunmağa təqdim etdi. Parlament Hökumətin proqramını qəbul etdi və F.X.Xoyskinin təşkil etdiyi Hökumətə etimad göstərilməsi barədə qərar çıxardı. Elə həmin gün Fətəli xan Xoyskinin başçılıq etdiyi yeni Hökumətin tərkibi elan olundu. AXC-nin xalq tərəfindən müdafiə

olunduğunu görən general Tomson dekabrın 28-də Fətəli xan Xoyski Hökumətini Azərbaycanın yeganə qanuni yerli hakimiyyət orqanı kimi tanıdı. Beləliklə, Cümhuriyyət Hökuməti ilə ingilis hərbi komandanlığı arasındakı münasibətlərdə yumşalma başlandı. Nəticədə şəhərdəki erməni hərbi birləşmələri tərksilah olundu və ləğv edildi.

## 44. Milli Şuranın Azərbaycan Parlamentinin yaradılması haqqında qanunu

1918-ci il sentyabrın 15-də Bakı türk və Azərbaycan hərbi qüvvələrindən ibarət Qafqaz İslam Ordusu tərəfindən azad olundu, sentyabrın 17-də isə Azərbaycan Hökuməti Bakıya köçdü. Bakının daşnaklardan, eser-menşevik qüvvələrindən ibarət olan və ingilislərə arxalanan mürtəce "Sentrokaspi diktarurası"nın ağalığmdan qurtulması ilə əlaqədar olaraq alovlu nitq söyləyən Xoyski baş vermiş hadisələri qiymətləndirərək deyirdi: "Bizim də yaşamaq, azad yaşamaq haqqımız var. Nə zirehli maşın, hidroplan, kanonerka, tikanlı məftil, mina və digər texniki qurğular, nə ingilislər və onların əlaltıları, nə də ümumiyyətlə hər hansı bir qüvvə tarixin təbü gedişini dayandıra bildi, onların əlliminlik orduya və texnikaya malik olmasına baxmayaraq, kiçik qüvvənin həmləsinə tab gətirməyib Bakını tərk etmələri öz rifahı və səadətini başqasının fəlakəti və bədbəxtliyi üzərində qurmağa çalışanlar üçün ibrət dərsi olmalıdır". Bakıya köçdükdən sonra Xoyski Hökuməti həm ictimai-siyasi, həm də təsərrüfat və mədəni quruculuq sahəsində daha mühüm tədbirlər həyata keçirməyə başladı. Hökumət Məclisi-Məbusanın (parlamentin) çağırılması üçün komissiya yaratdı, bu iş fəaliyyətini yenidən bərpa etmiş Azərbaycan Milli Şurasına həvalə edildi.

1918-ci il noyabrın 9-da Xoyskinin məruzəsi əsasında Hökumət Azərbaycanın üçrəngli bayrağını təsdiqlədi. Noyabrın 19-da Milli Şura Azərbaycan Parlamentinin yaradılması haqqında Hökumətin qanun layihəsini bəyəndi.

## 45. Dövlət bayrağı haqqında qanun yeniləndi

1918-ci il noyabrın 9-da Parlamentin 21 iyun 1918-ci il tarixli qərarına əsasən qırmızı fonda ağ aypara və səkkizguşəli ulduzun təsvir edildiyi qırmızı parçadan hazırlanmış bayrağın rəngləri mavi, qırmızı və yaşıl rəngli bayraqla əvəz edildi.

## 46. Azərbaycan Parlamentinin 1918-ci il dekabrın 7-də açılan ilk iclasında Baş nazir Fətəli xan Xoyskinin Hökumətin fəaliyyəti barədə Parlamentə hesabatından

"...Bu altı ay müddətində ki hökumət idarə eyləmişdir, siz görürsünüz ki, çox şeylər təzə təşkil olubdur. Daxildə hərci-mərcdən başqa heç bir şey yox idi. Hətta polis də yox idi. Ona görə hamıdan artıq polis işlərinə diqqət etdik. İndi allaha şükür olsun ki, Azərbaycanın hər yerində, lazımi qədər olmasa da, xalqın malını, canını müdafiə edəcək təşkilatımız var. Bu xüsusda çox sözlər ola bilər. Fəqət, vaxta baxıb təraziyə qoyulmalıdır ki, bu işləri hansı hökumat və nə vaxt etmişdir? Tarixi, sabiqəsi, əskər və xəzinəsi olan hökumətmi? Yoxsa, iki gündə təşkil olunmuş pulsuz və əskərsiz hökumətmi? Əgər burasını nəzərə alsanız görərsiniz ki, nə qədər zəhmət lazım idi. Dəmiryolları işləmirdi, dağılmışdı, vaqon, filan yox idi. Məmləkətin dolanacağı buna bağlı idi, ona binaən hökumət buna vaxt

verdi. Doğrudur, indi də mümkün və lazım olan bir çox şey yoxdur. Lakin nə qədər olsa, allaha şükür, yaz, qış dəmir yolları düzəlib idarə olunur. Teleqraf yox idi, bir kağız göndərmək mümkün deyil idi. İndi qüvvəmiz çatan qədər işləyib təmamilə olmasa da, çox yerdə poçt, teleqraf açılmışdır. İstənilən yerlərə teleqram, məktub göndərmək olar. Vacib məsələlərdən birisi də maliyyat məsələsi idi ki, onsuz iş-ləmək mümkün deyil idi. Hökumət bir zamanda təşkil olundu ki, Batum nümayəndələrinə pul göndərmək lazım olduğu halda, on min manat tapılmayıb Tiflisdən borc axtarılırdı... Əlbəttə ki, bu işlər az idi və öhdəmizə düşən vəzifənin bir zərrəsidir. Yalnız böyük zəlalət bu idi ki, hökumətimiz hədər olan kimi idi. Zira hürriyyət, ədalət və əxvət bayrağı daşıyan firqələr Bakını əlimizdən almış idi, bizi paytaxtsız buraxmış idi. Azərbaycanın köksü, paytaxtının sahibi olan müsəlman milləti qətliam edilmiş idilər. Baş bilənlər Dağıstan, İran və Turana dağılmışlar idi. Şəhərdə bir kişi yox idi ki, bunları bir yerə toplasın, bir iş görsün, böylə olan surətdə bu məsələdən başqasına artıq əhəmiyyət vermək olurmu idi?... Hər nəzarətdən ayrı-ayrı bəhs edə bilməyəcəm. Ancaq bunu deməliyəm ki, o vaxt nə məktəb var idi, nə ədliyyə idarələri var idi. Hökumət buna da diqqət etməli idi. Çünki, ədliyyə idarəsi olmayınca məmləkəti polis qüvvəsi ilə idarə etmək olmaz. Bu ikisi birdir ki, əvval baş milliləşməli idi. Şimdi məktəblər milliləşdilər. İbtidai məktəblər və bəzi siniflər milliləşmişlər, bir çox yeni məktəblər açılmışdır. Bundan əlavə, hökumət əldən gələn qədər çalışaraq, yox olan ədliyyə idarələrini təmdid etdi. İndi allaha şükürlar, hər yerdə olamaz isə də, bir çox ədliyyə idarələrina türk dili bilən adamlar təyin edilmişlər. Qüvvəmiz qədər vəzifəmizi ifa etdik. Hələ çox şey edə bilməmişik, amma bunu cürətlə deyə bilərəm ki,

hökumətin nöqsanları ilə bərabar, yol göstərən işıqlı ulduzu bu şüar olmuşdur: MİLLƏTİN HUQUQU, İSTİQLALl, HÜRRİYƏTİ!"

## 47. Azərbaycan Parlamentinin 1919-cu il fevralın 5-də keçirilən iclasında Baş nazir Fətəli xan Xoyskinin Hökumətə qarşı kəskin, qərəzli ittihamlara cavabı

"Mən birinci bəyanatımda demişdim ki, belə ağır bir zamanda heç kəs cəsarət edib Hökuməti ələ ala bilməz. Sizin sidqi-dil ilə hökumətin arxasında durub kömək edəcəyinizə ümid oluruq... Əgər görsəm ki, hökumətə sədaqət yoxdur, bir dəqiqə də hökumət başında durmaram. ...Bir var sorğu ilə hökumətə kömək edilsin, onun nəzərindən qaçanlar yada salınsın, heç vaxt hökumət belə sorğudan inciməz. Amma bir də var zəhərli, hədxahlıq sorğusu... Bu, hökumətə badalaq vurmaq deməkdir... Bu müqəssirlər skamyasıdırmı ki, hərə gəlib bir söz desin, bir ləkə yapışdırsın? Hətta ixtiyarımız da yoxdur ki, onlardan bir qədər ehtiramlı davranmağı tələb edək". Daha sonra Fətəli xan Hökumətin fəaliyyətində bəd niyyətlə "qüsur" axtaranları tənqid edərək bildirirdi ki, "siz bunu bilməlisiz ki, Azərbaycanın istiqlalı hər dəqiqə təhlükədədir. Biliriz, indi elə vaxtdır ki, nəinki bez və çit, hətta elə əhval çıxa bilər ki, Azərbaycan belə qalmaz, istiqlahmız gedər. Belə mühüm zamanda hökumət işlərini Tağıyev fabrikasının bezi ilə ölçmək olmaz".

## 48. M.Ə.Rəsulzadə Xoyski Hökuməti haqqında: “Hökumət bu az müddətdə, nə mümkündürsə, etmişdir".

Azərbaycan Parlamentindəki bir sıra partiya fraksiyaları, xüsusilə Azərbaycanın istiqlalına qarşı çıxan qüv-

vələr, elə ilk aylardan Xoyski Hökumətinə qarşı kəskin müxalif mövqe tuturdular. Bu fraksiyalar, xüsusilə "İttihad", "Əhrar" və sosialistlər Hökuməti hər xırda şey üstündə təqsirləndirir, ölkənin bütün problemlərini onun üstünə yıxmağa çalışırdılar. Xoyski istefasını qəbul etməyi Parlamentdən xahiş etsə də, Parlament Hökumətin istefasını qəbul edərək, onun təşkilini yenidən Xoyskiyə tapşırdı. Fətəli xan 1919-cu il dekabrın 26-da Hökumətin proqramı və tərkibi barədə Parlamentdə çıxış etdi. Geniş müzakirələrdən sonra Parlament Xoyski Hökumətinin proqramını bəyəndi və onun yeni üzvlərinə etimad gostərdi. Bu Hökumətdə Xoyski baş nazir vəzifəsi ilə yanaşı, xarici işlər naziri vəzifəsini də tutdu.

## 49. F.X.Xoyskinin son istefası

Müxalifətçi partiyalar və fraksiyaların Hökumətə qarşı yaratdığı dözülməz vəziyyətlə əlaqədar 1919-cu il fevralın 25-də Xoyski Hökuməti yenidən istefa verdi. Parlament istefanı qəbul etdi və yeni Hökumətin təşkilinə qədər Xoyski Hökumətindən fəaliyyətini davam etdirməsi xahiş olundu. Hökumət öz fəaliyyətini martın 14-də Nəsib bəy Yusifbəylinin təşkil etdiyi 4-cü Hökumətinə qədər davam etdirdi. Təcrübəli və səriştəli dövlət xadimi Fətəli xan Xoyskinin o zamankı son dərəcə mürəkkəb şəraitdə istefa verməyə məcbur olması AXC-ninmüqəddəratına mənfi təsir göstərdi. İstefaya çıxdıqdan sonra Xoyski Parlament üzvü kimi bir sıra siyasi, iqtisadi və maliyyə məsələlərinin həllində yenə də fəal iştirak etmiş, Azərbaycan və Ermənistan arasında mübahisəli ərazi məsələlərini araşdırmaq üçün yaradılan Azərbaycan nümayəndə heyətinin sədri təyin olunmuşdu. 1919-cu ilin dekabrında Nəsib bəy

Yusifbəylinin təşkil etdiyi 5-ci Hökumətin tərkibində Xoyski xarici işlər naziri vəzifəsini tutdu. Azərbaycan Sovet Rusiyası tərəfindən tanınmasına çalışan Xoyski bununla əlaqədar Rusiya Sovet Federativ Sosialist Respublikası xalq xarici işlər komissarı G.V.Çiçerinə dəfələrlə notalar göndərmiş, məkrli planlarını cəsarətlə rədd etmişdi.

## 50. F.X.Xoyski xalqı niyə təbrik etmişdi

5-ci Hökumət kabinəsinin xarici işlər naziri olarkən F.X.Xoyski Azərbaycan İstiqlalının Paris Sülh Konfransı tərəfındən tanınması haqqında Parlamentdə məlumat vermişdi. Parlamentin bu məsələyə həsr olunmuş təntənəli iclasındakı (1920, 14 yanvar) çıxışında Fətəli xan Xoyski demişdi: "...Bu xəbər bizdən ötrü böyük bayramdır. Bu yalnız bizim üçün deyil, ümumi türk milləti və ümumi türk aləmi üçün böyük bir bayramdır. Böylə bir günü dərk etmək üçün qeyri millətlər on illər ilə çalışmışlar. Biz isə onu az müddətdə, bir il yarım içərisində qazandıq. Böylə az müddətdə istiqlaliyyətini alan bir millətin onu möhkəm saxlayacağına əminəm. Bugünki bayram münasibətilə sizi hökumət tərəfindən təbrik edirəm. Özümü artıq dərəcədə xoşbəxt hesab edirəm ki, istiqlaliyyətimizi elan edən zamanda hökumət başında mən idim. Və indi də təsdiqini sizə mən elan edirəm".

## 51. Üzeyir bəy Hacıbəyli Fətəli xan Xoyski haqqında yazmışdı

"Yeni vücuda gəlmiş Azərbaycan hökumətinin birinci rəisi-vüzərası olmaqla Azərbaycan tarixində mühüm mövqe tutmuş Fətəli xan həzrətləri bu yeni dövlətin vəziyyətini taxta paralarından əmələ gəlmiş bir gəmiyə bənzədir

ki, bu kimi fırtınalı bir gündə dərya üzərində hər saat, hər an dağa-daşa çırpılıb dağıla bilmək təhiükəsi qarşısında qalmış, bütün ümidini gəmiçinin istedad və məharətinə bağlamışdır ...Bu zəi fgəmini bu fırtınalı gündə bu dağın, bu daşın arasından salamat keçirmək və sahili-nicata çıxarmaq kimi çətinliyi Fətəli Xan həzrətləri öz boynuna götürməyi qəbul etdi və gəmisini kəmali-ehtiyat və ehtimal ilə sahili-nicata çtxarmaqda, fırtına sakit olana qədər dağa və daşa vurmayıb bunların arasından keçirməkdə böyük ustalıq və məharət göstərdi".

## 52. Azərbaycan Milli Şurasının milli tərkibi

Parlamentin 19 noyabr 1918-ci il tarixli iclasında qeyd olundu ki, Azərbaycanın əhalisi yalnız müsəlman türklərdən ibarət olmadığı üçün Azərbaycan ərazisində yaşayan bütün xalqlar Parlamentdə təmsil olunmalıdır. Azərbaycan Şurası ölkə əhalisinin (2 milyon 750 min nəfər) hər 24 nəfərinə 1 nəfər nümayəndə hesabı ilə 120 deputatdan ibarət olmalı idi. Onlardan 80 nəfər türk-müsəlman əhalini, 21 nəfər ermənilər, 10 nəfər rusları, 1 nəfər almanları və 1nəfər yəhudiləri təmsil etməli idi. Hətta, sayları çox az olduğu üçün, Parlament seçkilərində iştirak edə bilməyən gürcülər və polyakların da hərəsinin Parlamentdə bir deputatla təmsil olunması qərara alındı.

## 53. İttihad və Tərəqqi Partiyasının məramı

"Bütün Qafqaz müsəlmanlarının əski ana Vətənimiz olan Türkiyəyə ilhaqı", "dünyadakı bütün türklərin Türkiyəyə qatışması və bir hiss, bir tərbiyə ilə yüksələrək aləmi islama nigahban olması", “türk ruhu ilə türk qanının layiq olduğu böyük qüvvəti, parlaq mədəniyyəti və tükənməz

sərvəti ancaq Türkiyə bayrağı altında bulacaq və əski şərəflərini o bayraqla qucaqlayacaqdır", "türk aləminin hər yerində böyük firqələr ilə və haman ayrı lisanlar şəklində qonuşulmaqda və yazılmaqda" olduğunu göstərərək bəyan edirdilər ki, "türk aləmini təhlükəyə düşürən və türk birliyini pozan bu ayrılıqları aradan qaldırmaq zəngin və yeknəsək bir türk dili meydana gətirmək üçün hər yerdən ən müqtədir türk alimlərini cəlb edərək İstanbulda bir türk akademiyası təsis etməli və onun dəlaləti ilə ümumi türk aləminin qəbul edə biləcəyi həqiqi ana dilində tazədən bütün təhsil kitablarını yazmalıdır".

## 54. Azərbaycan milli partiyası - Difai

1906-cı ilin ortalarında yaranmışdı. Əsasını Əhməd bəy Ağayev qoymuşdur. 1905-ci ilin erməni-müsəlman qırğınlarından sonra ermənilərlə azərbaycanlıları barışdırmaq məqsədilə fevralın 20-dən martın 6-dək Tiflisdə Qafqaz canişini İ.İ.Vorontsov-Daşkovun sədrliyi ilə qurultay keçirildi. Qurultayda ermənilərin inadkarlığı və barışmaz mövqeyi ilə üzləşən azərbaycanlı nümayəndələrin bir hissəsi erməni terrorçularına qarşı duruş gətirə biləcək mütəşəkkil müsəlman təşkilatının -"Difai" partiyasının yaradılması haqqında qərar qəbul edildi. Azərbaycanın əksər qəzalarında geniş fəaliyyət göstərən və əhali arasında kifayət qədər məşhurlaşan "Difai" partiyası üzvlərinin ümumi sayı 1000 nəfərə çatırdı. "Difai" 1917-ci ilədək üzvlərinin sayına, eləcə də kütlə arasında nüfuzuna görə, əslində, ən böyük milli partiya idi. Partiyanın sosial bazasını cəmiyyətin orta təbəqələri, eləcə də ruhanilər təşkil edirdi. Partiyanın möhüründə tiyəsi yuxarı yönələn iki çarpaz qılınc və aypara təsvir olunmuşdu.

"Açıq söz" qəzetinin 1917-ci il oktyabrın 13-də yazdığına görə, Azərbaycan siyasi partiyalarının Gəncə müşavirəsində "Nicat" və "Difai" inqilabi partiyalarının nümayəndələri proqramları uyğun gəldiyi üçün "Müsavat" partiyasına daxil olmuşdular.

## 55. AXC qurucularının çoxu xaricdə yüksəl təhsil görmüşdü

Azərbaycan xalqını Rusiya parlamentində, ardınca Zaqafqaziya seymində və AXC Hökumətində təmsil edən yüksək təhsil görmüş bu ziyalıların ikisi ixtisasca hüquqşünas idi: Əlimərdan bəy Topçubaşov Peterburq Universitetinin, İsmayıl xan Ziyadxanov isə Moskva Universitetinin hüquq fakültəsini bitirmişdilər.

Duma deputatları Əlimərdan bəy Topçubaşov, İsmayıl xan Ziyadxanov, Fətəli xan Xoyski, Xəlil bəy Xasməmmədov, Məmməd Yusif Cəfərov peşəkar hüquqşünaslar idilər. Məhəmməd ağa Şahtaxtlı isə Sorbonna Universitetinin dinləyicisi olmuş, Leypsiq Universitetinin fəlsəfə fakültəsini bitirmişdi.

## 56. Xaricdə təhsil

Cümhuriyyət dövründə Azərbaycanda ali təhsilli mütəxəssis kadrları hazırlamaq üçün azərbaycanlı gənclər xarici ölkələrin ali məktəblərinə göndərilirdi. Azərbaycan Parlamenti 1919-cu il sentyabrın 1-də Bakıda dövlət universitetinin açılması haqqında qanunla bərabər, 1919-1920 tədris ilində dünyanın müxtəlif ali məktəblərində dövlət hesabına təhsil almaq üçün 100 nəfər azərbaycanlı gəncin xaricə göndərilməsi haqqında da qərar qəbul etdi. Bunun

üçün 7 milyon manat vəsait ayrıldı. Avropa ali məktəblərinə göndərilən hər tələbəyə 400 frank təqaüd təyin olundu və 1000 frank yol xərci ayrıldı.

Parlament xaricə göndəriləcək gəncləri müəyyən etmək üçün M.Ə.Rəsulzadənin başçılığı ilə beş nəfərdən (Mehdi bəy Hacınski, Əhməd bəy Pepinov, Qara bəy Qarabəyov, Abdulla bəy Əfəndiyev) ibarət xüsusi müsabiqə komissiyası yaratmışdı. Komissiyanın qərarına əsasən, ali təhsil almaq üçün 45 nəfər Fransa, 23 nəfər İtaliya, 10 nəfər İngiltərə, 9 nəfər Türkiyə ali məktəblərinə göndərilmişdi. Rusiyada oxumaq üçün seçilmiş 13 nəfər gənc orada vətəndaş müharibəsi getdiyi üçün təhsil almağa gedə bilməmişdi.

## 57. Bakı Dövlət Universitetinin yaradılması, ilk müəllimləri

1919-cu il sentyabrın 1-də Azərbaycan Parlamenti, Bakıda dövlət universitetinin açılması haqqında qanun qəbul etdi. Qanunda universitetin 4 fakültədən: tarix-filologiya (Şərq şöbəsi də daxil olmaqla), fizika-riyaziyyat, hüquq və tibb fakültələrindən ibarət olduğu göstərilirdi. 1919-1920 tədris ilində isə yalnız iki fakültə - tibb fakültəsinin əvvəlinci kurslarını, tarix-filologiya fakültəsinin isə birinci kursunu açmaq mümkün oldu. 1919-cu il noyabrın 15-də universitetin auditoriyalarında ilk mühazirələr başlandı. Tarix-filologiya fakültəsində M.Ə.Rəsulzadə və maarif naziri Rəşid Qaplanov Osmanlı ədəbiyyatından, Məhəmməd ağa Şahtaxtlı isə Azərbaycan dilinin qrammatikasından mühazirələr oxuyurdular. 1919-1920-ci tədris ilində universitetdə 1094 tələbə təhsil alırdı ki, onların da 217 nəfəri azad dinləyici idi.

## 58. Qori Müəllimlər Seminariyası

Bu orta pedaqoji təhsil müəssəsi K.D.Uşinskinin layihəsi əsasında 1876-cı ildə Gürcüstanın Qori şəhərində açılmışdı. Qori seminariyasında hesab, həndəsə, tarix, coğrafi təbiət, ana dili (rus, Azərbaycan, gürcü və erməni şöbələrində milli dil), pedaqogika, psixologiya, hüsnxətt, rəsm, musiqi, nəğmə, səhiyyə və tibb tədris olunurdu. Qori seminariyasında pedaqoji təcrübəyə böyük əhəmiyyət verilirdi. Müəllim seminariyaları və institutlarının 1900-cü ildə Parisdə keçirilmiş ümumdünya sərgisində Qori seminariyası metodiki işlərin təşkilinə görə qızıl medala layiq görülmüşdü.

Seminariyanın Azərbaycan şöbəsi 1879-cu ildə fəaliyyətə başlamışdı. Mirzə Fətəli Axundzadə və Azərbaycanın Mərəzə kəndindən olan A.O.Çernyayevskinin xidməti böyük idi. Buraya yaşı 15-dən yuxarı olmayan, əsas az hazırlıqlı kəndli müsəlman uşaqları qəbul edilirdi. Üzeyir bəy Hacıbəyli, Cəlil Məmmədquluzadə, Sultanməcid Qənizadə, Nəriman Nərimanov, Müslüm Maqomayev, Rəşid bəy Əfəndiyev, Həbib bəy Mahmudbəyov, Süleyman Sani Axundov, Fərhad Ağazadə, Firidun bəy Köçərli, S.Vəlibəyov və bir çox başqaları bu seminariyanı bitirmişlər.

## 59. Qazax Müəllimlər Seminariyası

Azərbaycanda ibtidai məktəblər üçün müəllim hazırlayan ilk tədris ocağı (1918-1925). Qazax əhalisinin xahişi ilə AXC Hökumətinin 1918-ci ci il 22 iyun tarixli qərarına əsasən, Qori müəllimlər seminariyası Azərbaycan şöbəsinin bazasında yaradılmışdı. Seminariya 1918-ci il noyabrın 10-da Məşədi İbrahim Kosalının malikanəsində fəaliy-

yətə başlamışdır. Seminariyanın direktoru vəzifəsinə Qori seminariyası Azərbaycan şöbəsinin sonuncu müfəttişi, məşhur pedaqoq və ədəbiyyatşünas Firidun bəy Köçərli təyin olunmuşdu. O, 1920-ci ilin mayında Gəncədə qətlə yetiriləndən sonra seminariyaya Əli Hüseynov (yazıçı Mehdi Hüseynin atası) rəhbərlik etmişdir.

## 60. Lənkəran qıyamının yatırılması

1919-cu ilin avqustunda Azərbaycan ordusunun artıq kifayət qədər formalaşmış hərbi hissələri Lənkəran bölgəsinin Azərbaycan Hökumətinə tabe olmayan qiyamçılardan təmizlənməsi məqsədilə Lənkəran əməliyyatını uğurla yerinə yetirdilər. Qiyamçı qüvvələrin məğlub edilməsi və bölgədə AXChakimiyyətinin bərqərar olunması hərbi nazir Səməd bəy Mehmandarovun 1919-cu il 19 sentyabr tarixli 420 saylı əmri ilə yaradılmış Lənkəran dəstəsinə tapşırıldı. Dəstənin komandanlığı general-mayor Həbib bəy Səlimova həvalə olunmuşdu. Lənkəran dəstəsinin qətiyyətli və çevik fəaliyyəti nəticəsində sentyabrın 3-də bölgədəki rus hərbi qüvvələri tərk-silah edildilər.

## 61. Novruz bayramında erməni qiyamı

Erməni qüvvələri 1919-cu il Novruz bayramı günlərində, martın 22-də gecə saat 3-də eyni vaxtda Şuşa, Xankəndi, Əsgəran, Xocalı və Tərtərdə yerləşən qoşun bölmələrinin üzərinə hücuma başladılar.Ancaq hərbi təşəbbüsü ələ ala bilmədilər. Birinci piyada diviziyasının komandiri general-mayor Cavad bəy Şıxlinski erməni silahlı dəstələrinin Əsgəran qalası üzərinə hücumu başlanandan sonra Nazirlər Şurasının sədri Nəsib bəy Yusifbəyliyə göndər-

diyi teleqramında yazırdı: "... ya başımızı verəcəyik, ya da Əsgəranı qoruyacağıq".

### 62. Rusiya və Azərbaycan bolşeviklərinin AXC əleyhinə birliyi

Rusiya hərbi-inqilab şurasının qərarı ilə 11-ci və 12-ci orduların, həmçinin Həştərxan – Xəzər donanmasının daxil edildiyi ayrıca Xəzər-Qafqaz cəbhəsi yaradılmışdı. Bakını ələ keçirmək, bütün Şimali Azərbaycanı (habelə Cənubi Qafqazı) işğal etmək üçün "Bakı əməliyyatı" adlı xüsusi hərbi əməliyyat planı hazırlanmışdı. V.İ.Lenin 1920-ci il martın 17-də Qafqaz cəbhəsinin hərbi-inqilab şurasına Bakının ələ keçirilməsi barədə konkret göstəriş vermiş, bu teleqramı vurmuşdu: “"Bakını almaq bizə olduqca və olduqca zəruridir. Bütün səylərinizi buna verin, həm də bəyanatlarda son dərəcə diplomatik olmaq və möhkəm yerli sovet hakimiyyətinin hazırlandığını tamamilə yəqin etmək lazımdır... Qüvvələr yeridilməsi haqqında baş komandanla şərtləşin". Qafqaz canişini Q.K.Orconikidze yazmışdı: “... Əməliyyat hazırdı...". Martın 30-da isə AXC-i devirmək məqsədilə yaradılmış "operativ qərargah"ın sədri Əliheydər Qarayev bu zaman Dağıstanda olan sovet qoşunlarının komandanına teleqram göndərərək bildirirdi: "ən yaxın günlərdə Bakıda çevrilişə hazırlaşırıq.”

### 63. AXC-nin son Hökuməti - Parlamentdə liberallarla radikallar arasında fikir ayrılığının ağır nəticəsi

Hökumətin siyasətinə qarşı müxalifətçi mövqe tutan liberal xəttin tərəfdarı daxili işlər naziri Məmmədhəsən Hacınski ilə radikal tədbirlər tərəfdarı xarici işlər naziri F.Xoyski arasında haş verən mübahisələrdə radikallar

qalib gəldilər və 1920-ci il fevralın 18-də M. Hacınski daxili işlər naziri vəzifəsindən getdi. "Müsavat" partiyasını üzvü Mustafa bəy Vəkilov daxili işlər naziri təyin edildi. 1920-ci il martın 23-də Əhməd bəy Pepinov nazir səlahiyyətlərindən əl çəkdi. Bu hadisə vəziyyəti mürəkkəbləşdirdi. Pepinovun ardınca aprelin 9-da digər sosialist nazir Camo bəy Hacınski də istefa verdi. Sosialistlər fraksiyasının üzvlərinin və İttihad nümayəndələrinin getməsi hökumət böhranını kəskinləşdirdi. Hökumətdə qalan müsavatçılar artıq Nazirlər Kabinetinin süqutunun qarşısını almaq iqtidarında deyldilər.

Martın 30-da Nəsib bəy Yusifbəylinin istefasından sonra, yeni Hökumətin (VI kabinə) təşkil olunması tapşırılmış Məmməd Həsən Hacınskinin başçılığı ilə xüsusi komissiya (M.Ə.Rəsulzadə, Q.Qarabəyov, A.Səfikürdski, A.Qardaşov, S.Ağamalıoğlu) yaradıldı. Azərbaycan bolşeviklər ilə sıx əlaqə saxlayan M.H.Hacınski kommunistlərlə danışıqlara getdi.

## 64. Rusiyanın təzyiqləri, işğal hazırlıqları, notaları

Rusiya xarici işlər naziri Çiçerinin birinci notasını AXC-nin xarici işlər naziri Fətəli xan Xoyski yanvarın 6-da aldı. Həmin gün Nəsib bəy Yusifbəylinin sədrliyi ilə Dövlət Müdafiə Komitəsinin təcili iclası keçirildi və qərara alındı ki, cavab notasında Azərbaycan Cümhuriyyətinin azad və müstəqil dövlət kimi Sovet Rusiyası ilə qarşılıqlı münasibətlər yaratmaq üçün danışıqlara başlamağa hazır olduğu bildirilsin. F.x.Xoyski yanvarın 14-də G.Çiçerinə cavab notasında yazırdı: "...Azərbaycan Hökuməti öz daxili həyatını qurmaq işində rus xalqının mübarizəsinə müdaxiləni yolverilməz hesab edir. ...danışıqlar yolu ilə rus və Azərbaycan xalqları arasında hər iki dövlətin müstəqil-

liyi prinsipindən irəli gələn mehriban qonşuluq münasibətləri yaratmağa hazırdır".

Çiçerin 1920-ci il yanvarın 23-də Fətəli xan Xoyskiyə ikinci notasını göndərdi. Azərbaycanın müstəqilliyi artıq Antanta dövlətləri tərəfindən tanınmışdı. Buna baxmayaraq, Çiçerinin ikinci notası birinci notaya nisbətən daha amiranə və daha təcavüzkar məzmuna malik idi. İkinci notada Azərbaycan Hökuməti Denikinlə əməkdaşlıqda ittiham olunur, F.x.Xoyskinin birinci notaya cavabı Denikinə qarşı mübarizədən imtina kimi qiymətləndirilir, Denikinin Azərbaycanın müstəqilliyi üçün təhlükə olmasından, milli müqəddəratın həllində sovet hökumətinin prinsiplərindən bəhs edilirdi. Notada Denikinə qarşı birgə mübarizə təklifi yenə təkrarlanır, lakin AXC-nin tanınması məsələsinin üstündən keçilirdi. Sovet Rusiyasının bu notası Azərbaycana silahlı müdaxilə və Bakını ələ keçirmək üçün açıq-aşkar diplomatik hazırlıq idi.

## 65. İşğalçı bolşevik-rus XI Qırmızı Ordusuna qarşı müqavimət

1920-ci il aprelin 27-də Sovet Rusiyası hərbi qüvvələrinin Azərbaycan sərhədlərini pozması xəbəri alınan kimi, hərbi nazir Səməd bəy Mehmandarov Birinci piyada diviziyasının komandiri, general-mayor Cavad bəy Şıxlinskiyə teleqram göndərib şimal sərhədinin müdafiəsinə hərbi qüvvə ayırması barədə əmr verdi: "Bolşeviklər Yalama stansiyasına hücum etdilər. Onlar dayanmadan irəliləyirlər. Xudatı ələ keçiriblər. Çıxılmaz vəziyyətdəyik. Günü bu gün Qızılburuna Qazaxdan bir tabor və Gəncədən bir tabor göndərməyinizi əmr edirəm. Hər bir taborda ən azı 500 süngü və pulemyot olmalıdır. Yük qatarı artıq gön-

dərmişik. Həmin hissələrin gəlməsi vaxtını teleqramla bildirin. Biz taborları sabaha gözləyirik".

Aprelin 27-də saat 1-ə 5 dəqiqə işləmiş, Azərbaycan parlamentinə ultimatum verilməsindən 12 saat əvvəl Anastas Mikoyan, Q.Cəbiyev və Qəzənfər Musabəyovun da olduğu "ÜI Beynəlmiləl" zirehli qatarı Samur körpüsündən keçdi. İki saatlıq qanlı döyüşlərdən sonra zirehli qatarlar Yalama stansiyasını ələ keçirdilər. Stansiyanı 4 top və 10 pulemyotla Quba polkunun 2 alayı, süvari divizionu (300-ə qədər qılınc), jandarm dəstəsi (200 nəfərə yaxın) qoruyurdular. 350 döyüşçü son nəfəsinədək stansiyanı qoruyur, əksəriyyəti igidliklə Şəhid olur, sağ qalanlar dağlara çəkilib partizan savaşı aparırlar. Bu döyüşdə ilk vaqonda irəliləyən rus desantının 6 əsgəri öldürülür, 8-i yaralanır. XI Qırmızı Ordunun məşhur komandirlərindən biri, 28-ci diviziyanın veteranı Nemıkin də bu döyüşdə öldürülür.

Süvari - dağ divizionu (3 top), kürd batalyonunun 2 rotasının (2 top), gücü ilə mühafizə olunan Xudat stansiyası yaxınlığında rusların irəliləməsini dayandırmaq üçün yeni cəhd də uğursuzluqla qurtardı. Rus zirehli qatarlarının hərəkətini gecikdirmək məqsədilə geri çəkilən əsgərlər Xaçmaz stansiyası yaxınlığında körpünü yandırdılar və yol dəyişdiricisini sıradan çıxardılar. Lakin yanğın tezliklə söndürüldü, dəyişdirici düzəldildi və bundan sonra zirehli qatarlar əslində heç bir müqavimətə rast gəlmədən Bakıya hərəkət etdilər. Sonuncu qısamüddətli döyüş Xırdalan və Biləcəri stansiyaları arasında baş verdi və bundan sonra Azərbaycan zirehli qatarı Keşlə, sonra isə Bakı stansiyasından uzaqlaşdı. Aprelin 27-də axşam saat 11-də Biləcəri stansiyası rus zirehli qatarları tərəfindən tutuldu, səhər saat 4-də isə "ÜI Beynəlmiləl" zirehli qatarı Bakı stansiyasına gəldi. Aprelin 30-da XI Ordunun əsas hissələri şəhərə da-

xil oldular. Həmin gün 7-ci süvari diviziyasının hissələri Şamaxı və Ağsuya daxil oldular, mayın 1-də isə Azərbaycan hissələrinin müqavimətini aradan qaldıran rus zirehli qatarları Gəncə stansiyasını ələ keçirdilər.

## 66. Parlamentin son iclası

Məmməd Yusif Cəfərovun sədrliyi ilə Parlamentin sonuncu (145-ci) iclası aprelin 27-də axşam saat 20.45-də başlandı və 23.25-dək davam etdi. M.Ə.Rəsulzadənin təklifi ilə müzakirələr zamanı Parlamentin qapıları xalqın üzünə açıldı. M.Ə.Rəsulzadə dedi: "Cənablar! Çıxardığımız tarixi qərarı millətdən bixəbər çıxarmayaq. Ölkə Parlamentinin qapısını açıq qoyaq ki, hər kəs nə cür təhlükəli vəziyyət içində olduğumuzu, nə cür qərar qəbul edəcəyimizi bilsin. Ona görə də təklif edirəm ki, məclisimizin qapılarını millət üzünə bağlamayaq və millətdən bixəbər qərar qəbul etməyək."

Bolşeviklərin ultimatum barədə məlumat verən M.H.Hacınski bildirdi ki, hakimiyyət bu gün axşam kommunistlərə təhvil verilməlidir; AK(b)P-nin Mərkəzi Komitəsi bildirir ki, əks təqdirdə hakimiyyətin Qırrmzı Orduya təhvil verilməsi üçün əlindən gələni edəcəkdir. Kommunistlər həm də xəbərdarlıq edirlər ki, əgər biz bu gecə hakimiyyəti onlara təhvil verməsək, Parlamentdə təmsil olunan siyasi partiyalar, o cümlədən "Müsavat" partiyası qadağan olunacaqdır; M.H.Hacınski həmçinin, məlumat verdi ki, kommunistlər bizim təkliflərimizə baxmaqdan imtina etdi.

**67. AXC Parlamenti hakimiyyəti kommunistlərə bu şərtlərlə verdi**

Parlament səs çoxluğu ilə aşağıdakı şərtlərlə hakimiyyətin kommunistlərə verilməsi barədə qərar qəbul etdi:

1. Sovet hökuməti tərəfindən idarə olunan Azərbaycanın tam istiqlaliyyəti mühafizə edilir;
2. Azərbaycan Kommunist Firqəsinin yaratdığı hökumət müvəqqəti orqan olacaqdır;
3. Azərbaycanın son idarə formasını hər hansı bir xarici təzyiqdən asılı olmayan fəhlə, kəndli və əsgər deputatları sovetləri şəxsində Azərbaycanın ali qanunverici orqanı müəyyənləşdirir;
4. Hökumət idarələrinin bütün qulluqçuları öz yerlərində qalır, ancaq məsul vəzifə tutanlar dəyişdirilir;
5. Yeni yaradılan müvəqqəti kommunist hökuməti Parlament və Hökumət üzvlərinin heyatının və əmlakının toxunulmazlığına təminat verir;
6. Qırmızı Ordunun Bakı şəhərinə döyüşlə daxil olmasına yol verməmək üçün tədbir görüləcək;
7. Yeni hökumət, haradan baş verməsindən asılı olmayaraq, Azərbaycanın istiqlalını sarsıtmaq məqsədi güdən bütün xarici qüvvələrə qarşı öz sərəncamında olan vasitələrlə qəti tədbirlər görəcəkdir ("Kommunist" qəzeti, 1920, 6 may).

**68.Volqa-Xəzər hərbi donanma gəmilərinin Bakı limanına daxil olması**

Mayın 1-də Volqa-Xəzər hərbi donanmasının gəmiləri Bakı limanına daxil oldular. Mayın 3-də və 4-də Lənkəran və Astaraya hərbi dəniz desantları çıxarıldı. Mayın

5-də XI Ordunun süvari dəstələri Qazaxa, mayın 7-də Yevlax rayonlarına daxil oldular. 1920-ci il mayın ortalarında XI Ordu AXCnin, demək olar ki, bütün ərazisini nəzarət altına aldı. Beləliklə, Rusiya müdaxiləsi nəticəsində milli Azərbaycan hökumətinin hakimiyyəti devrildi.

### 69. AXC qurucularının Cümhuriyyətdən əvvəlki siyasi fəaliyyətləri: Ümumrusiya müsəlmanlarının 1-ci qurultayında

1905-ci ildə Ümumrusiya müsəlmanlarının Nijni Novqorodda keçirilmiş 1-ci qurultayında "Rusiya imperiyasında türklərin vəziyyəti və problemləri"nə həsr olunmuş əsas məruzə ilə məhz Azərbaycanın nümayəndəsi Əlimərdan bəy Topçubaşov çıxış etmişdi. Yeni yaradılmış Ümumrusiya Müsəlmanları İttifaqının ("İttifaqi-müslimin") Nizamnamə və Proqramının yazılmasında da azərbaycanlı nümayəndələr fəal iştirak etmişdilər. Rusiya Dövlət dumasının ən böyük fraksiyalarından birinə - Müsəlman fraksiyasına Əlimərdan bəy Topçubaşov sədr seçilmişdi.

### 70. Müsəlman deputatlar Rusiya Dövlət Dumasında

Mürəkkəb və çətin şəraitdə aparılan gərgin mübarizə nəticəsində Azərbaycanın tanınmış ziyalıları Əlimərdanbəy Topçubaşov, İsmayıl xan Ziyadxanov, Əbdürrəhim bəy Haqverdiyev, Məmmədtağı Əliyev, Əsədulla bəy Muradxanov 1906 ildə Rusiyanın ilk parlamentinə 1 -ci Dövlət dumasına deputat seçilmişdilər. 2-ci Dövlət dumasının üzvləri Fətəli xan Xoyski, Xəlil bəy Xasməmmədov, Mustafa Mahmudov, Məhəmməd ağa Şahtaxtlı və Zeynal Zey-

nalov da, öz sələfləri kimi, çarizmin bütün sahələrdə, o cümlədən dövlət idarəçiliyində yeritdiyi milli və dini ayrı-seçkilik siyasətinə qarşı kəskin etirazlarını bildirirdilər. Azərbaycandan olan deputatların bütün Rusiyanın türk-müsəlman əhalisinin hüquqsuzluğuna qarşı kəskin çıxışları və bunun güclü oyadıcı təsirinin çarizmi vahiməyə salması, başqa səbəblərlə yanaşı, 1-ci və 2-ci Dövlət dumalarının buraxılmasında az rol oynamamışdı. Məhz buna görə də növbəti, 3-cü Dumaya seçkilər zamanı imperatorluğun türk-müsəlman əhalisinin yaşadığı Mərkəzi Asiya, Sibir və digər regionlar seçki hüququndan məhrum edilmiş, Bakıya isə öz nümayəndəsini irəli sürmək hüququ verilməmişdi. Elə həmin səbəbə görə də, əvvəlkilərdən fərqli olaraq, 3-cü Dövlət dumasında bütün Cənubi Qafqazın müsəlman əhalisini yalnız bir deputat - Xəlil bəy Xasməmmədov təmsil edirdi. 4-cü Dövlət dumasında isə bütün Cənubi Qafqaz müsəlmanlarının yeganə nümayəndəsi Məmməd Yusif Cəfərov idi. Rusiyanm Dövlət dumalarına seçilmiş azərbaycanlı deputatların, demək olar ki, hamısı milli-istiqlal hərəkatının ən qabaqcıl nümayəndələri idilər.

## 71. Dövlət dumasında çıxışları ilə rus çarizmini ifşa edən deputat

Deputat İsmayıl xan Ziyadxanovun Dövlət dumasında çıxışından: "Biz (Azarbaycan) bir əsr əvvəl işğal edilmişik. Bizə heç bir hüquq verilməmişdir. Kölə halına salınmışıq. Milli varlığımıza təcavüz edilmişdir. Bir sıra ali məktəbə qəbul olunmağımıza qadağa qoyulmuşdur. Dövlət idarələrində türk məmurlarına rast gəlmək mümkün deyildir. Torpaq azlığından əziyyət çəkirik. Lakin buraya (Azərbaycana) Rusiyadan axın-axın kəndlilər köçürülür.

Bilavasitə dövlətin əli ilə törədilən milli qırğın zəminində qana boyanmış bu torpaqlarda rus kəndliləri üçün planlaşdırdığınız yaşayış məntəqələri quracaqsınız. Bu, hökumatin gizli surətdə hazırlayıb həyata keçirdiyı "parçala və hökmranlıq et!" idarə tərzindən başqa bir şey deyildir. İki ildən bəri qan dəryasında boğulan Vətənimdə insan cəsədlərinin üstündən keçirik. Artıq səbrimiz tükənmişdir".

### 72. "Türkiyə Ermənistanı" haqqında Rusiya dekreti

Rusiya Sovet Federativ Sosialist Respublikası Xalq Komissarları Sovetinin Türkiyənin daxili işlərinə qarışmasını və ermənipərəst siyasət yeritməsini təsdiq edən avantürist qanunvericilik aktıdır. Dekret 1917-ci il dekabrın 29-da verilmiş, 1918-ci il 15 yanvarda üçüncü Ümumrusiya Sovetlər qurultayı tərəfindən təsdiq edilmişdi. Dekreti XKS sədri V.Ulyanov (Lenin), Millətlər məsələsi üzrə xalq komissarı Stalin imzalamışdı. Dekret preambula 4 maddə və qeyddən ibarətdir. Preambulada Rusiya XKS erməni xalqının Rusiyanın işğal etdiyi "Türkiyə Ermənistan"nda tam müstəqilliyədək öz müqəddəratım təyin etmək hüququnu tanıdığını bildirirdi. RSFSR XKS-nin digər ilk sənədləri kimi, bu dekret də deklarativ və avantürist səciyyə daşıyırdı. Lakin sovet hökuməti xarici siyasət xəttində Atatürkün başçılığı ilə İstiqlal savaşının qələbəsinin labüd olduğunu və hər iki tərəfin qarşılıqlı mənafeyini nəzərə alaraq Türkiyəyə münasibətində əsaslı dəyişiklik etdi. 1921-ci ildə Moskva və Qars müqavilələrinin imzalanması ilə münasibətlərdə normallaşma yarandı.

## 73. Qars müqaviləsi

Qars müqaviləsi (ing. Treaty of Kars; türk. Kars Antlaşması; rus. Карсский договор) - Zaqafqaziya Sovet Federativ Sosialist Respublikası ilə Türkiyə arasında 13 oktyabr 1921-ci ildə bağlanmış sülh müqaviləsi.

1921-ci il mart ayının 16-da Rusiya Sovet Federativ Sosialist Respublikası ilə Türkiyə Böyük Millət Məclisi (1923-cü ildə qurulacaq Türkiyə Cümhuriyyətinin sələfi) arasında bağlanmış Moskva sülh müqaviləsinin tələblərinin yerinə yetirilməsi çərçivəsində həmin il oktyabr ayının 13-də Azərbaycan, Ermənistan və Gürcüstan SSR-nin daxil olduğu Zaqafqaziya Sovet Federativ Sosialist Respublikası ilə Türkiyə arasında Qars şəhərində imzalanan sülh müqaviləsi. Müqavilə 1922-ci il sentyabr ayının 11-də qüvvəyə minmiş və bitmə müddəti müəyyənləşdirilməmişdir.

Qars müqaviləsini imzalayanlar: Bir tərəfdə Ermənistan Sovet Sosialist Respublikası, Azərbaycan Sovet Sosialist Respublikası və Gürcüstan Sovet Sosialist Respublikası hökumətləri və o biri tərəfdə Türkiyə Böyük Millət Məclisi Hökuməti millətlərin qardaşlığına və xalqların öz müqəddəratını təyin etmək hüququ prinsiplərinə şərik çıxan, hər iki tərəfin qarşılıqlı maraqlarına əsaslanan daimi səmimi qarşılıqlı münasibətlərdən və fasiləsiz səmimi dostluq qurmaq istəyindən ruhlanaraq Rusiya Sosialist Federativ Sovet Respublikasının iştirakı ilə dostluq haqqında müqavilə bağlamaq qərarına gəlmiş və bunun üçün öz Müvəkkillərini təyin etmişlər: Ermənistan Sovet Sosialist Respublikasının hökuməti: Askanaz Mravyan, xalq xarici işlər komissarı; Poqos Makinzyan, xalq daxili işlər komissarı. Azərbaycan Sovet Sosialist Respublikasının hökuməti: Behbud Şahtaxtinski, xalq dövlət nəzarəti

komissarı. Gürcüstan Sovet Sosialist Respublikasının hökuməti: Şalva Eliva, xalq hərbi-dəniz işləri komissarı; Aleksandr Svanidze xalq xarici işlər komissarı və xalq maliyyə işləri komissarı. Türkiyə Böyük Millət Məclisi hökuməti: Kazım Qarabəkir Paşa, Böyük Millət Məclisində Ədirnədən millət vəkili, Şərq Cəbhəsi komandanı; Vəli bəy, Böyük Millət Məclisində Burdurdan millət vəkili; Muxtar bəy, İctimai İşlər Stats-Sekretarının keçmiş müavini; Məmduh Şövkət bəy, Türkiyənin Azərbaycanda səlahiyyətli nümayəndəsi. Rusiya Sosialist Federativ Sovet Respublikasının hökuməti: Yakov Qanetski, Latviyada səlahiyyətli nümayəndə.

### 74. AXC-nin Amnistiya aktı

Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyətə başlaması münasibətilə həyata keçirilmiş humanizm aktı barədə qanun 1918-ci il dekabrın 7-də Parlamentin birinci iclasında qəbul olunmuşdu. Amnistiya keçirmək məqsədilə Aslan bəy Qardaşov, Həmdulla Əfəndizadə, Ağa Zeynal Tağıyev, Aslan bəy Səfikürdski, S.Ağamalıoğlundan ibarət xüsusi heyət - "Əfvi-ümumi" komissiyası yaradılmışdı. Komissiya dekabrın 11, 13, 17 və 25-də keçirdiyi iclaslarda "Azərbaycan Cümhuriyyəti Parlamentinin açılışı münasibəti ilə siyasi amnistiya haqqında" qanun layihəsini hazırlayaraq Parlamentin 1919-cu il yanvarın 8-də keçirilən 7-ci iclasının müzakirəsinə vermişdi. Qanuna görə 1918-ci il dekabrın 7-nə qədər həbs edilmiş və ölkədə qüvvədə olan keçmiş Rusiya qanunlarının həm cinayət, həm də mülki məcəllələrinin bir sıra maddələri ilə təqsirli bilinən şəxslər bağışlanırdı. Bu qanuna əsasən həmin il dekabrın 7-nə qədər törədilmiş və icraatda olan məhkəmə işlərinə də xitam verilirdi.

### 75. "Qafqaz Azərbaycanı Cümhuriyyətinin Raris sülh konfransına Memorandumu"

AXC Hökumətinin Paris Sülh Konfransına təqdim etdiyi tarixi sənəddir. 1918-ci il dekabrın 28-də Hökuməti Parlamentin Paris Sülh Konfransına göndəriləcək Azərbaycanın nümayəndə heyətinin tərkibini müəyyən etdi. Parlamentin sədri Əlimərdan bəy Topçubaşovun rəhbərlik etdiyi nümayəndə heyətinə Məmməd Həsən Hacınski, Əhməd bəy Ağayev, Əkbər Şeyxülislamov, Məhəmməd Məhərrəmov, Mir Yaqub Mehdiyev və Ceyhun bəy Hacıbəyli daxil idilər. Yanvarda İtanbula gedən nümayəndə heyəti üç ay orada gözlədikdən sonra, nəhayət, 1919-cu il aprelin 22-də İtaliya gəmisi ilə Fransaya yola düşdü və mayın əvvəllərində Parisə çatan nümayəndə heyəti hələ İstanbulda ikən Ə.Topçubaşov, Ə.Ağayev və C.Hacıbəyli tərəfindən hazırlanmış "Qafqaz Azərbaycanı Cümhuriyyətinin Paris Sülh Konfransına memorandumu" adlı sənəd üzərində yenidən işləyərək, onu daha da təkmilləşdirdi. Məqsəd memorandumu Paris Sülh Konfransının keçirildiyi ingilis və fransız dillərində kitabça şəklində hazırlayıb konfrans iştirakçılarına paylamaq idi. Memorandum on dörd bölmədən ibarət idi.

### 76. AXC-nin nümayəndə heyətinin Parisdə ABŞ prezidenti Vilsonla görüşü

1919-cu il mayın 28-də AXC-nin yaranmasının birinci ildönümü günü ABŞ prezidenti V.Vilson başda Əlimərdanbəy Topçubaşov olmaqla, Azərbaycan nümayəndə heyətini qəbul etmişdi. Görüşdə Topçubaşov ABŞ nümayəndə heyətinin konfransda Azərbaycanı dəstəkləməsini

V.Vilsondan xahiş etmiş və ona müraciətində demişdi: "Qüdrətli Amerikanın nümayəndəsi kimi Sizə müraciətlə xahiş edirik ki, cənab prezident, bizim ölkəmiz, xalqımız, eləcə də özümüz haqqında məlumatları bizdən eşidəsiniz. Çünki biz Avropa və Amerika mətbuatında tez-tez Azərbaycan haqqında səhv, saxtalaşdırılmış və həqiqətə uyğun olmayan məlumatlar verilməsinin şahidi oluruq. Düzdür, bizi hələ yaxşı tanınırlar, biz, indi birinci dəfədir ki, Avropadayıq, lakin Sizi əmin edirik ki, konfrans bizi dinləyəcək və biz Millətlər Cəmiyyətinə bıraxılacağıq. Biz, əminik ki, bütün xalqlar kimi, Sizin böyük prinsipləriniz əsasında yardım alacağıq". Çıxışının sonunda Ə.Topçubaşov qətiyyətlə demişdi: "Biz bildiririk ki, nə Kolçakı, nə Denikini, nə də köhnə Rusiya imperiyasının hüdudlarında hakimiyyəti bərpa etmək niyyətində olan qeyri birisini tanımayacağıq. Biz Azərbaycan üçün yalnız öz Parlamentimizi və öz Hökumətimizi tanıyırıq və tanıyacağıq".

**77. Məhəmməd Əmin Rəsulzadə (tam adı: Məhəmməd Əmin Axund Hacı Molla Ələkbər oğlu Rəsulzadə (31.01.1884, Bakı – 06.03.1955, Ankara))**

Bakının Novxanı kəndində anadan olmuşdur. 1902-ci ildə 17 yaşında "Müsəlman Gənclik Təşkilatı"nı yaratmışdır. "Hümmət" adlı qəzeti də nəşr edilmiş, qəzet öz nəşrini dayandırdıqdan sonra 1906-cı ilin dekabrından "Təkamül" adı ilə çıxır. Azərbaycan milli-demokratik partiyası "Müsavat"a (ərəbcə bərabərlik) rəhbərlik etmişdir. AXC Parlamentini 79 deputatının 23-ü "Müsavat"ın üzvü idi. Yaradılan yeni koalisiya hökumətində də dörd nazir vəzifəsini müsavatçılar (F.x.Xoyski, N. Yusifbəyli, X.Xasməmmədov, M.Əsədullayev) tutmuşdu. 1917-ci il oktyab-

rın 26-dan 31-ə qədər 500 nümayəndənin iştirakı ilə Bakıda təntənəli surətdə keçirilən Müsavatın birinci qurulutayında M.Ə.Rəsulzadə Mərkəzi Komitənin sədri seçilmişdir. Bu qurultaydan sonra Bakıda və Azərbaycanın bütün qəzalarında "Azərbaycana muxtariyyət" şüarı altında milli hərəkat başlandı. Həmin dövr tarixinə Milli Azərbaycan hərəkatı kimi daxil olmuşdur. 1918-ci il mayın 26-da Zaqafqaziya seymi daxili fraksiyaların çəkişmələri nəticəsində ləğv olundu. Həmin ayın 27-də seymin müsəlman fraksiyasına daxil olan müxtəlif partiyaların üzvlərindən ibarət olan Azərbaycan Milli Şürası yarandı. Səs çoxluğu ilə M.Ə.Rəsulzadə Milli Şüranın sədri seçildi. 1918-ci il mayın 28-də bütün ölkələrin radio stansiyaları və qəzetləri Azərbaycan istiqlaliyyətinin elan olunmasını dünyaya yaydılar. Rus işğalından sonra həbs edilir. Stalin M.Ə.Rəsulzadə qarşısında öz tarixi vicdan borcunu yerinə yetirib onu həbsdən azad edib özü ilə birlikdə Moskvaya apardı və RSFSR Millətlər Komissarlığında mətbuat müvəkkili vəzifəsinə təyin etdi. 1922-ci ildə Petroqraddan Finlandiyaya qaçan Rəsulzadə, Qərbi Avropaya, oradan da Türkiyəyə gəlir. Ömrü boyu Azərbaycan istiqlalı uğrunda mücadiləsini davam etdirir. Çox zəngin elmi-nəzəri, ədəbi irs qoymuşdur. M.Ə.Rəsulzadə ömrünün sonlarına yaxın 3 dəfə xalqımıza müraciət etmişdir.

“Əziz Azərbaycanlılar! Bütün dünyadan əlaqəniz kəsilmiş və təklənmişsiniz.Ətrafınızda sizi xarici aləmdən ayıran dəmir bir pərdə vardır.Başınız min bir bəla və fəlakətlər içindədir.Bu bəlalı və fəlakətli yaşayışı bolşevik propaqandaçıları sizə ideal bir həyat kimi qələmə verirlər. Sovetlər xaricində qalan dünyadakı həyatı fəlakətdən və səfalətdən ibarət bir həyat kimi təsvir edirlər.İnanmayınız qardaşlar! Dünyada asudə yaşayan,qorxu bilməyən azad

insanlar, aad millətlər və müstəqil dövlətlər vardır. Bu millətlərin yaşadıqları məmləkətlərdə insanın nə fikrinə,nə vicdanına, nə də imanına təsəllüd edən yoxdur.Azad insanların birliyindən ibarət olan müstəqil millətlər öz-özlərini idarə edirlər. Azadlıq və milli istiqlal prinsiplərini bundan 175 il əvvəl Amerika, 33 il əvvəl də Azərbaycan bəyannaməsi elan etmişdilər.Bütün dünyanın səadəti kimi Azərbaycanın xilası da bu əsasların tamamilə gərçəkləşməsinə bağlıdır. Təkrar edirəm-İnsanlara azadlıq, Millətlərə istiqlal!"

Ankara Universitetinin tibb fakültəsinin klinikasında şəkər xəstəliyindən yatan Məhəmməd Əmin 1955-ci il martın 6-da gecə saat on birə on dəqiqə qalmış üç dəfə "Azərbaycan, Azərbaycan, Azərbaycan!" deyərək əbədiyyətə qovuşdu. Ankara radiosu martın 7-sində saat 22:45-də sabiq Azərbaycan milli şürasının sədri M.Ə.Rəsulzadənin vəfat etdiyi xəbərini təəssüflə bütün dünyaya yaydı. Cebeci Asri Mezarlığı qəbirstanlığında M.Ə.Rəsulzadənin qəbirin üstündə, Ankara bələdiyyəsi tərəfindən, memorial ucadılmışdır. Memorialın yanında Azərbaycan Respublikasının və Türkiyə Cümhuriyyətinin bayraqları dalğalanır.

## 78. Xoyski Fətəli xan İsgəndər xan oğlu (25.11.1875, Şəki - 19.06.1920, Tiflis)

Əslən Cənubi Azərbaycanın Xoy şəhərindən olan Şəki xanı Cəfərqulu xanın nəslindən general-leytenant İsgəndər xan Xoyskinin oğludur. Xoyski Gəncə (Yelizavetpol) klassik gimnaziyasını, Moskva Universitetinin hüquq fakültəsini birinci dərəcəli diplomla bitirmişdir (1897). Həmin ildən Gəncə, Kutaisi, Zuqdidi məhkəmələrində çalışmış, titulyar müşavir rütbəsinə layiq görülmüş, Yeka-

terinodar (Krasnodar) dairə məhkəməsi prokurorunun müavini təyin edilmiş, 1907-ci ildə Gəncə quberniyasından 2-ci Dövlət dumasına deputat seçilmişdir. 1913-cü ildə Bakıya köçərək, şəhər dairə məhkəməsində andlı iclasçı olmuş, Bakının ictimai-mədəni həyatında, xeyriyyə cəmiyyətlərinin işində fəal iştirak etmişdir. Rusiyada Fevral inqilabından (1917) sonra Bakıda yaradılmış Müsəlman Milli Şurası müvəqqəti icraiyyə komitəsinin üzvü seçilən Xoyski həmin ilin aprelində Bakıda keçirilən Qafqaz müsəlmanları qurultayının təşkilatçılarından və fəal iştirakçılarından olmuşdur. 1917-ci ilin oktyabrında Bakı şəhər dumasına seçkilərdə müsəlman bloku 10 mindən çox səs almış və bu bloku təmsil edən Fətəli xan Xoyski dumanın sədri seçilmişdi. Onun rəhbərliyi ilə fəaliyyət göstərən Bakı şəhər duması həmin dövrdə bolşevik Bakı Sovetinin yeganə rəqibi idi. 1918-ci il fevralın 23-də Tiflisdə Cənubi Qafqazın qanunvericilik orqanı olan Zaqafqaziya seymi işə başladı. Seymə Cənubi Qafqazdan Ümumrusiya Müəssislər Məclisinə seçilmiş deputatlar daxil idi. Seymin Müsəlman fraksiyasına mənsub 44 deputatın arasında Xoyski də vardı. 1918-ci ilin aprelində elan olunan müstəqil Zaqafqaziya Federativ Respublikası hökumətində Xoyski xalq maarifi naziri vəzifəsini tutdu. Məhz bu vəzifədə olarkən Fətəli xan Xoyski Tiflisdə yaradılması qərarlaşdırılmış Avropa tipli universitetin Bakıda açılmasında mühüm rol oynadı. Cənubi Qafqazın müstəqilliyinin elanı və yeni hökumətin yaradılması regiona nə daxili və nə də xarici siyasət sahəsində heç bir yenilik gətirmədi. Zaqafqaziya komissarlığında, sonra isə nazirliklərində fəaliyyət göstərən hər üç Cənubi Qafqaz millətinin nümayəndələri mənafe müxtəlifliyi üzündən vahid mövqedə birləşə bilmədilər. Belə bir şəraitdə gürcü nümayəndələri Zaqafqaziya fe-

derasiyasından çıxıb öz istiqlaliyyətlərini elan etmək qərarına gəldilər. (1918, 26 may). Mayın 27-də Seymin azərbaycanlı deputatları fövqəladə iclas keçirərək, özlərini Azərbaycan Milli Şurası elan etdilər. Azərbaycanın idarəsini öz üzərinə götürən Milli Şura mayın 28-də keçmiş Qafqaz canişininin iqamətgahında keçirilən birinci iclasında, ətraflı müzakirələrdən sonra, Cənubi Qafqazın cənub-şərqində AXC-ninyaradılması və İstiqlal bəyannaməsinin qəbul olunması haqqında qərar qəbul etdi. Şuranın üzvü Xoyski yekdilliklə Azərbaycan Hökumətinin sədri seçildi və ona AXC-ninilk Hökumətini təşkil etmək tapşırıldı. Xoyski elə həmin andaca öz hökumətini tərkibini elan etdi. Bu Hökumətdə Fətəli xan baş nazir (rəisi-vüzəra) vəzifəsi ilə yanaşı, daxili işlər naziri vəzifəsini də tuturdu. Tiflisdə yeni müstəqil dövlətin yaradılmasını dünyaya bəyan etdikdən (1918, 30 may) sonra, Azərbaycan Milli Şurası və Azərbaycan Hökuməti fəaliyyətini bilavasitə öz ölkəsi ərazisində həyata keçirmək məqsədilə 1918-ci il iyunun 16-da Gəncəyə köçdü. Hökumət burada mürəkkəb daxili və xarici çətinliklərlə üzləşdi. Xoyski istefa verdi. Lakin Milli Şura Hökumətin təşkilini yenidən ona tapşırdı. Müxtəlif partiyaların nümayəndələrindən təşkil olunmuş yeni hokumətdə Xoyski baş nazir vəzifəsi ilə yanaşı, ədliyyə naziri vəzifəsini də tutdu. Xoyski bildirdi ki, Azərbaycanın azadlığı və istiqlaliyyəti uğrunda mübarizə onun Hökumətinin başlıca vəzifəsi olacaqdır.

Aprel işğalından (1920) sonra Tiflisə mühacirət etməyə məcbur olan F.x.Xoyski iyunun 19-da orada "Daşnaksutyun"un muzdlu erməni terrorçusu tərəfindən qətlə yetirildi və həmvətəni M.F.Axundzadənin dəfn olunduğu Tiflisdəki müsəlman qəbiristanlığında torpağa tapşırıldı.

Ümummilli lider Heydər Əliyevin 1995-ci il 18 dekabr tarixli sərəncamı ilə F.x.Xoyskinin anadan olmasının 120 illiyi qeyd olunmuş, Tiflisdə məzarı üzərində xatirə abidəsi ucaldılmışdır.

**79. Nəsib bəy Yusifbəy oğlu (1881, Gəncə - 31.05.1920)**

Ziyalı ailəsində doğulmuş, Gəncə klassik gimnaziyasını bitirmiş, 1902-ci ildə Odessa Universitetinin hüquq fakültəsinə daxil olmuşdur. Tələbələrin inqilabi mübarizəsindən qorxuya düşən çar hökuməti universiteti müvəqqəti olaraq bağladıqdan (1907) sonra, Nəsib bəy Bağçasaray şəhərinə (Krım) getmiş, burada İsmayıl bəy Qaspralının nəşr etdiyi "Tərcüman" qəzetində əməkdaşlıq etmişdir. Qaspralının qızı Şəfiqə Soltan xanımla evlənərək, bir müddət orada yaşamışdır. Krım tatarlarının ədəbi-mədəni həyatında fəal iştirak etmiş, Ə.Haqverdiyevin teatr həvəskarları tərəfindən tamaşaya qoyulmuş "Dağılan tifaq" dramında Nəcəf bəy rolunu oynamışdır. Ehtiyac üzündən təhsilini başa çatdıra bilməyən Nəsib bəy çar xəfıyyələrinin təqibindən yaxa qurtarmaq üçün 1908-ci ildə Türkiyəyə mühacirət etmişdir. 1909-cu ildə Gəncəyə qayıdaraq, şəhər bələdiyyəsində çalışan və tez-tez Bakıya gələn Yusifbəyli burada "Açıq söz" qəzeti redaksiyasında onun redaktoru M.Ə.Rəsulzadə ilə tanış olmuşdur. Fevral inqilabından (1917) dərhal sonra Yusifbəyli Gəncədə Türk Ədəmi-Mərkəziyyət Partiyasını yaratmış (1917, mart), 1917 ilin aprelində Bakıda keçirilən Qafqaz və həmin ilin mayında Moskvada keçirilən Rusiya müsəlmanları qurultaylarında iştirak etmişdir. 1917-ci ilin iyununda Türk Ədəmi-Mərkəziyyət partiyası M.Ə.Rəsulzadənin rəhbərlik etdiyi "Müsa-

vat" partiyası ilə birləşmiş, yeni partiya "Türk Ədəmi-Mərkəziyyət firqəsi Müsavat" adlanmışdır. Yusifbəyli bu partiyamn oktyabrın 26-31-də Bakıda keçirilən və Azərbaycanın siyasi həyatında böyük hadisəyə çevrilən 1-ci qurultayının hazırlanmasında və keçirilməsində fəal iştirak etmiş, partiya proqramının müəlliflərindən biri olmuş, onun mərkəzi komitəsinin üzvü seçilmiş, Gəncə şöbəsinə rəhbərlik etmişdir. Rusiya Müəssislər məclisinə nümayəndə seçilən, lakin Oktyabr çevrilişi (1917) baş verdiyi üçün Petroqrada gedə bilməyən Yusifbəyli Zaqafqaziya seyminin yaradılmasında fəal iştirak etmiş, 1918-ci il aprelin 22-də elan olunan Zaqafqaziya Demokratik Federativ Respublikası hökumətində maarif naziri vəzifəsini tutmuş, milli siyasətin ən çətin və ən məsul vəzifələrini icra etmişdir. "Azərbaycan ideyasını siyasi bir tələb maddəsi şəklində formula etmək şərəfi mərhum Nəsib bəyindir". (M.Ə.Rəsulzadə)

AXC qurulduqdan sonra F.x.Xoyskinin təşkil etdiyi 1-ci hökumət kabinəsində Yusifbəyli maliyyə və xalq maarifi naziri vəzifəsini, Xoyskinin 2-ci və 3-cü hökumət kabinələrində də xalq maarifı və dini etiqad naziri vəzifələrini tutmuşdur. 1919-cu ildə 4-cü hökumət kabinetinin təşkili Yusifbəyliyə tapşırıldı və aprelin 14-də elan olunan tərkibdə o, baş nazir vəzifəsindən əlavə, daxili işlər naziri vəzifəsini də tutdu. Parlamentdə daxili və xarici siyasət haqqında hökumət proqramı ilə çıxış edən N.Yusifbəyli bildirmişdi ki, hökumətin xarici siyasət sahəsində başlıca məqsəd və vəzifəsi böyük dövlətlərin Azərbaycanın istiqlaliyyətini tanımasına nail olmaq, ölkənin ərazi bütövlüyünü qoruyub sax-lamaq, daxili siyasət sahəsində isə iqtisadiyyatı dirçəltmək. əhalinin sosial rifahını yaxşılaşdırmaq, demokratik azadlıqları, o cümlədən söz, mətbuat, yığıncaq

və s. azadlıqları təmin ctməkdir. Yusifbəylinin 1919-cu ilin dekabrında özünün təşkil etdiyi ikinci hökumət kabinəsi 1920-ci ilin martına kimi fəaliyyət göstərdi. Yusifbəylinin baş nazir olduğu dövrdə Azərbaycan xalqının tarixində ən mühüm hadisə 1920-ci il yanvarın 11 -də Azərbaycanın istiqlaliyyətinin böyük dövlətlər tərəfindən defakto tanınması oldu. Bu münasibətlə yanvarın 14-də Yusifbəyli Azərbaycan xalqına müraciət etdi. Müraciətdə deyilirdi: "Azərbaycanın müstəqilliyi Böyük Avropa millətlərinin Ali Şurası tərəfindən yekdilliklə tanınmışdır. Azərbaycanın Qərb xalqları ailəsinin tamhüquqlu üzvlüyünə daxil olması onun tarixində ən işıqlı gündür. Bu gündən onun mənəvi qüvvələrinin yeni çiçəklənmə dövrü başlanır. Hökumət inanır ki, bütün vətəndaşlar yenidən hər hansı bir maneə və təhlükə yaranarsa belə, azad və müstəqil Vətənin xoşbəxtliyini təmin etmək üçün birləşəcəklər. Yaşasın müstəqil Azərbaycan xalqı!" Bakı Dövlət Universitetinin yaradılması, 100 nəfərə yaxın azərbaycanlı gəncin Avropanın müxtəlif ali məktəblərinə göndərilməsi, torpaq islahatları haqqında qanun layihəsinin hazırlanması, savadsızlıqla mübarizə kurslarının açılması, məktəb dərsliklərinin hazırlanması və nəşrinə başlanılması da Yusifbəyli hökuməti dövrünün mühüm hadisələri sırasındadır. Yusifbəyli hökumətinin qəbul etdiyi son qərarlardan biri hərbi ordenlərin, milli himnin, dövlət gerbi və möhürü layihələrinin hazırlanması haqqında 1920-ci il 30 yanvar tarixli qərar idi. Yusifbəylinin başçılıq etdiyi 2-ci hökumət 1920-ci il martın 30-da istefa verməyə məcbur oldu. Məmməd Həsən Hacınskinin yeni hökumət (6-cı kabinə) təşkil etmək cəhdi uğursuzluqla nəticələndi. Aprelin sonlarında sovet Rusiyasının beynəlxalq hüquq normalarını kobudcasına tapdalayan hərbi müdaxiləsi və 11-ci Qırmızı ordu

hissələrinin qanlı döyüş əməliyyatları nəticəsində Paris Sülh Konfransının (1919-20) iştirakçısı olan dövlətlər tərəfindən tanınmış müstəqil Azərbaycan dövləti – AXC aradan qaldırıldı və onun ərazisi işğal olundu. Bakının 11-ci Qırmızı ordu tərəfindən işğalından sonra təqibdən yaxa qurtarmaq məqsədilə şəhəri tərk edən Yusifbəyli yolda faciəli surətdə qətlə yetirildi.

### 80. Topçubaşov Əlimərdanbəy Ələkbər bəy oğlu (04.05.1863, Tiflis - 05.11.1934, Paris, Sen-Deni)

Rusiyanm müsəlman-türk xalqlarının milli azadlıq hərəkatımn liderlərindən biri olan Ə.Topçubaşov Birinci Tiflis gimnaziyasını (1884) və Peterburq Universitetinin hüquq fakültəsini (1888) fərqlənmə diplomu ilə bitirmişdir. Təhsilini başa vurduqdan sonra bir neçə il Rusiyada işləmiş, 1894-cü ildə Bakıya gələrək, hüquq-mühafızə orqanlarında çalışmış, sonralar müstəqil vəkil kimi fəaliyyət göstərmişdir. Hüquq elmlərinə dərindən bələd olan, Azərbaycan və rus dillərindən əlavə fars, fransız, ingilis və gürcü dillərini də mükəmməl bilən Topçubaşov tezliklə Hacı Zeynalabdin Tağıyevin diqqətini cəlb etmiş və 1897-ci ildə "Kaspi" qəzetinin redaktorluğu ona tapşırılmışdı. Bakının ictimai-siyasi həyatında fəal iştirak edən Topçubaşov Bakı şəhər Dumasının üzvü seçilmi, bir müddət onun sədri olmuşdur. Birinci rus inqilabı (1905-07) Rusiyada yaşayan türk-müsəlman xalqlarının milli şüununun oyanmasında mühüm rol oynadı. Bu dövrdə müsəlman xalqlarının azadlıq mübarizəsinin təşkilində, Rusiya müsəlmanlarının təşkilatlanmasında Ə.Topçubaşovun əvəzsiz xidmətləri olmuşdur. Rusiya müsəlmanlarının digər görkəmli şəxsiyyəti, Baxçasarayda (Krım) çıxan "Tərcüman"

qəzetinin naşiri və redaktoru İsmayıl bəy Qaspralı 1908-ci il aprelin 11-də Topçubaşova yazdığı məktubda onun fəaliyyətini yüksək qiymətləndirmişdir: "Əzizim Mərdan! Hər şeydən əvvəl, sən Peterburqda qalmalısan... kütbeyinlər və yaramazlar istisna olmaqla, sağlam düşüncəli bütün insanlar sənin Peterburqda olmağının əhəmiyyətini anlayır. Ona görə də sən orada qalmalı və yaşamalısan. Sonra hər hansı hadisə baş versə belə səni, sənin biliyini, təcrübəni və ürəyini xalqdan heç kim məhrum edə bilməz və bunu sən bilməlisən ki, sən xalqa daha çox lazımsan". Lakin 1905-07 illər inqilabının məğlubiyyətindən sonra irticanın yenidən baş qaldırması nəticəsində Ə.Topçubaşov 1910-cu ildə Moskvanı tərk edərək, Bakıya dönməli olmuşdur. Topçubaşov 1914-cü ildə Bakıda 45 nəfərdən ibarət "Məşvərət məclisi" təşkil etmiş, müsəlmanların "Tələblər paketi"ni hazırlayaraq, çar hakimiyyəti orqanlarına göndərmişdir. O, 1916-cı ildə Tiflisdə toplanan Qafqaz millətləri yığıncağında Azərbaycanı təmsil etmişdir. Rusiya Dövlət Şurasının müşavirəsində (1917, 12-15 avqust, Moskva) Topçubaşov Rusiya müsəlmanlarının 8 demokratik təşkilatı adından geniş nitq söyləmiş, Rusiyada "dövlət quruluşunun əsasına müsəlman xalqlarının öz müqəddəratlarını təyini şüarının qoyulduğunu" da bəyan etmişdir. 1917-ci ilin sonuna kimi Müsəlman Milli Komitəsinə sədrlik etmiş, həmin il Rusiya Müəssislər Məclisinə nümayəndə seçilmişdir. AXCelan olunduqdan sonra, Topçubaşov yeni yaranmış müstəqil milli dövlətin dünyada tanıdılmasında əvəzsiz xidmətlər göstərmişdir. Fətəli xan Xoyskinin 1918-ci il iyunun 17-də Gəncədə təşkil etdiyi 2-ci hökumət kabinəsi tərkibində əvvəlcə portfelsiz nazir, avqustun 20-dən xarici işlər naziri olmuş, avqustun 23-də isə AXC-nin fövqəladə elçisi və səlahiyyətli naziri kimi İstanbula və Parisə göndə-

rilmişdi. 1918-ci il dekabrın 7-də öz işinə başlayan AXC Parlamenti elə ilk iclasında M.Ə.Rəsulzadənin təklifi ilə bu zaman İstanbulda olan Topçubaşovu, qiyabi olaraq, Parlamentin sədri seçmişdir.

Topçubaşov 1934-cü ildə, ölümündən bir qədər əvvəl, Azərbaycan Milli Mərkəzinin divan üzvü kimi, M.Ə.Rəsulzadə ilə birlikdə Gürcüstan və Şimali Qafqaz xalqları təmsilçilərinin iştirakı ilə Brüsseldə "Qafqaz Konfederasiyası bəyannaməsi"ni imzalamışdı. Həyatını təkcə öz xalqının deyil, həm də bütün Rusiyanın türk-müsəlmanlarının istiqlalı uğrunda mübarizəyə həsr etmiş Topçubaşov xaricdəki digər siyasi mühacirlərlə birlikdə Azərbaycanın müstəqilliyinin bərpa olunması yolunda fəaliyyətini ömrünün sonuna qədər davam etdirmişdir. Bir sıra əsərləri, ideyaları bu gün də öz əhəmiyyətini saxlayır.

### 81. Ağayev Həsən bəy Məşədi Hüseyn oğlu (1875, Gəncə - 19.07.1920, Tiflis)

Orta təhsilini Gəncədəki klassik gimnaziyada almışdı. Hacı Zeynalabdin Tağıyevin maddi köməkliyi ilə Moskva Universitetinin tibb fakültəsinə daxil olmuş və 1901-ci ildə oranı müvəffəqiyyətlə bitirmişdir. Həsən bəy Gəncədə həkimlik fəaliyyəti ilə yanaşı, qəzet ve jurnallarda meqalələr də dərc etdirmişdi.”Hümmət" təşkilatının tapşırığı ilə Azərbaycan dilinə tərcümə etdiyi "Silk, sinif, firqə" kitabçası Tiflisdə Cəlil Məmmədquluzadənin "Qeyrət" mətbəəsində çap olunmuşdur (1906). Həmin kitabçanın nəşrinə görə təqiblərə məruz qalan Ağayev İrana mühacirət edərək, bir müddət orada yaşamışdır. Mühacirətdən qayıtdıqdan sonra Gəncədə rus dilində çıxan "Yujnıy Kavkaz" qəzetinin redaktoru, müsəlmanlar arasında maarifçiliyi ya-

yan cəmiyyətin rəhbəri olmuşdur. 1914 ilin sonlarında Xudadat bəy Rəfibəyli ilə birlikdə Gəncədə ilk səhiyyə cəmiyyəti yaratmışdır. Nəsib bəy Yusifbəylinin rəhbərliyi ilə Gəncədə yaradılmış "Türk Ədəmi-Mərkəziyyət Partiyası"nın yaradıcılarından biri də Həsən bəy idi. Zaqafqaziya seymində Müsəlman fraksiyasının üzvü olmuşdu. AXC elan edilərkən o, Məhəmməd Əmin Rəsulzadə Milli Şuranın sədri, Həsən bəy Ağayev isə onun müavini seçilmişdilər. Azərbaycan Milli Şurasının 1918-ci il mayın 28-də Həsən bəy Ağayevin sədrliyi ilə Tiflisdə Qafqaz canişininin keçmiş sarayında keçirilmiş təntənəli iclasında Azərbaycanın müstəqilliyi haqqında İstiqlal bəyannaməsini ilk olaraq Həsən bəy Ağayev imzalamışdır. AXC Parlamentinin ilk iclasında Həsən bəy Parlament sədrinin birinci müavini seçilmişdir. Parlamentin sədri seçilmiş Əlimərdan bəy Topçubaşov Bakıda olmadığından ona rəhbərliyi Həsən bəy həyata keçirmişdir. O, 1919-cu ilin dekabrında yenidən Parlament sədrinin birinci müavini seçilmiş və 1920-ci il fevralın 2-nə qədər ona rəhbərlik etmişdir. Həsən bəyin bilavasitə təşəbbüsü və fəal iştirakı ilə Parlament bir sıra mühüm qanunvericilik aktları qəbul etmişdir. Azərbaycan Parlamentinə rəhbərliyi zamanı Həsən bəyin yüksək təşkilatçılıq qabiliyyəti, dərin biliyi, insanlarla həssas münasibəti təkcə Parlament daxilində deyil, sadə xalq arasında da ona böyük hörmət və nüfuz qazandırmışdı. Vəzifəsindən istefa verərkən, mühüm xidmətləri nəzərə alınaraq, bütün Parlament üzvlərinin imzası ilə ona təşəkkür elan edilmişdir. Aprel işğalından (1920) sonra Tiflisə mühacirət edən Həsən bəy Ağayev həmin il iyulun 19-da muzdlu erməni terrorçusu tərəfindən qətlə yetirilmişdir. Tiflisin müsəlman qəbiristanlığında dəfn olunmuşdur.

**82. Cəfərov (Cəfərzadə) Məmməd Yusif Hacıbaba oğlu (14.03.1885, Bakı - 15.05.1938, Bakı, Şağan k.)**

AXC-nin banilərindən biri, Parlamentin sədr müavini olmuşdur (02.02.1920 - 27.04.1920). Bakı kişi gimnaziyasını (1907) və Moskva Dövlət Universitetinin hüquq fakültəsini (1912) fərqlənmə diplomu ilə bitirmişdir. Ali təhsilini başa vurandan sonra Bakıya qayıdaraq, məhkəmədə andlı hakim köməkçisi vəzifəsində çalışmışdır. Hüquqşünas kimi şəhər əhalisinin hörmətini qazanan 27 yaşlı Məmməd Yusif 4-cü Dövlət dumasına deputat seçilmişdir. O, 4-cü Dövlət dumasında Cənubi Qafqazdan yeganə müsəlman deputat idi. M.Cəfərov 1912-17-ci illərdə Sankt-Peterburqda fəaliyyət göstərən 4-cü Dövlət dumasının 5-ci bölməsinin, Müsəlman fraksiyasının, büdcə, köçürmə, sorğu, məhkəmə islahatı, hərbi və dəniz işləri üzrə komissiyalarının üzvü seçilmişdi. Dövlət dumasının üzvlərindən yaradılan Xüsusi Zaqafqaziya Komitəsində ona sənaye və ticarət işlərinə rəhbərlik tapşırılmışdı. M. Cəfərov Fevral inqilabı nəticəsində əldə olunmuş azadlığı müdafıə etmək, qoruyub saxlamaq üçün bütün səyləri birləşdirməyə çağırırdı: “Bu azadlığı əlinizdən verməyin onu əlinizdə möhkəm saxlayın, iç işləri barədə isə sonra danışarıq”. Çarizmin devrilməsi ərəfəsində fəaliyyət göstərmiş 4-cü Duma tribunasından istifadə edən M.Cəfərov öz səsini müxalifətin səsinə qoşaraq "mərkəzləşdirilmiş bürokratik mexanizmin Rusiyanın özgə xalqlarının milli hisslərini" təhqir etdiyini tam açıqlığı ilə bildirmişdi. M.Cəfərov 1917 il aprelin 15-20-də Qafqaz müsəlmanlarının Bakıda keçirilən qurultayında çıxış etmiş, müsəlmanları birliyə çağırmışdır. Həmin il noyabrın 15-də Tiflisdə yaradılan Zaqafqaziya Komissarlığında M.Cəfərov ticarət və sənaye komissarı

vəzifəsini tutmuşdu. M.Cəfərov 1918-ci il fevralın 23-dən Tiflisdə işə başlayan Zaqafqaziya seyminin Müsəlman fraksiyasının üzvü, bu fraksiyanın ümumi rəyasət heyətinin sədr müavini idi. M.Cəfərov Azərbaycan Milli Şurasının 1918-ci il mayın 28–dəki iclasında qəbul etdiyi İstiqlal bəyannaməsini imzayanlardan biri olmuşdur. Həmin iclasda Xoyskinin təşkil etdiyi ilk Azərbaycan Hökumətinin tərkibində M.Cəfərov ticarət və sənaye naziri vəzifəsini tutmuşdur. Həmin il iyunun 17-də bu Hökumət istefa verdikdən sonra, M.Cəfərov Azərbaycan Xalq Cümhuriyyətinin Gürcüstan Respublikasında diplomatik numayəndəsi olmuşdur (1918 il iyunun axırlarından 1919 il martın ortalarına kimi). 1919-cu il martın 14-də Nəsib bəy Yusifbəylinin təşkil etdiyi 4–cü hökumətdə M.Cəfərov xarici işlər naziri vəzifəsini tutmuş, bu vəzifədə 1919-cu il dekabrın 22-ə qədər çalışmışdır. 1920-cu il fevralın 2-də Məhəmməd Əmin Rəsulzadənin təklifi ilə Azərbaycan Parlamenti sədrinin birinci müavini seçilmiş və Cümhuriyyətin süqutunadək bu vəzifədə çalışmışdır. M.Cəfərov 1920 il aprelin 27-də Parlamentin son iclasında gərgin müzakirələrdən sonra hakimiyyətin Azərbaycan Müvəqqəti İnqilab Komitəsinə verilməsi haqqında qərarı imzalamışdır. Cümhuriyyətin süqutundan sonra Azərbaycanın pambıqçılıq və şərabçıhq trestlərində hüquq məsləhətçisi vəzizifəsində çalışmışdır.

## 83. AXC Parlamentinin 11 fraksiyası və üzvləri (1918-1920-ci illər)

I. "Müsavat" və bitərəflər fraksiyası

1. Məhəmməd Əmin Rəsulzadə. 2. Həsən bəy Ağayev. 3. Nəsib bəy Yusifbəyli (Yusifbəyov). 4. Xəlil bəy Xas-məmmədov. 5.Məmməd Həsən Hacınski. 6. Abbas-

qulu Kazımzadə. 7. Musa bəy Rəfizadə (Rəfiyev). 8. Şəfi bəy Rüstəmbəyli (Rüstəmbəyov). 9. Cavad bəy Məlik-Yeqanov. 10. Mehdi bəy Hacınski. 11. Mehdi bəy Hacıbabəyov. 12. Rəhim bəy Vəkilov. 13. Hacı Səlim Axundzadə. 14. Mustafa Mahmudov. 15. Asəfbəy Şıxəlibəyov. 16. Əhməd Həmdi Qaraağazadə. 17. Abuzər bəy Rzayev. 18. Ağa Əminov. 19. Nəriman bəy Nərimanbəyli (Nərimanbəyov). 20. Mirzə Sadıx Axundzadə. 21. Müseyib bəy Axıcanov. 22. Mustafa bəy Vəkilov. 23. Məmməd Bağır Şıxzamanov. 24. Məmmədəli Rəsulzadə. 25. Murtuza Axundov. 26. Rza bəy Ağabəyov. 27. Məmmədrza Vəkilov. 28. Cəlil bəy Sultanov. 29. Əşrəf Tağıyev. 30. Məmməd Yusif Cəfərov. 31. Mirzə Əsədullayev. 32. Yusif Əhmədzadə (Əhmədov). 33. Baxış bəy Rüstəmbəyov. 34. Fətəlixan Xoyski. 35. Ağa bəy Səfərəliyev. 36. Əsədulla Əhmədov. 37. Ağa Aşurov. 38. Qulamhüseyn bəy Kazımbəyov. 39. Yusifəli Əliyev. 40. Mir Hidayət Seyidov.

II. “İttihad”fraksiyası

1.Qara bəy Qarabəyli (Qarabəyov). 2. Mir Yaqub Mehdi-yev. 3. Qazi Əhməd bəy Məhəmmədbəyov. 4. Cəmil bəy Ləmbəranski. 5. Bəhram bəy Vəzirov. 6. Sultanməcid Qənizadə (Qəniyev). 7. Həmdulla əfəndi Əfəndizadə. 8. Zeynal bəy Vəzirov. 9. Heybətqulu bəy Məmmədbəyli (Məmmədbəyov). 10. Əli bəy Zizikski. 11. Qara bəy Əliverdilər. 12. Əsəd bəy Əmirov. 13. İsgəndər bəy Axundov. 14. Ağa bəy Səfərəliyev .

III. "Əhrar" fraksiyası

1. Aslan bəy Qardaşov. 2. Hacı Molla Əhməd Nuruzadə. 3. Muxtar əfəndi Əfəndizadə. 4. Qərib Kərimoğlu. 5. Bayram Niyazi Kiçikxanlı (Kiçikxanov). 6. Hacı

Hüseyn Əfəndiyev. 7. Qasımoğlu Hacı Əli. 8. Abdulla əfəndi Qabulov.

IV. Sosialistlər fraksiyası

1. Səməd ağa Ağamalıoğlu (Ağamalov). 2. Əliheydər Qarayev. 3. Qasım bəy Camalbəyov. 4. Hacı Kərim Sanılı (Sanıyev)5. Əhməd bəy Pepinov. 6. Camo bəy Hacınski. 7. Rza bəy Qaraşarlı (Qaraşarov). 8. Aslan bəy Səfikürdlü (Səfi-kürdski). 9. İbrahim Əbilzadə (Əbilov). 10. Bağır Rzayev. 11. Vladislav Bakradze. 12. Əkbər ağa Şeyxülislamzadə (Şeyxülislamov). 13. İbrahim İsmayılzadə. 14. Abbas bəy Atamalıbəyov.

V. Bitərəflər fraksiyası

1.Bəhram bəy Axundov. 2. Behbud xan Cavanşir. 3. Əbdüləli bəy Əmircanov. 4 Əhməd bəy Ağayev.

VI. Müstəqillər fraksiyası

1. Əlimərdan bəy Topçubaşov. 2. Səməd bəy Mehmandarov. 3. Xudadat bəy Məlik-Aslanov. 4. Baba bəy Qəbul-zadə (Qəbulov).

VII. Sol müstəqillər fraksiyası

1. Abdulla bəy Əfəndizadə (Əfəndiyev)

VIII. "Slavyan-rus cəmiyyəti" fraksiyası

1. Viktor Klenevski. 2. Vasili Kravçenko. 3. Sergey Remizov. 4. M.N.Vinoqradov. 5. Fyodor Kotilevski.

IX. Milli azlıqlar fraksiyası

1. Lorens Kun. 2. Moisey Quxman. 3. Vasil Kujim. 4. Stanislav Vonsoviç. 5. Dubrovski. 6. Ollonqren V.K. 7. Mixaylov S.M.

X. Erməni fraksiyası

1. Arşak Paronyan. 2. Yervan Taqionosov. 3. İsak Xocayev. 4. Stepan Taqionosov. 5. Georgi Şahnazarov.

XI. "DaÇnaksutyun" fraksiyası

1. Arşak Malxazyan. 2. Xoren Amaspür. 3. Poqos Çubaryan. 4. Abqar Papyan. 5. Aleksandr Ter-Azaryan. 6. Boq-dan Balayans. 7. Papyan İ.

**84. Araz Türk Cümhuriyyəti, Türk Araz Cümhuriyyəti, Araz Cümhuriyyəti**

Azərbaycanın Naxçıvan bölgəsində və onun çevrəsindəki ərazilərdə yaradılmış dövlət qurumu. 1918-ci ilin noyabrından 1919-cu ilin martınadək fəaliyyət göstərmiş Araz Türk Cümhuriyyəti Naxçıvan, Şərur-Dərələyəz və Ordubad mahallarını, habelə Sərdarabad, Uluxanlı, Vedibasar, Qəmərli, Mehri və b. Azərbaycan torpaqlarını əhatə etmişdir. Mərkəzi Naxçıvan şəhəri idi. Araz Türk Cümhuriyyətində də siyasi durumun mürəkkəbliyinə görə geniş fəaliyyət göstərə bilməyən bir sıra dövlət strukturları-hakimiyyət orqanları mövcud olmuşdur. Onun parlamenti bölgədəki müsəlman milli şuralarının üzvlərindən ibarət idi. Araz Türk Cümhuriyyəti hökumətinə -Nazirlər Şurasına Əmir bəy Əkbərzadə başçılıq edirdi. Hökumətin tərkibinə isə İbrahim bəy Cahangirzadə - hərbi nazir; Əli bəy Qəmbər Bənyari - inzibati-ərazi işləri üzrə nazir; Həsən ağa Səfazadə - xarici işlər naziri; Məmməd Bəyzadə - ədliyyə naziri; Mirzə Hüseyn Mirzə Həsənzadə və Müfti Xoca Ekit Əfəndi daxil idilər. General Əli Əşrəf bəy hökumətə yardımçı olaraq seçilmişdi. Bu Cümhuriyyətin meydana gəlməsi bölgədə ağır tarixi-siyasi şəraitlə

sıx bağlı olmuşdur. Osmanlı ordu hissələrinin bölgəni tərk etmələri və mahalın türk-müsəlman əhalisinin erməni-daşnakların təcavüzü, soyqırımı siyasəti ilə üzüzə qalması, burada güclü dövlət qurumunun və nizami hərbi qüvvələrin təşkilinə ciddi ehtiyac yaratmışdı. Belə bir ağır şəraitdə bölgənin türk-müsəlman əhalisinin başbilənləri və öndə gedənləri məhəlli siyasi-dövlət qurumu yaratmaq qənaətinə gəldilər. Onların bu qənaəti, əsasən, aşağıdakı səbəblərlə izah olunurdu: birincisi, erməni-daşnakların bölgəyə dair əsassız ərazi iddialarını gerçəkləşdirmələrinə, burada öz hakimiyyətlərini yaratmalarına, yerli türk-müsəlman əhalisinin soyqırımına imkan verməmək, ikincisi, həmin dövrdə Qafqazda gedən proseslər və baş verən hadisələrlə əlaqədar Azərbaycandan müvəqqəti olaraq ayrı düşən Naxçıvan mahalının tezliklə Azərbaycan Xalq Cümhuriyyətinə qatılmasına nail olmaq. Bu Cümhuriyyət Şimali Azərbaycan üçün çox ağır və gərgin bir dövrdə Naxçıvan bölgəsi və çevrəsinin türk-müsəlman əhalisinin erməni işğalçılarına qarşı mübarizəyə səfərbərliyə alınmasında mühüm rol oynadı. Ən başlıcası isə, bu ərazilərin ermənilərə verilməsinin qarşısı alınmış oldu.

## 85. Atatürk və Naxçıvan

Dahi siyasətçi Türkiyənin Naxçıvan məsələsi ilə bağlı xarici siyasət xəttini Gümrü müqaviləsindən sonra da davam etdirdi. 1921-ci ilin fevralında RSFSR ilə diplomatik danışıqlar aparmaq üçün xarici işlər naziri Yusif Kamalın başçılığı ilə Moskvaya yola düşən Türkiyə diplomatlarına Atatürk ciddi surətdə tapşırmışdı: "Naxçıvan - türk qapısıdır. Bıınu xüsusi nəzərə alaraq, əlinizdən gələni ediniz". Martın 16-da iki dövlət arasında imzalanmış "dostluq və

qardaşlıq" müqaviləsinə əsasən Naxçıvan vilayəti muxtar ərazi kimi Azərbaycanm himayəsi altına keçdi. Muxtar ərazinin sərhədləri müəyyən edildi və şərt qoyuldu ki, Azərbaycan Naxçıvana olan himayə hüququnu heç bir üçüncü dövlətə güzəştə gedə bilməz. Moskvada aparılan danışıqların uğurla nəticələnməsində Nəriman Nərimanovun tapşırığı ilə hərəkət edən Behbud ağa Şahtaxtinski (Azərbaycan Sovet Sosialist Rcspublikasının Rusiya Sovet Sosialist Respublikasında fövqəladə nümayəndəsi) mühüm rol oynadı. Moskva müqaviləsində Naxçıvan barədə əldə olunmuş razılığı 1921 il oktyabrın 13-də Azərbaycan, Ermənistan və Gürcüstan sovet sosialist respublikaları ilə Türkiyə arasında RSFSR-in iştirakı ilə bağlanmış Qars müqaviləsi də təsdiq etdi. Naxçıvan, qəti olaraq, Azərbaycanın himayəsi altında muxtar əraziyə çevrildi. Atatürk, həmçinin Azərbaycan SSR-in Türkiyədəki səfiri İbrahim Əbilovu Ankarada qəbul edərkən Azərbaycanın öz milli hüdudları daxilində, o cümlədən Naxçıvan mahalında azad və müstəqil yaşaması üçün Türkiyənin bütün tədbirləri görəcəyi barədə bir daha, təminat vermişdi. Atatürkün ardıcıl və ciddi səyləri sayəsində Türkiyənin Naxçıvan məsələsində yeritdiyi prinsipial xarici siyasət xətti və bunun nəticəsi olan Moskva və Qars müqavilələri istər sovet dövründə, istərsə də ondan sonra bu qədim Azərbaycan torpağının məhz Azərbaycanın tərkibində qalması üçün mühüm beynəlxalq hüquqi təminat rolu oynamışdır. Həmin müqavilələr bu gün də öz əhəmiyyətini saxlamaqdadır. 20 yüzilliyin 90-cı illərində ağır blokada şəraitinə düşmüş Naxçıvan üçün yeni təcavüz təhlükəsi yarananda Azərbaycan xalqının böyük oğlu Heydər Əliyev Moskva və Qars müqavilələrinin şərtlərindən məharətlə istifadə etdi. Daşnakların Naxçıvanla bağlı yeni planları da baş tutmadı.

### 86. Azərbaycan Milli Mərkəzi (AMM)

İstanbulda sovet-bolşevik hərbi müdaxiləsi nəticəsində Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonra müxtəlif xarici ölkələrə mühacirətə getməyə məcbur olan azərbaycanlıların istiqlal mübarizəsini vahid mərkəzdən idarə etmək məqsədilə yaradılmış qurum. Məhəmməd Əmin Rəsulzadə tərəfindən 1924 ildə İstanbulda yaradılmışdır. Milli Mərkəzin əsas məqsədi Şimali Azərbaycanda sovet hakimiyyətinin devrilməsi və müstəqil milli dövlətin bərpa edilməsi idi. AMM Türkiyədə gizli fəaliyyət göstərərək, türkçü ziyalıları öz ətrafında birləşdirirdi. Təşkilatın Mərkəzi Komitəsinə Məhəmməd Əmin Rəsulzadə (sədr), Xəlil bəy Xasməmmədov, Mustafa bəy Vəkilov, Əbdüləli Əmircanov, Əkbər ağa Şeyxülislamov daxil idilər. AMM təşkilatlanmaqla yanaşı, Şimali Azərbaycanda cərəyan edən hadisələri dünya ictimaiyyətinə çatdırmaq məqsədilə nəşriyyat fəaliyyəti də göstərirdi. Türkiyə hökuməti SSRİ-nin tələbi ilə 1927 ildə AMM-ə yardımı dayandırdı. Otuzuncu illərin əvvəlində AMM daxilindəki fikir ayrılıqları və ixtilaflar dərinləşdi. AMM-in İstanbuldan Parisə, yaxud Varşavaya köçürülməsi məsələsi də fikir ayrılığı doğururdu. AMM Azərbaycandakı gizli "Müsavat" təşkilatı ilə əlaqə yaradaraq ona təlimatlar göndərir, təşkilatın sovet hakimiyyətinə qarşı mübarizəsini istiqamətləndirirdi. AMM-in nümayəndəliyi 1951 il noyabrın 30-da Münxendə Şərqi Avropa, Qafqaz və Türküstan mühacirlərinin toplantısında iştirak etmiş, 1952 il dekabrın 11-15-də orada Gürcüstan, Şimali Qafqaz milli mərkəzləri ilə birlikdə konfrans keçirmişdi. Konfransın qəbul etdiyi Qafqaz Xalqları Bəyannaməsini Azərbaycan tərəfindən Məhəmməd Əmin Rəsulzadə imzalamışdı. Konfrans keçmiş Qaf-

qaz respublikalarının müstəqilliyini bərpa etmək uğrunda mübarizəni genişləndirmək məqsədilə müvafiq milli mərkəzlərin birgə fəaliyyətini təşkil etməyi zəruri saydı. Türkiyədəki mühacirlər arasında siyasi fəallığın artması ilə əlaqədar olaraq Məhəmməd Əmin Rəsulzadə 1953 ildə AMM-i yenidən təşkil etmiş və 25 nəfərdən ibarət genişləndirilmiş bir mərkəz formalaşdırılmışdı. Mərkəzin işinə, əsasən, gənclər cəlb edilirdilər. Məhəmməd Əmin Rəsulzadənin vəfatından (1955) sonra AMM-ə Mirzəbala Məmmədzadə, o, dünyasını dəyi-şəndən sonra isə "müsavaflçı Əbdülvahab Yurdsevər rəhbərlik etmişdir. 1976 ildə Əbdülvahab Yurdsevərin vəfatı ilə AMM sədrliyinə Kərim Odər seçildi. O, həm də "Müsavat" partiyasmın başqam idi. Kərim Odərin vəfatından sonra 1981 ildə toplanan "Müsavat" və AMM Başqanlıq Divanı dr. Məhəmməd Azər Aranı hər iki təşkilatın başqanı seçdi. Azərbaycan milli istiqlal ideyası naminə fəaliyyət göstərən AMM 1988 ildə erməni təcavüzkarlarının Azərbay-cana qarşı qəsbkarlıq siyasətinin mahiyyətini dünya ictimaiyyətinə açıqlamaq məqsədilə fəal iş aparmış, Azərbaycanla əlaqələri gücləndirməyə səy göstərmişdir. AMM Şimali Azərbaycandakı sovet-bolşevik rejiminə qarşı istiqlal ideyalarının yaşamasında və təbliğ olunmasında mühüm rol oynamışdır. AMM hazırda Türkiyədə fəaliyyətini davam etdirir.

### 87. Bakıda mart qırğını

V.Leninin Qafqaz işləri üzrə müvəqqəti fövqəladə komissar təyin etdiyi, Bakı Xalq Komissarları Sovetinin sədri S.Şaumyanın təşkilatçılığı və rəhbərliyi ilə Bakıda mart qırğınları silahlı bolşevik-daşnak dəstələri tərəfindən görünməmiş amansızlıqla həyata keçirilmişdir. Leninin

xüsusi göstərişi ilə Saritsından göndərilən 2 təyyarə havadan, hərbi gəmilər isə dənizdən şəhərin azərbaycanlılar yaşayan məhəllələrini bombalamağa başlamış, erməni neft sənayeçilərinin barjlarında qoyulmuş toplardan Abşeronun şimalındakı kəndlər də atəşə tutmuşdular. Qaçıb canını qurtarmağa çalışan əhalini güllələbaran etmək üçün şəhərin müvafiq yerlərində əvvəlcədən plemyotlar qoyulmuşdu. Bir çox müsəlman məhəllələri tamamilə məhv edildi. Martın 31-də axşamüstü İçərişəhərin alınması əməliyyatı dəhşətli qətliamlarla bitdi. Bir neçə gün ərzində 20 minədək müsəlman qətl edildi.

Azərbaycan Respublikasının Prezidenti, ümummilli lider Heydər Əliyevin "Azərbaycanlıların soyqırımı haqqında" 1998-ci il 26 mart tarixli Fərmanına əsasən, martın 31-i azərbaycanlıların soyqırımı günü elan olunmuşdur.

## 88. Zəngəzur qırğınları

1917-ci il Qafqaz təqviminin məlumatına görə, AXC-nin Zəngəzur qəzasının ərazisi 6742,92 kv.verst idi. Qəzada 224197 nəfər qeydə almmışdı. Onlardan 120 min nəfərini (53, 2%) azərbaycanlılar, 3638 nəfərini kürd müsəlmanlar (1,62%) təşkil edirdi. Çar Rusiyasımn köçürmə siyasəti nəticəsində qəza ərazisində ermənilərin sayı süni şəkildə artırılmışdı. Onlar qəza əhalisinin 44,3%-ni (99,3 min nəfer) təşkil edirdi. Fevral inqilabı (1917) nəticəsində çar hökumətinin devrilməsindən sonra Zəngəzurda məskunlaşdırılmış ermənilər azərbaycanlılara qarşı qırğınlar törətməyə, qəzada say baxımından üstünlüyə nail olmaqla bu torpaqlara yiyələnməyə cəhd etdilər. 1918-20-ci illərdə Andronik, Dro, Nijdenin rəhbərliyi ilə erməni-daşnak quldur dəstələri Zəngəzur qəzasında 115 müsəlman kəndini

talan, qarət edib yandırdılar. Həmin kəndlərdə 3257 kişi, 2776 qadın və 2196 uşaq öldürülmüş, 1060 kişi, 794 qadm və 485 uşaq yaralanmışdı.

## 89. Quba qırğınları

1918-ci ilin əvvəlində Quba qəzasında qışlaqlar da daxil olmaqla, 540 kənd var idi və bu kəndlərin 171.248 nəfər əhalisi 55 cəmiyyətdə birləşirdi. 1918-ci ilin aprel ayının sonundan may ayının ortalarınadək - cəmi iki həftə ərzində erməni qaniçən Amazaspın dəstəsi tərəfindən Quba qəzasında, erməni birləşmələrinin yalnız qarətlə kifayətləndiyi kəndlər istisna olmaqla, ən azı 167 kənd yandırılmış və talan edilmişdi. Bu zaman bir çox kəndlər iki dəfə - yol boyu Bakıdan Qubaya və ya Qusara və sonra geriyə qayıdarkən talana məruz qalmışdılar. Evlər, tikililər, ictimai binalar talan edilməklə, daşınan əmlak və mal-qara qarət olunmaqla, hələ təkcə məlum olan faktlar əsasında Amazaspın quldur dəstələri tərəfindən Quba qəzasının kənd əhalisinə on milyonlarla rubl dəyərində hesablanan zərər vurulmuşdu. Qırğınlar zamanı bu kəndlərdə min nəfərdən artıq insan, o cümlədən qadın, qoca və uşaq qətlə yetirilmiş və yaralanmışdı. Quba qırğınları zamanı şəhərdə öldürülənlərin təxmini sayının 2.000-2.900 arasında, Quba qəzası üzrə ümumilikdə isə 4.000 nəfərdən artıq olduğunu söyləməyə əsas verir. FTK-nın sənədlərinə əsasən, Quba qəzası əhalisinə ümumilikdə dəyən maddi ziyanın miqdarı 121.824.819 rubl təşkil edirdi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 30 dekabr 2009-cu il tarixli sərəncamı əsasında Heydər Əliyev Fondu tərəfindən aşkar edilmiş kütləvi məzarlığın yaxınlığında "Quba Soyqırımı memorial kompleksi" inşa edildi.

## 90. Şamaxı qırğınları

İndiki Şamaxı, Ağsu, İsmayıllı, Qobustan və Hacıqabul rayonlarının ərazilərini əhatə edən Şamaxı qəzasında 1917-ci ilin əvvəllərində, Şamaxı şəhəri də daxil olmaqla, 161552 nəfər əhali yaşayırdı. Onların 72,8 faizini müsəlmanlar, 13,8 faizini ermənilər, 12 faizini ruslar (o cümlədən, sektantlar-molokanlar), qalan əhalini isə dağ xalqlarının nümayəndələri və yəhudilər təşkil edirdi. Şamaxı şəhərinin özünün 27752 nəfər əhalisinin 21127 nəfəri müsəlman, 4534-ü erməni, 1737-si rus, 214-ü Qafqaz dağlıları, 136 nəfəri isə yəhudilərdən ibarət idi.

600 at, 8 top və 12 pulemyotla Bakıdan Şamaxıya gələn hərbi dəstə yol boyu rast gəldiyi müsəlmanları qıraraq şəhərə yaxınlaşırdı. Şamaxı erməni kəndi Mədrəsə və molokan kəndi Çobanı tərəfdən mühasirəyə alınır. Aprelin 10-da günorta saat 3-də Bakı qırğınlarında ağlasığmaz vəhşilikləri ilə məşhur olan Stepan Lalayev və Tatevos Əmirovun başçılıq etdiyi erməni və molokanlardan ibarət qoşunlar qəfildən dağıdıcı qasırğa kimi şəhərin üstündən keçirlər. İstisnasız olaraq müsəlmanlara məxsus bütün evlər, ticarət və mülki obyektlər yandırılır və dağıdılır, xarabazarlığa çevrilir. Şamaxıda qalmış müsəlman əhali – qadın, uşaq və qocalar rəhm edilmədən, ucdantutma güllələnir, doğranır və yandırılır. Erməni əsgərlər Bakıda olduğu kimi, əllərində siyahılar şəhərin tanınmış, fəal və zəngin müsəlmanlarının evlərinə hücum edərək onları xüsusi nəşə ilə qarət edib sonra yandırır, şəhərdən çıxmamış ev sahiblərini isə əvvəlcə təhqir, işgəncə və zorakılığa məruz qoyaraq xüsusi qəddarlıqla öldürürlər. Şamaxı məscidləri erməni talançılarının məqsədli hədəfi olur. Müsəlmanların təhlükə zamanı məscidlərə - Allahın evinə sığınmaq adəti-

ni yaxşı bilən şamaxılı S.Lalayevin əmri ilə erməni əsgərlər şəhərin bütün məscidlərini mühasirəyə alır, bir çox hallarda özləri şəhər sakinlərini - qadın, uşaq və qocaları məscidlərə yığır, sonra od vururlar. Məscidlərdən çıxmağa və xilas olmağa çalışanlar güllələnirlər. S.Lalayev özü bu aksiyalarda şəxsən iştirak edir. Nəticədə Şamaxının bütün 12 məhəllə məscidləri və 800 illik tarixi olan Cümə məscidi yanğın və dağıntılara məruz qalır. Bu məscidlərdə 2000-ə qədər Şamaxı sakini diri-diri yandırılır. Ümumilikdə isə Şamaxıda iki dəfə törədilmiş azərbaycanlı qırğınları zamanı şəhərin 21127 nəfər müsəlman əhalisindən 8-10 min arasında insan qətlə yetirilmişdir. Şamaxı, sonradan Bakı erməni yepiskopu olmuş Baqratın bu qətliamlarda xüsusi rolu olmuşdur. 1918-ci il Şamaxı qırğınları yalnız şəhəri deyil, qəzanın kəndlərini də əhatə etmiş və 1918-ci ilin iyul ayının ortalarınadək, bu ərazilər türk-Azərbaycan qoşunları tərəfindən azad olunana qədər davam etmişdir. Həmin dövr ərzində ümumilikdə Şamaxı qəzasının 106 kəndi yandırılmış və dağıdılmış, 110 kəndin sakinləri isə erməni-molokan quldur dəstələrinin hücumundan zərər çəkmişdi. Həlak olmuş kənd sakinlərinin – yalnız hücumlar zamanı və əsirlikdə öldürülənlərin ümumi sayı 4359 nəfəri qadın və uşaq olmaqla 10341 nəfər təşkil etmişdi. Bir neçə ay ərzində dağlarda, meşələrdə, düzənliklərdə dolaşan, həmçinin digər qəzaların şəhər və kəndlərinə dağılışmış qaçqınlar arasında soyuqdan, aclıqdan və xəstəliklərdən ölənlərin sayı isə minlərlə ölçülürdü. Şamaxı qəzasının müsəlman kəndlərinin sakinlərinə vurulan maddi ziyanın ümumi həcmi yalnız təsbit edilən zərərlər üzrə 607.167.420 rubl təşkil etmişdi. 1921-ci ildə Şamaxı şəhərinin əhalisinin 1700 nəfərdən ibarət olması bu qırğınların miqyasını aydın göstərir.

## 91. Cənubi Azərbaycanda soyqırımı (1917-1918)

Erməni və assur (aysor) silahlı birləşmələrinin Cənubi Azərbaycanda türk-müsəlman əhalisinə qarşı törətdiyi soyqırımı. Ermənilər öz məkrli niyyətlərinə çatmaq üçün rusların xristian təəssübkeşliyi ilə Cənubi Azərbaycan ərazisində yerləşdirilən assurlardan (yerli camaat onları cilo adlandırırdı) da istifadə edirdilər. Rusiya və Amerika Birləşmiş Ştatları (ABŞ) kimi iri dövlətlərin himayəsinə arxalanan erməni-assur hərbi birləşmələri öncə Urmiya şəhəri ətrafında hərbi mövqe tutaraq, yerli əhalini soyub-talayır, gündüz barışığa vəd versələr də, gecələr şəhərin ayrı-ayrı məhəllələrini yandırıb, viran qoyurdular. Onlar bu cinayətlərdə toplardan da istifadə edirdilər ki, bu da əhali arasında böyük tələfata səbəb olurdu. ABŞ-ın Urmiyadakı konsulu Şedin hiyləsi ilə tərksilah olunmuş və heç bir yerdən kömək görməyən azərbaycanlılar ailələrini başqa yerə köçürüb, döyüşə atılmaq qərarına gəldilər.Seyid Əhməd Kəsrəvinin yazdığına görə, şəhəri top atəşinə tutan ermənilər əhali arasında vahimədən istifadə edərək, şəhərə daxil olub, dinc əhaliyə divan tutur, evləri yandırır, kütləvi qətl-qarət törədirlər. 1918 il martın 17-də, axır çərşənbə günü erməni daşnakları və assurlar 500-dən çox evi odlayıb, 10 mindən çox azərbaycanlını qırmışlar. Xalq arasında "Urmi bəlvası" kimi yad olunan bu qanlı faciələr indi də xatirələrdən silinməmişdir. Urmiya, Salmas, Xoy, Maku, Dilməqan şəhərlərində və onların ətrafındakı kəndlərdə Azərbaycan türklərinin soy-qırımı davam etdiyi vaxt Osmanlı ordusu soydaşlarımızın yardımına gəldi. 1918 ilin iyununda Xoy şəhərinə çatan türk ordusu oradan Salmasa doğru hərəkət etdi. Bir neçə günlük döyüşlərdən sonra erməni ordusu darmadağın edilib, qaçmağa başladı. Lakin onlar geri

çəkilərkən belə, kəndlərə od vurur, insanları qətlə yetirir, məğlubiyyətlərinin acığını dinc əhalidən çıxırdılar. Həmin vaxt daşnak qaniçəni Andronik Xoy şəhərini ələ keçirmək və erməni-assur qoşunu ilə birləşmək üçün 8 min nəfərlik hərbi qüvvə ilə Culfa yolundan hərəkət etdi. Ermənilər Xoy şəhərini ələ keçirib, əhalini qırdıqdan sonra özləri ilə gətirdikləri 10 min erməni ailəsini burada yerləşdirmək və Azərbaycanın bu hissəsini Ermənistana birləşdirmək niyyətində idilər. 1918 il iyunun 24-də Andronikin ordusu Xoy şəhərini mühasirəyə aldı. Ermənilər Urmiyada törətdikləri vəhşilikləri burada da davam etdirdilər. Lakin şəhər sakinləri silahlı müdafiə ordusu yaradaraq, düşmənə ciddi müqavimət göstərdi. Şəhərin müdafiəsində qadınlar da iştirak edirdilər. Ermənilər şəhəri top atəşinə tutdular. Lakin bu vaxt Salmas tərəfdən Osmanlı ordusunun yaxınlaşdığını görən ermənilər məğlub olacaqlarını hiss edib, gəldikləri yolla da geri döndülər. Ermənilər yeni-yeni məkrli planlar qurur, zəif müdafiə olunan şəhər və kəndlərə basqınlar edib, yeni facielər törədirdilər. Onlar rusların Urmiya gölündəki hərbi gəmisindən də istifadə etməyi nəzərdə tuturdular. 180 nəfər yaxşı təlim görmüş erməni-assur hərbçisinin əlində olan bu gəmi vasitəsilə Şərəfxana limanına çıxmaq və oradakı gəmiləri ələ keçirmək istəyirdilər. Lakin onlar sahilə çıxarkən Osmanlı və Azərbaycan türkləri ilə döyüşdə məhv edildilər. Beləliklə, onların bu planı da baş tutmadı. Ermənilər 1917-18 illərdə Cənubi Azərbaycanın qərb bölgələrindəki onlarla şəhər və kəndləri viran qoymuş, talan etmiş, kişi, qadın, uşaq və qocalara fərq qoymadan, ümumiyyətlə, 190 minə yaxın Azərbaycan türkünü qətlə yetirmişlər.

## 92. Bakı Türk Şəhidlyi

Azərbaycanın ərazi bütövlüyü və Bakının azad olunması (1918, 15 sentyabr) uğrunda həlak olmuş Qafqaz İslam Ordusu döyüşçülərinin xatirəsinə Bakının Şəhidlər Xiyabanında ucaldılmış abidə. Tikintisinə 1999 il iyunun 24-də başlanmış, açılış mərasimi 2000 il aprelin 9-da olmuşdur. Açılış mərasimində Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev və Türkiyə Respublikasının Prezidenti Süleyman Dəmirəl iştirak etmişlər. Bakının daşnak və eser-menşeviklərin idarə etdiyi "Sentrokaspi diktaturası"ndan azad edilməsi zamanı həlak olmuş Azərbaycan və Türkiyə əsgərlərinin şərəfinə ucaldılacaq abidə kompleksinin layihəsi hələ 1918 ildə, Azərbaycan Xalq Cümhuriyyəti dövründə hazırlanmışdı. Bakının Qafqaz İslam Ordusu tərəfindən azad olunmasının ildönümü münasibətilə 1919 il sentyabrın 15-də Azərbaycan Parlamentinin xüsusi iclası keçirilmiş, millət vəkilləri Hökumət üzvləri ilə birlikdə Çənbərəkənd qəbiristanlığına (indiki Şəhidlər Xiyabanının ərazisi) gedərək, xatirə abidəsinin özülünü qoymuşdular. Lakin Aprel işğalı (1920) nəticəsində abidənin tikintisi yarımçıq qaldı.

Azərbaycanın dövlət müstəqilliyi bərpa olunduqdan sonra Azərbaycanın və Türkiyənin dövlət rəhbərlərinin qarşılıqlı razılaşması əsasında xatirə abidəsinin Şəhidlər Xiyabanında ucaldılması qərara alındı. 1918 ilin sentyabrında Bakının azad olunması uğrunda döyüşlərdə həlak olmuş türk və Azərbaycan hərbçilərinin bir çoxu da həmin ərazidəki Çənbərəkənd qəbiristanlığında dəfn edilmişdilər. Abidənin müəllifi memar Hüseyn Bütünerdir. Tikinti işləri Türkiyənin Azərbaycandakı hərbi attaşesi tuğgeneral (briqada generalı) Sadıq Ercanın rəhbərliyi ilə apa-

rılmışdır. Şəhidlər Xiyabanındakı məscidin qarşısında 854 kvadrat metrlik ərazidə ucaldılmış abidənin görünüşündə oğuz-səlcuq memarlıq elementlərindən istifadə olunmuşdur. Düzbucaqlı kompleks üç tərəfdən ağac və bəzək kolları ilə əhatələnmişdir. Daxili tərəfdən düz xətt boyunca üzərinə qızılı ulduz bərkidilmiş 1130 mərmər lövhədə Azərbaycanda həlak olmuş türk və Azərbaycan döyüşçülərinin adı həkk edilmişdir. Abidənin önünə aparan yol andezit ilə, yolun kənarları isə gülbağ daşı ilə örtülmüşdür. Kompleksin yuxarı başında ağ mərmərdən 8,25x8,25 m ölçülü kvadrat platformanın mərkəzində 7 metr hündürlüyündə abidənin qırmızı mərmərdən olan əsas hissəsi yerləşdirilmişdir. Səkkizguşə prizmanı xatırladan bu daşın eni aşağıda 2 metrdir. Daşın eni yuxarıya doğru daralır. Daşın dörd tərəfinə ay-ulduz, qarşı tərəfinə isə Azərbaycan və türk dillərində xatirə yazısı həkk olunmuşdur.

### 93. Ümummilli lider Heydər Əliyev Bakı Türk Şəhidliyi haqqında

2000-ci il aprelin 10-da Türkiyə nümayəndə heyəti ilə görüşdə demişdi: "Dünən biz burada 1918-ci ildə şəhid olmuş türk əsgərlərinin abidəsini açdıq. Onlar keçmişdə elə orada torpağa veriliblər. Bu da böyük bir hadisədir. Yəni bu, Azərbaycan-Türkiyə əlaqələrinin qədimliyini göstərir və Türkiyənin vaxtilə Azərbaycanı erməni qırğınından xilas etməsini xatırladır. Ümumiyyətlə, 1918-ci ildə Azərbaycanı dağıdırdılar, parçalayırdılar. Əgər bu olmasaydı, Azərbaycan ayaq üstə durmasaydı, bəlkə də bu gün Azərbaycan yox idi. Başa düşürsünüz, o vaxtlar Azərbaycanı dağıtmaq istəyirdilər".

## 94. Ümummilli lider Heydər Əliyevin Türkiyə Cümhuriyyətinin qaziləri ilə görüşü

Prezident Heydər Əliyev 2000-ci il avqustun 15-də Türkiyə Cümhuriyyətinin qazilərini Prezident Sarayında qəbul edərkən yenə bu barədə fikirlərini bildirmişdi: "Bilirsiniz ki, 1918-ci ildə də Azərbaycan müstəqillik əldə etdi. Amma burada ermənilər yenə də azərbaycanlılara qarşı böyük ədalətsizliklər, savaşlar edirdilər. Onda hələ Osmanlı ordusu idi. Osmanlı ordusunun böyük bir hissəsi, böyük bir korpusu Nuru Paşanın rəhbərliyi altında buraya gəldi. Onlar burada - Bakıda, Gəncədə ermənilərin törətdiyi qırğınların qarşısını aldılar, şəhid oldular. O vaxt orada şəhid olmuşdular. O vaxt da onları indi bizim şəhidlərin məzarları olan yerdə dəfn etmişdilər. Təəssüflər ki, sonralar - sovet hakimiyyəti dövründə bu, tamamilə unudulmuşdu və bizim xalqımız da heç bilmirdi. Xalqımızın tarixində var ki, Türkiyənin Osmanlı ordusu gəlib Azərbaycanın erməni qırğınlarından xilas olunmasına yardım edibdir. Amma adamlar şəhidlərin məzarlarının, qəbirlərinin harada olduğunu bilmirdilər. Bunu biz aradıq, tapdıq. Sadiq Paşa ilə birlikdə Türkiyənin buradakı səfirliyi ilə birlikdə orada böyük bir abidə yaratdıq. Siz oranı da ziyarət etdiniz. Bunlar hamısı millətimizin qəhrəmanlarına, millətimizin şəhidlərinə göstərilən qayğımızdır, hörmətimizdir".

## 95. Rus-sovet işğalına qarşı xalq üsyanları və amansızlıqla yatırılması (1920-1922)

1920-ci il mayın ortalarından Bakıda sovet hakimiyyəti əleyhinə üsyana hazırlıq aparılırdı. Bakı şəhər hərbi qarnizonunun rəisi, 28-ci diviziyanın komandiri Nes-

terovskinin 1920-ci il mayın 26-da imzaladığı əmrdə deyilirdi: "Hansı evdən güllə atılsa, o ev top atəşinə tutulacaq, evdə sükunət edənlər də fəhlə və kəndli hökumətinin düşməni adlandırılaraq, 16 yaşından 50 yaşına qədər olan hər kəs mühakiməsiz güllələnəcək. Siqnal və yaxud nişan verənlər tutulduqları yerdə güllləbaran ediləcəklər".

Yeni hökumətə qarşı ilk qüvvətli üsyan Qarabağda başladı. Yerli əhali, xüsusən də daşnak Ermənistanının nizami qoşunlarına qarşı mübarizə aparmış Cümhuriyyət ordusunun əsgər və zabitləri yeni rejimə qarşı nifrətini silahlı çıxışlarla ifadə edirdilər. Bu zaman Şuşada Qarabağ sakinlərindən ibarət 300 nəfərlik silahlı dəstə də formalaşmışdı. Mayın 21-də Tərtərdə yerli əhali buradakı 11 -ci Qırmızı ordu bölmələrinə qarşı hücuma keçdi. Üsyançılar qalib gəldilər. 11-ci Qırmızı ordu hissələri 80 nəfərə qədər itki verdi. Tərtərdəki 11-ci Qırmızı ordu alayının komandiri Naumov öldürüldü. Üsyan Azərbaycanda sovet rejiminə qarşı ilk güclü müqavimət idi. Onun daha da genişlənməsinin qarşısını almaq üçün 11-ci ordu komandanlığı dərhal əməli tədbirlər gördü. Gəncədən Qarabağa süvari bölmələri gətirildi. Ermənilər xəyanət edərək, düşmən tərəfinə keçdilər. Ermənilərdən təşkil edilmiş dəstə 11-ci Qırmızı ordu dəstələri ilə birlikdə üsyanın yatırılmasında fəal iştirak etdi. Tərtər üsyançıları ağır cəzalandırıldı.

Gəncə üsyanı (1920) 11-ci ordu komandanlığını daha ciddi təşvişə saldı.

1920-ci il mayın 28-də Qafqaz cəbhəsi komandanı V.Gittis xüsusi direktiv imzaladı. Cəbhə komandanı Zaqatala, Gəncə, ġuÇa bölgələrində vəziyyətə nəzarət edilməsi üçün həmin yerlərdə lazımi qədər qüvvə saxlanılmasını lazım bildi. O, əsas vəzifə kimi, nəyin bahasına olursa-olsun, Bakıda vəziyyətə nəzarət olunması, neft mədənlərinin

və qurğularının qorunması haqqında göstəriş verdi. Xüsusi şöbənin əməkdaşları şubhələndikləri adamları terrorla aradan götürürdülər. Əhalidə saxlanılan silahlar toplanırdı. Sovet rejiminə qarşı ən adi hərəkətlərə görə amansız tədbirlər görülürdü. Silahları təhvil verməyən sakinlərdən 10 nəfər girov götürülüb güllələnmişdilər. Lakin 11 -ci ordu komandanlığının həyata keçirdiyi tədbirlər əhalinin narazılığını daha da artırdı. Gəncə üsyanından sonra növbəti kütləvi üsyan Qarabağda və Zaqatala bölgəsində baş verdi. Kür və Qanıq (Alazan) çaylarının qovuşacağında sovet hakimiyyətindən narazı olan əhali 800 nəfərlik silahlı dəstə yaratmışdı. Dəstənin sorəncamında 2 top və 8 ədəd pulemyot var idi. Qəbələdə bütün müsəlmanlar işğalçılar əleyhinə müqəddəs müharibəyə (cihada) çağırıldı. Bu çağırışa səs verənlər Şəkidən 50 verst cənub-şərqdə olan Xaçmaz kəndinə toplanırdı. Xalq könüllüləri Şamaxı-Quba yolu ilə şimala doğru hərəkət edib Azərbaycanın Sovet Dağıstanı ilə əlaqələrini kəsməli idi. 3000 nəfərlik başqa bir silahlı dəstə Cavad qəzasında, Saatlıda yaradılmışdı. Dəstə onlara qarşı göndərilmi 28-ci diviziyanın 2-ci süvari alayına hücum etdi. 1920-ci ilin yayında Şəmkirin Müsgürlü kəndində də sovet rejimi əleyhinə üsyan baş verdi. Qırmızı ordu hissələrinə müqavimət göstərmək üçün burada da yerli əhalidən silahlı dəstə təşkil olunmuşdu. Digər bölgələrdə olduğu kimi, 11-ci ordu komandanlığı buradakı üsyanın da yatırılmasına böyük qüvvələr göndərdi. Şəmkirdə sovet qüvvələrinə qarşı qadınlar və uşaqlar da vuruşurdular. Payızda burada alovlanan başqa bir üsyana Namaz adlı bir kəndli rəhbərlik edirdi. Üsyançılar 500 nəfərlik dəstə ilə qəzanın böyük bir hissəsində sovet rejimini ləğv etmişdilər. Qırmızı ordunun çoxsaylı hərbi qüvvələri bu üsyanı da böyük qəddarlıq və amansızlıqla yatıraraq,

yerli əhaliyə divan tutdu. Avqustun 23-də Quba qəzasında Küzün kəndinin əhalisi silahlı üsyan qalxdı. Onlar kənddə iki nəfər milisi öldürdülər və yeni hakimiyyətə itaətsizliklərini bəyan etdilər. Üsyanın qarşısını almaq üçün qəza komitəsi kəndə 4-cü süvari alayından 45 nəfərlik (30 nəfər süvari, 15 nəfər piyada) dəstə göndərdi. Lakin dəstə üsyanı yatıra bilmədi və çoxlu itki verdi. Dəstədən yalnız 6 nəfər xilas oldu. Qubanın hərbi komissan Küzün kəndində sovet hakimiyyotinin bərpa olunması üçün bir taqım və pulemyotçu göndərdi. Avqustun 26-da Küzün kəndinin üsyançıları ilə sovet qüvvələri arasında yeni döyüş oldu. Kənd əhalisi bu dəfə də sovet qüvvələrinə ciddi müqavimət göstərdi. Avqustun 29-da Qubanın 4 verstliyində (1 verst= 1,0668 km) sovet qüvvələri ilə üsyançılar arasında yeni vuruşma baş verdi. 100 nəfərlik sovet qüvvələri xeyli itki verdilər. Avqustun sonu - sentyabnn əvvəllərində üsyançıların silahlı dəstəsi tam formalaşmışdı. Cümhuriyyət ordusunun podpolkovniki Əfəndiyevin rəhbərlik etdiyi dəstədə türk zabitləri də vardı. Üsyançılar xeyli pulemyot və beşaçılan tüfəng əldə etmişdilər. Sentyabrın 3-də səhər saat 7-də üsyançılar Dəvəçi-Xaçmaz üzərinə hücum etdlər. Onların qarşısına 7-ci süvari dəstəsi çıxarıldı. Gərgin döyüşdən sonra sovet-bolşevik döyüşçüləri mövqelərini qoruyub saxlaya bildilər. Quba ərazisində mövcud olan güclü dəstələrdən birinə də AXC Parlamentinin keçmiş deputatı Həmdulla əfəndi Əfəndizadə rəhbərlik edirdi. Sovet rejimi üçün təhlükəli xarakter alan bu üsyanlar Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin 1920-ci il sentyabrın 9-da keçirilən plenumunda ciddi müzakirə edilmişdi. Plenum Quba üsyanını yatırmaq üçün Əliheydər Qarayev və Qoqoberidzeni ora ezam etmək barədə qərar qəbul etdi. Üsyan sentyabrın birinci ongünlüyünün sonla-

rına qədər davam etdi. Çətinliklə yatırılan Quba üsyançılarının böyük silahlı dəstələrindən birinin rəhbəri Həmdulla əfəndi Şamaxı ilə sərhəd olan yüksək dağ kəndlərinə çəkildi. Üsyançı kəndlər isə qırmızıların nəzarəti altına keçdi.

Sovet qoşunları 1920-ci il avqustun sonundan Qaradonlu (indiki İmişli) ətrafında üsyançı dəstəni məhv etməyə cəhd göstərsə də, bu cəhd nəticəsiz qaldı. Qaradonlu ətrafındakı 7 kənd də üsyançılara qoşuldu. Bu kəndlərin birləşmiş silahlı dəstəsinə Sarıxan rəhbərlik edirdi. Həmin dəstə xeyli gücə malik idi. Cavad qəzası İnqilab Komitəsinin sədri Baxtamov Bakıya göndərdiyi raportlarında israrla əlavə kömək göndərilməsini xahiş edirdi. Sarıxanın 4 minlik dəstəsinin qarşısını almaq üçün qəzada kifayət qədər qüvvə yox idi. Usyançı dəstə yerlərdəki sovet qüvvələrinin müqavimətini qıraraq, sentyabrın 21-də qəzanın daha bir neçə kəndini qırmızılardan təmizlədi. Kəndlərdə olan milislər də üsyançıların tərəfinə keçdilər. Qəza rəisi sentyabrın sonlarına aid raportlarının birində sovet hakimiyyətinin qəzadakı mövqeyinin getdikcə mürəkkəbləşdiyini və yaxın vaxtlarda təcili tədbirlər görülməzsə, Salyana qədər olan ərazilərin üsyançıların nəzarəti altına kcçəcəyini bildirirdi. Qəza rəisi sovet hakimiyyətinin möhkəmləndirilməsinin yeganə yolunu 11-ci ordu qüvvələrinin göndərilməsində ora görürdü. Çünki bölgədəki hərbi qüvvənin əsgər və komandirləri xalqla bir olduğundan üsyançılara qarşı çıxış etmirdilər. Azərbaycanın cənubunda ən kütləvi antisovet üsyanı Lənkəran-Astara bölgəsində baş verdi. Bu bölgədəki üsyanların əsas dalğası 1920-22-ci illərə təsadüf edir. Azərbaycanında sovet hakimiyyətinə qarşı çıxışlar 20 əsrin 30-cu illərində və ondan sonra da müxtəlif formalarda davam etmişdir.

Zəngəzur qazısı Bəhlul Bercətin “Cihad” bəyannaməsinə qoşulan üsyançılar Qubadlıda sovet hakimiyətinin yeni qurulmuş bütün strukturlarını öz əllərinə keçirmişdilər. 1936-cı ilə kimi bu bölgədə şura hökumətini tam bərqərar etmək mükün olmadı. Yalnız respublika rəhbəri M.C.Bağırovun başçılığı ilə Alyanlı qaçaqlarını, onların əli silah tutan bütün həmkəndlilərini amansızca qətlə yetirdikdən və narazıları elliklə düzən Qarabağa köçürdükdən sonra bolşevik hakimiyyəti bu yerlərdə mürtəce fəaliyyətini qura bilmişdi.

## 96. Azərbaycan Milli Ordusunun yaradılması

1917-ci ilin aprel ayında Bakıda keçirilən Qafqaz müsəlmanlarının qurultayında xüsusi hərbi hissələrin yaradılması ilə məşğul olan büronun təsis edilməsi haqqında qərar qəbul edildi. Musavat partiyasının 1917-ci ilin oktyabr ayının 26-da keçirilən birinci qurultayında milli ordu yaradılması məsələsi tələb edilirdi. Həmin ilin noyabr ayının 5 də Gəncədə keçirilən Qafqaz müsəlman hərbi qurultayı şəhərə gələn tatar atlı batalyonu bazasında Azərbaycan korpusunun yaradılmasını tövsiyə etdi.

1918-ci ilin may ayının 28-də qəbul edilmiş Azərbaycan Xalq Cümhuriyyətinin İstiqlal bəyannaməsində qeyd edilirdi ki, Azərbaycan özünü xarici müdaxilələrdən müdafiə etmək, daxili düşmən qüvvələri zərərsizləşdirmək üçün nizami orduya malik olmalı, özünün silahlı qüvvələrini yaratmalıdır. Çünki müstəqil ordusu olmayan dövlətin milli dövlətçiliyi həmişə yadellilərin təhlükəsi altında yaşamağa məhkumdur.

Ordu quruculuğu haqqında tədbirlər planına müvafiq olaraq 1919-cu il noyabr ayının 1-nə qədər ordunun ən

mühüm struktur bölmələri və hissələri yaradılıb başa çatdırılmalı idi. Bu müddət ərzində üç polkdan ibarət iki piyada diviziyası, artileriya diviziyası, xüsusi hissələrin daxil olduğu teleqraf, atlı, pulemyotçu dəstələri, tərkibində üç polk olan süvari diviziyası, hava dəstəsi, dəmir yol batolyonu təşkil edilməli idi.

Obyektiv çətinliklikər həm də onunla bağlı idi ki, Çar Rusiyasının hərbi siyasətində bir çox xalqlarla bərabər azərbaycanlılara qarşı qərəzli münasibət mövcud idi. Azərbaycanlılar bəzi istisnalar nəzərə alınmasa əsasən hərbi məktəblərə qəbul edilmir, ordu sıralarına çağrılmır, yalnız hərbi vergi verirdilər. Elə bu səbəbdən Azərbaycanda böyük hərbi hissələr və kifayət qədər hərbi silah yox idi. O vaxt yalnız Qafqaz atlı diviziyasının tərkibinə daxil olan azərbaycanlı atlı polku var idi.

## 97. AXC-nin hərbi nazirləri

1918-ci ilin may ayının 28-də yaradılan ilk kabinədə Azərbaycan hökumətinin Hərbi naziri vəzifəsinə general Xosrov bəy Sultanov (1879-1943) təyin edilmişdi. 1918-ci il 26 iyun tarixli fərmanla Azərbaycan Milli Ordusunun yaradılmasına başlandı. Avqustun 1-də AXC-nin Hərbi Nazirliyi təsis edildi. General Səməd bəy Mehmandarov dekabrın 25-də hərbi nazir, general-leytenant Əlağa Şıxlinski nazir müavini təyin edildilər. Qısa müddətdə Milli Ordu Osmanlı dövlətinin Qafqaz İslam Ordusu ilə birlikdə Bakını və ətraf qəzaları erməni-bolşevik işğalından xilas etdi. Bu hərbi birləşmələr Muğanda və Əsgəranda milli hökumətə qarşı baş vermiş qiyamları yatırmaqda yüksək səriştəlilik göstərdi, Qazaxda Azərbaycan sərhədlini pozmuş erməni nizami ordu hissələrini darmadağın etdi. Azərbaycan ordusunun Hüseynxan Naxçıvanski, İbrahim ağa

Usubov, Həmid Qaytabaşı, Kazım Qacar, Cavad bəy Şıxlinski, Həbibbəy Səlimov kimi istedadlı generalları var idi. AXC süqut etdikdən sonra bolşevik hökuməti Milli Ordunu ləğv etdi. Onun rəhbərlərinin əksəriyyəti Nargin adasına aparılıb güllələndi.

### 98. Azərbaycan Respublikasının Silahlı Qüvvələri – 100 (1918-2018)

İlk dəfə Azərbaycan Respublikası Prezidentinin 1992-ci il 18 sentyabr tarixli fərmanı ilə təsis edilmiş və 1991-ci ildə Azərbaycanın dövlət müstəqilliyinin bərpasından sonra Azərbaycan ordusunun yaradılması barədə Azərbaycan Ali Sovetinin qərarının qəbul edildiyi tarix – 9 oktyabr Azərbaycan Respublikası Silahlı Qüvvələri günü elan edilmişdir. Azərbaycan Respublikası Prezidentinin 22 may 1998-ci il tarixli Fərmanına əsasən həmin fərman qüvvədən düşürülmüş və 26 iyun 1918-ci ildə AXC-nin Milli Ordusunun yaradıldığı gün Azərbaycan Respublikası Silahlı Qüvvələri günü elan edilmişdir.

### 99. Azərbaycan xalqı və dövləti M.Ə.Rəsulzadənin xatirəsini əziz tutur

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev "Azərbaycanın görkəmli ictimai-siyasi xadimi M.Ə.Rəsulzadənin anadan olmasının 110 illik yubileyinin keçirilməsi haqqında" 29 dekabr 1993-cü il tarixli, 79 nömrəli Fərmanı imzalamışdır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Məhəmməd Əmin Rəsulzadənin 130 illik yubileyinin keçirilməsi haqqında" 22 noyabr 2013-cü il tarixli sərəncam imzalamışdır.

## 100. Xronoloji cədvəl (1918-1920-ci illər)

1918, 23 fevral – Zaqafqaziya Seyminin açılması, Zaqafqaziya hökumətinin təşkili.

1918, 7 mart – Zaqafqaziya Seymi tərəfindən aqrar qanunun qəbulu.

1918, 14-20 mart – Zaqafqaziya Seymi ilə Türkiyə arasında Trabzon konfransının keçirilməsi.

1918, mart-aprel – Bolşevik-daşnak qüvvələri tərəfindən Azərbaycanlıların Soyqırımı

1918, 22 aprel – Zaqafqaziya Seymi tərəfindən Zaqafqaziyanın müstəqilliyinin elan edilməsi

1918, 25 aprel – Bakı Soveti Xalq Komissarları Şurasının təşkili

1918, 26 aprel – Zaqafqaziya Seymi tərəfindən Çxengelinin başçılığı ilə yeni Zaqafqaziya hökumətinin təsdiqi

1918, 30 aprel – Bakı şəhər dumasının İnqilabi Müdafiə Komitəsi tərəfindən ləğvi

1918, 1 may – Qubanın Bakı Soveti qoşunları tərəfindən tutulması

1918, 11 may – Batum Sülh Konfransı

1918, 26 may – Zaqafqaziya Seyminin son iclası

1918, 27 may – Azərbaycan Milli Şurasının təşkili; Azərbaycanın müstəqillik aktının qəbulu

1918, 28 may – AXC-nin Azərbaycanın istiqlaliyyəti haqqında Aktın (Əqdnamə) qəbul edilməsi

1918, 28 may – 17 iyun - F.Xoyskinin başçılığı altında I hökumət kabinetinin fəaliyyət dövrü

1918, 4 iyun – Azərbaycan və Osmanlı hökumətləri arasında Sülh və Dostluq müqaviləsinin imzalanması

1918, 5 iyun – Türk ordusunun Yelizavetpola daxil olması

1918, 16 iyun – Azərbaycan Cümhuriyyəti Milli Şurasının və hökumətinin Tiflisdən Gəncəyə köçməsi

1918, 17 iyun – Milli Şuraının buraxılması

1918, 17 iyun-7 dekabr – F.Xoyskinin başçılığı altında Ü Hökumət Kabinetinin fəaliyyət dövrü

1918, 23 iyun – Azərbaycanda hərbi vəziyyətin elan edilməsi

1918, 26 iyun – Müsəlman korpusunun Azərbaycan korpusuna çevrilməsi haqqında Azərbaycan hökumətinin qərar qəbul etməsi. Azərbaycan Milli Ordusunun yaradılması

1918, 26 iyun – Zaqatala Quberniyasının yaradılması

1918, 27 iyun – Qafqaz İslam Ordusunun Göyçay yaxınlığında Bakı Sovet qoşunları üzərindəki qələbəsi

1918, 27 iyun – Azərbaycan (türk) dilinin Azərbaycan Cümhuriyyətinin Dövlət Dili elan edilməsi

1918, 10 iyul – Qafqaz İslam Ordusunun Kürdəmir və Şamaxını azad etməsi

1918, 11 iyul – Azərbaycan hökumətinin ümumi səfərbərlik haqqında qərar qəbul etməsi

1918, 25 iyul – Bakı Soveti tərəfindən ingilislərin Bakıya dəvət edilməsi haqqında qərarın qəbulu

1918,30 iyul – Çar Rusiyasının istilası zamanı Yelizavetpol adlandırılmış Gəncə şəhərinin tarixi adının bərpa edilməsi

1918, 31 iyul – Bakı Xalq Komissarları Şurasının süqutu

1918, 1 avqust – Sentrokaspi Diktaturası və Fəhlə Əsgər Deputatları Sovetinin Müvəqqəti İcraiyyə Komitəsinin birgə hökumətinin təşkili

1918, 4 avqust – İlk ingilis qoşun dəstəsinin Bakıya gəlməsi

1918, 28 avqust – Azərbaycan dilinin tədris edilməsi haqqında Nazirlər Şurasının qərarı

1918, 4 sentyabr – İngilis qoşunlarının Bakını tərk etməsi

1918, 15 sentyabr – Qafqaz İslam Ordusunun Bakı şəhərini azad etməsi

1918, 17 sentyabr – Azərbaycan hökumətinin Bakıda fəaliyyətə başlaması

1918, 5 oktyabr – Azərbaycan hökumətinin neft sənayesinin dövlətsizləşdirilməsi haqqında qərarı

1918, 18 oktyabr – Bakı şəhərində "Türk Ocağı" cəmiyyətinin yaranması

1918, 30 oktyabr – Türkiyə və Antanta ölkələri arasında Mudros müqaviləsinin imzalanması

1918, 1 noyabr – Hərbi Nazirliyin təsis edilməsi

1918, 9 noyabr – Azərbaycan Cümhuriyyətinin Dövlət Bayrağı haqqında qanunun qəbul edilməsi

1918, 16 noyabr – Azərbaycan Milli Şurasının bərpası; Qori seminariyasının Azərbaycan bölməsinin Qazağa köçürülməsi

1918, 17 noyabr – General Tomsonun başçılıq etdiyi ingilis qoşunlarının Mudros müqaviləsinə əsasən Azərbaycana daxil olması

1918, 20 noyabr – Azərbaycan Cümhuriyyəti Parlamenti haqqında qanunun qəbulu

1918, 29 noyabr – Xəzər Donanması ticarət gəmilərinin ingilis komandanlığının ixtiyarına keçməsi, "İngilis dəniz nəqliyyatı"nın yaranması

1918, 7 dekabr – Azərbaycan Cümhuriyyəti Parlamentinin açılışı

1918, 26 dekabr – F. Xoyskinin başçılığı ilə ÜI Hökumət Kabinetinin təşkili; Gürcüstan və Azərbaycan ara-

sında tranzit müqaviləsinin bağlanması

1918, 28 dekabr – Azərbaycan Cümhuriyyəti hökumətinin tanınması haqqında Bakı general-qubernatoru Tomsonun deklarasiyası

1919, 15 yanvar – Qarabağ general-qubernatorluğunun yaradılması; Azərbaycan Cümhuriyyəti Silahlı Qüvvələri Baş Qərargahının təşkili

1919, 4 fevral – Parlamentin Aqrar Komissiyasının təşkili

1919, 25 fevral – F.Xoyskinin ÜI Hökumət Kabinetinin istefası

1919, 5 aprel – Hərbi Nazirliyin Bakıya köçürülməsi

1919, 14 aprel – Azərbaycan Cümhuriyyəti Parlamentinin N.Yusifbəyli başda olmaqla IV Hökumət Kabinetini təsdiq etməsi

1919, 28 may – Azərbaycan nümayəndə heyətinin Paris Sülh Konfransında ABŞ prezidenti Vilsonla görüşü

1919, 29 may – Cənubi Qafqaz Respublikalarının Tiflis kohfransının keçirilməsi

1919, 31 may – Arbitraj orqanının yaradılması haqqında hökumətin qərar qəbul etməsi

1919, 11 iyun – Hökumətin Dövlət Müdafiə Komitəsinin təşkili haqqında qərar qəbul etməsi; Dövlət Müdafiə Komitəsi tərəfindən Azərbaycan Cümhuriyyəti ərazisində hərbi vəziyyət elan edilməsi

1919, 13 iyun – Paris Sülh Konfransında Kolçakın Rusiya ərazisində ali hakimiyyətinin tanınması haqqında sənədin qəbul edilməsi; Azərbaycan, Gürcüstan, Şimali Qafqaz, Belarusiya Ukrayna, Estoniya və Latviya nümayəndələrinin buna etiraz etməsi

1919, 13 iyun – İngilislərə qarşı Bakıda nümayişlərin keçirilməsi

1919, 16 iyun – Azərbaycan-Gürcüstan arasında hərbi müdafiə aktının imzalanması

1919, 27 iyun – Ərazi bütövlüyünü birgə qorumaq haqqında Azərbaycan-Gürcüstan müqaviləsini Parlamentin təsdiq etməsi

1919, 6 avqust – General Tomsonun Xəzər Hərbi Donanmasını Denikinin könüllülər ordusuna vermək barədə sərəncam imzalaması

1919, 11 avqust – AXC Parlamentinin Azərbaycan vətəndaşlığı haqqında qanunu qəbul etməsi

1919, 24 avqust – İngilislərin Bakını tərk etməyə başlamaları

1919, 24 avqust – Azərbaycan Dövlət Bankının yaradılması haqqında qanun qəbul edilməsi

1919, 1 sentyabr – Bakı Dövlət Universitetinin açılması haqqında qanun qəbul edilməsi

1919, 13 sentyabr – Baş nazir N.Yusifbəylinin IV Hökumətin Sədri vəzifəsindən istefası

1919, 25 oktyabr – Azərbaycan Dövlət Bankının açılışı

1919, 23 noyabr – Tiflisdə Azərbaycan və Ermənistan tərəfləri arasında baş verən bütün münaqişələrə son qoyulması və sərhəd məsələsinin sülh yolu ilə həll edilməsini nəzərdə tutan müqavilənin imzalanması

1919, 2-11 dekabr – Türk Ədəmi-Mərkəziyyət Müsavat partiyasının Ü qurultayı

1919, 22 dekabr – Parlamentin N.Yusifbəylinin başçılığı ilə V Hökumət Kabiheti tərkibini təsdiq etməsi

1920, 2 yanvar – Sovet Rusiyasının Denikinə qarşı birgə mübarizə aparmaq təklifi haqqında Azərbaycan Cümhuriyyətinə birinci dəfə nota verməsi

1920, 11 yanvar – Azərbaycanın müstəqilliyini Paris Sülh Konfransında Antanta Ali Şurasının de-fakto tanıması

1920, 14 yanvar – F.Xoyskinin Rusiyanın Denikinlə mübarizəsinin onun daxili işi olması haqqında Çiçerinə cavab notası verməsi

1920, yanvar – Paris Sülh Konfransının Azərbaycan Cümhuriyyətinə kömək göstərilməsi haqqında qərar qəbul etməsi

1920, 23 yanvar – Q.Çişerinin Azərbaycan hökumətini Denikinə qarşı mübarizəsindən imtina etməkdə ittiham edən ikinci notasının verilməsi

1920, 18 fevral – M.Hacınskinin Daxili İşlər naziri vəzifəsindən istefa verməsi

1920, 20 mart – Azərbaycan-İran müqaviləsinin bağlanması; Bu müqaviləyə əsasən Azərbaycanın İran tərəfindən de-yure tanınması

1920, 23 mart – Əkin və Əkinçilik naziri Ə.C.Pepinovun istefa verməsi

1920, 23 mart – Azərbaycan və Gürcüstan arasında ticarət müqaviləsinin imzalanması

1920, 9 aprel – Poçt və Teleqraf naziri socialist C.Hacınskinin istefa verməsi

1920, 15 aprel – F.Xoyskinin Q.Çiçerinə Rusiya qoşun hissələrinin Azərbaycan sərhədlərində cəmləşməsi ilə bağlı Azərbaycan dövlətinin narahatlığını ifadə edən notası

1920, 27 aprel – XI Qızıl Ordunun Azərbaycan Xalq Cumhuriyyəti ərazisinə daxil olması

1920, 28 aprel – Azərbaycan Cümhuriyyəti Parlamenti tərəfindən Azərbaycan İnqilab Komitəsinin hakimiyyəti ona təhvil verməsi haqqında

# Son söz

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi haqqında" 16 may 2017-ci il tarixli və "2018-ci ilin Azərbaycan Respublikasında "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan edilməsi haqqında" 10 yanvar 2018-ci il tarixli Sərəncamları ölkə vətəndaşlarımızın nəzər-diqqətini yenidən xalqımızın şanlı tarixində şərəfli yer tutan Cümhuriyyətimizə doğru yönəltdi. 2018-ci il may ayının 28-də müsəlman Şərqində ilk parlamentli respublikanın – Azərbaycan Xalq Cümhuriyyətinin yaranması, şübhə yoxdur ki, qədim və zəngin dövlətçilik ənənələrinə malik Azərbaycan xalqının tarixində yeni bir dövrdür. Mürəkkəb tarixi zamanda, dünyanın xəritəsinin yenidən cızıldığı bir dövrdə Azərbaycan Xalq Cümhuriyyətinin elan edilməsi həm də onun yaradıcı liderlərinin müdrik uzaqgörənliyi və ziyalılığının, milli fikir və düşüncənin tərcümanı ola bilmələrinin, yüksək səviyyəli təhsilə və maarifçilik bacarığına malik olmalarının, milli köklərimizə möhkəm bağlılığının, vətənə və xalqa dərin sevgisinin parlaq təzahürü idi.

1918-ci il mayın 28-də Azərbaycanın müstəqilliyini bəyan edən İstiqlal Bəyannaməsinin, yeni qurulan Azərbaycan Xalq Cümhuriyyətinin öz üzərinə götürdüyü məqsəd, məramlar bolşevik Rusiyasının işğalı nəticəsində reallaşa bilmədi. Tarix bu şərəfli missiyanın gerçəkləşməsini müasir Azərbaycan dövlətinin qurucusu, Ümummilli lider Heydər Əliyevə bəxş etdi. Məhz onun siyasi iradəsi və müdrikliyi sayəsində Azərbaycanın istiqlaliyyəti əbədi, dönməz oldu, respublikamız sivil dünya birliyinin ayrılmaz hissəsinə, regionun aparıcı dövlətinə çevrildi.

Ümummilli lider Heydər Əliyevin milli düşüncəsinin, mənsub olduğu xalqa sonsuz məhəbbətinin, tarixi ideyalara sədaqətinin nəticəsidir ki, Azərbaycanın ilk Parlamenti və Hökumətinin ilyarımlıq fəaliyyəti ərzində qəbul etdiyi bir çox qanunlar, eləcə də milli dövlətin müstəqilliyinin möhkəmləndirilməsinə, siyasi və iqtisadi inkişafa, mədəniyyət və maarif sahələrində sürətli irəliləyişə imkan verən ideallar həqiqətə çevrildi, dövlət atributlarımız - bayraq, himn və gerbimiz Cümhuriyyyət dövründə olduğu kimi saxlanıldı. Ulu Öndərin və onun siyasi ideyalarının davamçısı Azərbaycan Prezidenti cənab İlham Əliyevin böyük dövlətçilik təcrübəsinin, geniş siyasi təfəkkürünün nəticəsində müasir Azərbaycan Respublikası Azərbaycan Xalq Cümhuriyyətinin layiqli varisi və davamçısı oldu.

Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondunun təsis edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 7 mart 2014-cü il tarixli Fərmanı ölkəmizdə maarifçilik ənənələrinin daha geniş vüsət almasını, təbliğat işinin milli dövlət müstəqilliyimizin bu günkü inkişaf səviyyyəsinə qaldırılmasını, azərbaycançılıq məfkurəsinin, milli-mənəvi dəyərlərimizin təşviqi və yayılmasını ən mühüm vəzifə kimi qarşıya qoymuşdur.

Azərbaycan Xalq Cümhuriyyətinin bir əsrlik yubileyi Bilik Fondunun fəaliyyətində yeni səhifə açmış, milli dövlətçilik tariximizin təbliği sahəsində maarifçilik işlərinin daha böyük vüsət almasına təkan vermişdir.

Cari ilin əvvəlindən Fondun mühazirəçisi olan tanınmış alimlərimizin iştirakı ilə toplantılar keçirilmiş, məsləhətləşmələr aparılmış, dövlət başçımızın Sərəncamının işığında “Azərbaycan Xalq Cümhuriyyəti ili”ndə görüləcək işlərin əsas istiqamətləri, konfrans, mühazirə, “dəyirmi masa”, seminar, siyasi dərs, təqdimat, elmi tur, müsabiqə və s. tədbirlərin mövzuları müəyyənləşdirilmiş, təqvim

planları hazırlanıb təsdiq olunmuşdur. Fəaliyyət planı xaricdəki tərəfdaş qurumlarla əməkdaşlığın, əlaqələrin genişlənməsini də nəzərdə tutur.

Bilik Fondu qərara aldığı ilk hədəfə - Cümhuriyyətimizin elan edildiyi 28 may tarixinə qədər 100 tədbir keçirmək barədə götürdüyü vədə artıq əməl etmişdir. On mindən çox vətəndaşımızın qatıldığı rəngarəng tədbirlərimizdə millət vəkilləri, dövlət qulluqçuları, tanınmış elm və mədəniyyət xadimləri, akademik, professor, dosent, yaradıcı ziyalılar və jurnalistlər mühazirəçi qismində çıxış etmişlər. Tədbirlərimiz ölkənin bütün bölgələrini əhatə etmiş, yaxın və uzaq xaricdə Cümhuriyyət tariximizlə bağlı maarifləndirici tədbirlər təşkil olunmuşdur.

Tədbirlərimizin mahiyyətində Azərbaycan Xalq Cümhuriyyəti tarixi ilə yanaşı, həm də Azərbaycanın ikinci dəfə öz dövlət müstəqilliyinə qovuşmasından sonra baş vermiş mühüm hadisələr, Ümummilli lider Heydər Əliyev və Prezident İlham Əliyevin dövlət müstəqilliyimizin möhkəmlənməsinə, inkişafına, xalqımızın maddi, mənəvi rifahının yüksəldilməsinə yönəldilmiş geniş miqyaslı siyasətininin mahiyyəti də əhaliyə çatdırılmışdır.

Əməkdaşımız, tarixçi-araşdırmaçı, 15 kitabın, 50-dən çox elmi məqalənin müəllifi Hacı Abdullanın hazırladığı bu kitabçada Cümhuriyyət tariximizlə bağlı ən mühüm məlumatlar qısaca yer alıb.

İnanırıq ki, Bilik Fondunun növbəti nəşri olan bu kitabça da əhalimizin, xüsusilə də gənclərimizin Azərbaycan Xalq Cümhuriyyəti tarixinə dair elmi biliklərinin genişlənməsinə yardımçı olacaq, maarifçilik fəaliyyətimizə töhfə verəcəkdir.

**Oktay Səmədov**,

*Azərbaycan Respublikasının Prezidenti yanında*
*Bilik Fondunun icraçı direktoru*

# Mündəricat


Ön söz *(Anar İsgəndərov)* ................................................. 3

Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ................................................. 5

2018-ci ilin Azərbaycan Respublikasında "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ................................................. 9

Son söz *(Oktay Səmədov)* ................................................. 145


---


Çapa imzalanıb: 05.05.2017.
Format: 84x108 1/16. Qarnitur: Times.
Həcmi: 9, 25 ç.v. Tiraj: 500. Sifariş № 201.

MÜTƏRCİM

TƏRCÜMƏ
VƏ NƏŞRİYYAT-POLİQRAFİYA MƏRKƏZİ



Az 1014, Bakı, Rəsul Rza küç., 125/139b
Tel./faks 596 21 44; (055) 715 63 99
*e-mail: mutarjim@mail.ru*
www.mutercim.az